# “Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti


## Baş redaktor

**Sakit YAQUBOV** *iqtisad elmləri doktoru, professor*

## Redaksiya heyəti:

**Ziyad SƏMƏDZADƏ** *iqtisad elmləri doktoru, professor*
*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü*

**Şahin SADIQOV** *iqtisad elmləri doktoru, professor*

**Ədalət MURADOV** *iqtisad elmləri doktoru, professor*

**Vahid NOVRUZOV** *iqtisad elmləri doktoru, professor*

**Nazim İMANOV** *iqtisad elmləri doktoru, professor*

**Süleyman QASIMOV** *iqtisad elmləri doktoru, professor*

**Tahir BUDAQOV** *tibb üzrə fəlsəfə doktoru*

**Azər ƏMİRASLANOV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Mehman TAĞIYEV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Saleh MÖVLAMOV** *iqtisad üzrə fəlsəfə doktoru*

**Aleksey PONOMARENKO** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Rusiya Federasiyası)*

**Roumen VESSELİNOV** *iqtisad üzrə fəlsəfə doktoru, dosent (Amerika Birləşmiş Ştatları)*

**Alxan MANSUROV** *məsul katib*

**_“Statistika xəbərləri” elmi-praktik jurnalının rubrikaları_**

Statistikanın inkişaf strategiyası və taktikası

Statistik təsnifatlar, standartlar və registrlər

Statistik müşahidə metodları

Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası

İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları

Statistik informasiya sisteminin təkmilləşdirilməsi

Milli Hesablar Sistemi

Statistik tədqiqatlar

Statistika sahəsində beynəlxalq əməkdaşlıq

Statistika: xronika, informasiya

Biblioqrafiya: yeni nəşrlər

Oxucuların rəy və təklifləri

Statistika: rəsmi sənədlər

Statistika: metodoloji təminat (metodoloji əlavələr)

Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

# Mündəricat


səh.

**<u>İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR</u>**

***Aida İbrahimova, Zərifə Nağıyeva***
Rəqəmsal iqtisadiyyat və elektron ticarət........ 4

***Yaşar Paşa, Nəbi Quliyev***
COVID-19-un ev təsərrüfatlarının istehlak xərclərinə təsirləri........ 10

***Nizami Qafarov***
Aqrar sahədə mövcud investisiya potensialından istifadənin təkmilləşdirilməsi........ 16

***Nizami Kazımov, Zülfüqar Məhərrəmov***
Azərbaycanda aqrar sektorun statistik icmalı və azad edilmiş rayonların kənd təsərrüfatı potensialı........ 26

***Pərvin Verdiyeva***
Azərbaycanın ixrac səbətinin İqtisadi Mürəkkəblik İndeksi (İMİ) əsasında təhlili........ 34

***Şamxal Məmmədov***
Azərbaycanda pandemiya dövründə elektron ticarətə artan tələbat........ 41

**<u>METODOLOGİYA</u>**

***Mübariz Nuriyev, Saleh Mövlamov***
Statistik tədqiqlaratın təşkili məsələləri........ 50

***Рауф Салаев***
Прогнозирования в налоговой системе налоговых поступлений, их преимущество и недостатки в условиях цифровой экономики........ 56

***Novruz Hüseynov***
Büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında uçot və hesabatın təkmilləşdirilməsi istiqamətləri........ 67

***Xaqani Məcidov***
Fərdin iqtisadi təhlükəsizliyi: təhlükəsizlik mühitinə təhdidlər, müdafiə və qiymətləndirmə metodologiyası........ 74

***Zeynəb Qiyasova***
Azərbaycanda innovasiyalı inkişaf və innovativ sahibkarlığın təkmilləşdirilməsi........ 80

**<u>2021-ci İLİN I YARIMİLLİYİ ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR</u>**

Makroiqtisadi göstəricilər........ 87
Ümumi Daxili Məhsul istehsalı........ 89
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər........ 89
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri........ 90
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu........ 91
İqtisadiyyata kredit qoyuluşu........ 91
Dövlət büdcəsinin gəlirləri........ 91
Dövlət büdcəsinin xərcləri........ 92
Nəqliyyat sektorunda yük dövriyyəsi........ 92
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi........ 93
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri........ 93
İxrac olunan mühüm növ məhsullar........ 94
İdxal olunan mühüm növ məhsullar........ 95

**<u>AZƏRBAYCANIN STATİSTİKA TARİXİ SƏHİFƏLƏRİNDƏN</u>**

Fikrət Abidov Aqqırax oğlu (anadan olmasının 95 illiyinə)........ 96
Məqalələrin təqdimolunma qaydaları........ 98

UOT:33.311
DOI:10.338.70/2413-6557-2021-7-3-

# RƏQƏMSAL İQTİSADİYYAT VƏ ELEKTRON TİCARƏT

***Aida İbrahimova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Ticarət statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: aida.ibrahimova@stat.gov.az*

***Zərifə Nağıyeva***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin*
*Elmi araşdırmalar və statistik tədqiqatlar şöbəsinin rəisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: zarifa.naghiyeva@stat.gov.az*

**Açar sözlər:** rəqəmsal iqtisadiyyat, qloballaşma, Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində vəziyyət, kompüterdən istifadə, internetdən istifadə, elektron ticarət.
**Ключевые слова:** цифровая экономика, глобализация, ситуация в сфере информационных и коммуникационных технологий в Азербайджане, использование компьютеров, использование Интернета, электронная торговля.
**Keywords:** digital economy, globalization, situation in the field of information and communication technologies in Azerbaijan, the use of computers, the use of the Internet, electronic trading.

Müasir dövr irimiqyaslı, mürəkkəb və valehedici texnoloji innovasiyaların sürətlə inkişaf etdiyi, süni intellektin həyatımızın müxtəlif sferalarına daxil olduğu böyük bir dəyişikliklərlə səciyyələnir. XX əsrin sonlarından etibarən süni intellekt, robotlar, əşyaların interneti, avtonom maşınlar, üçölçülü printerlər, nanotexnologiya, biotexnologiya və kvant hesablamaları kimi texnoloji yeniliklər dördüncü sənaye inqilabının əsasını qoymuş oldu. İstehsalın mexanikləşdirilməsinə imkan verən su və buxar enerjisinə, seriyalarla məhsul istehsalını mümkün edən elektrik enerjisinə, istehsalın sürətlə irəliləməsini təmin edən elektronika və informasiya texnologiyalarına əsaslanan ardıcıl üç inqilabdan fərqli olaraq dördüncü sənaye inqilabı həyatın bütün sahələrinə sistemli şəkildə təsir edərək iqtisadi və sosial sahənin bütün sektorlarında, sosial münasibətlərin strukturunda keyfiyyət dəyişikliklərinə səbəb oldu. İqtisadiyyatın rəqəmsallaşdırılması istehsalın artımına və məhsuldarlığın yüksəlməsinə əlavə imkanlar yaratdı. Sosial həyatın bütün sahələrinin transformasiyasına böyük təsir göstərən, dünyanın müxtəlif ölkələrinin qarşılıqlı əlaqəsinin artmasına yardım edən, davamlı proseslərdən biri olan qloballaşma müasir dünya inkişafında hakim təmayüllər arasında xüsusi yer tutmağa başladı.

Qloballaşma qlobal iqtisadiyyatın, geosiyasi və sosial-mədəni məkanın formalaşmasında ifadə olunan dəyişikliklərin dönməzliyində, əhatəliliyində və kompleks təbiətində özünü büruzə verdi. Bu isə siyasət, iqtisadiyyat, elm, texnika və texnologiya, informasiya, təhsil, mədəniyyət, ideologiya və hüquq sahəsindəki milli sərhədlərin itirilməsinə səbəb oldu.

Hazırda qloballaşma informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı, internet və mobil rabitənin yayılması ilə xarakterizə olunan inkişafın keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyur. Mövcud qloballaşma mərhələsinin əsas texnoloji atributları dünyanı vahid bir rabitə sisteminə birləşdirən, ayrılmaz bir maliyyə və informasiya məkanı yaradan kompüter və onun yaratdığı yeni İKT-lərdir.

Bir tərəfdən informasiya texnologiyalarının inkişafı və təkmilləşdirilməsi, milli iqtisadiyyatların İKT-nin mal və xidmətləri ilə təchiz olunması, digər tərəfdən isə əsas infrastruktur komponentləri olan mobil rabitə və internetin hər yerdə geniş yayılması dünya iqtisadiyyatında və beynəlxalq ticarətdə müasir transformasiyaların əsasını təşkil edir. Müasir dövrdə orta hesabla

dünya əhalisinin hər bir sakini mobil abunəçisidir və dünya əhalisinin demək olar ki, yarısı internetdən istifadə edir [1].

Ölkəmizin sosial-iqtisadi həyatında mühüm rol oynayan İKT öz inkişaf səviyyəsinə görə iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha qabarıq şəkildə nəzərə çarpır. Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafını yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələndirmək olar.

Bu gün Azərbaycan Respublikasında İKT sahəsindəki fəaliyyət ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Onun 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur.

XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahə hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir. Hazırkı dövrdə və gələcək perspektivdə İKT-nin əhəmiyyəti ön plana keçir. Müasir rabitə və informasiya texnologiyaları ölkənin hərtərəfli inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar açır.

Azərbaycanda İKT-nin sürətli inkişafı aşağıda təsvir olunan cədvəldə öz əksinin tapmışdır.

**Cədvəl 1**

**Ev təsərrüfatlarında və müəssisələrdə İKT-dən istifadənin əsas göstəriciləri [2]**

| Göstəricilərin adı | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə | 8,6 | 10,1 | 14,6 | 18,2 | 30,3 | 38,3 | 47,7 | 53,2 | 58,3 | 62,4 | 63,1 | 63,8 | 64,1 | 65,0 |
| Kompüterdən istifadə edən əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi, faizlə | 16,8 | 21,5 | 24,9 | 30,8 | 38,0 | 48,0 | 56,0 | 62,0 | 67,8 | 69,9 | 70,8 | 71,7 | 72,5 | 74,1 |
| Evdə internetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə | 21,1 | 27,8 | 30,2 | 33,3 | 45,1 | 53,7 | 64,4 | 71,6 | 75,2 | 76,7 | 77,2 | 77,8 | 78,2 | 79,1 |
| İnternetdən istifadə edən əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi, faizlə | 9,7 | 10,7 | 17,2 | 27,4 | 46,0 | 65,0 | 70,0 | 73,0 | 75,0 | 77,0 | 78,0 | 79,0 | 79,8 | 81,1 |
| Kompüterdən istifadə edən müəssisələrin ölkədə fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 21,0 | 22,8 | 23,7 | 24,2 | 47,3 | 56,3 | 57,1 | 57,8 | 58,6 | 63,1 | 65,3 | 66,9 | 67,2 | 62,8 |
| Kompüterdən istifadə edən işçilərin sayının fəaliyyət göstərən bütün müəssisələrdə çalışan işçilərin siyahı sayına nisbəti, faizlə | 8,9 | 10,2 | 12,2 | 14,5 | 15,8 | 17,7 | 18,5 | 21,6 | 23,2 | 28,0 | 29,6 | 30,7 | 33,4 | 33,9 |
| İnternetə çıxışı olan müəssisələrin bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 3,9 | 10,6 | 11,7 | 13,8 | 27,9 | 35,6 | 40,9 | 42,2 | 45,7 | 48,0 | 51,6 | 52,5 | 52,9 | 51,5 |
| İnternetdən istifadə edən işçilərin sayının fəaliyyət göstərən bütün müəssisələrdə çalışan işçilərin siyahı sayına nisbətən, faizlə | 1,6 | 3,5 | 4,0 | 5,0 | 7,1 | 10,3 | 10,9 | 14,4 | 16,5 | 20,4 | 21,9 | 23,1 | 25,3 | 25,8 |

Cədvəldən göründüyü kimi, kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi 2006-cı ildə 8.6% təşkil etmişdirsə, artıq 2019-cu ildə bu göstərici 65%-ə çatmışdır. Müvafiq olaraq kompüterdən istifadə edən əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi 16.8%-dən 74.1%-ə, evdə internetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə bütün ev təsərrüfatlarında xüsusi çəkisi 21.1%-dən 79.1%-ə, internetdən istifadə edən əhalinin ölkə üzrə bütün əhalinin sayında xüsusi çəkisi isə 9.7%-dən 81.1%-ə yüksəlmişdir. Eləcə də müəssisələrdə müvafiq göstəricilər üzrə artan dinamika müşayiət olunmuşdur. Belə ki, kompüterdən istifadə edən müəssisələrin ölkədə fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi 2006-cı ildə 21% təşkil etmişdirsə, 2019-cu ildə bu göstərici 62.8%-ə çatmışdır. Kompüterdən istifadə edən işçilərin sayının fəaliyyət göstərən bütün müəssisələrdə çalışan işçilərin siyahı sayına nisbəti müvafiq olaraq, 8.9%-dən 33.9%-ə, internetə çıxışı olan müəssisələrin bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi 3.9%-dən 51.5%-ə, internetdən istifadə edən işçilərin sayının fəaliyyət göstərən bütün müəssisələrdə çalışan işçilərin siyahı sayına nisbətən 1.6%-dən 25.8%-ə yüksəlmişdir.

Bu artımı aşağıdakı şəkildə verilmiş təsvirdən daha aydın görmək olar (şəkil 1).




Şəkil 1. Ev təsərrüfatlarında və müəssisələrdə İKT-dən istifadənin əsas göstəricilərinin 2006-2019-cu illər üzrə dinamikası

İnternet qısa müddətdə şirkətlərin bahalı fiziki ticarət platformalarına qənaət etməsinə, logistika xərclərini optimallaşdırmasına və azaltmasına imkan verən mühüm bir ticarət alətinə çevrilmişdir.

Dünya iqtisadiyyatının intensiv inkişafı beynəlxalq əməkdaşlığın hərtərəfli genişlənməsinə təsir göstərir ki, onun həyata keçirilməsi yollarından biri beynəlxalq ticarətdir.

Rəqəmsal ticarət platformaları fərdi sahibkarlara, mikro müəssisələrə, kiçik fermerlərə məhsulları daha sərfəli qiymətə və daha çox miqdarda satmağa, minimum xərclərlə dünya bazarlarına çıxartmağa, ən yeni xarici məhsul və texnologiyaları almağa imkan verir. Bütün bunlar müxtəlif ölkələrdən və fəaliyyət sahələrindən daha geniş sahibkar təbəqəsini əhatə etməklə beynəlxalq ticarətin sferasını genişləndirməyi təşviq edir. Qlobal iqtisadiyyatda və beynəlxalq ticarətdə rəqəmsallaşma miqyası sürətlə böyüyür və rəqəmsal məkan qlobal ticarət üçün əsas sahəyə çevrilir. Rəqəmsal transformasiyanın beynəlxalq ticarət üçün nəticələri aşağıdakılardır [3]:

- real mal və xidmətlər üzrə bir çox əməliyyatların rəqəmsal mühitə keçməsi ilə yanaşı, beynəlxalq ticarətin strukturunda və konfiqurasiyasında dəyişikliklər;
- qlobal rəqabətin güclənməsi və onun qeyri-maddi sferaya keçməsi;

– rəqəmsallaşma ilə bağlı beynəlxalq biznes üçün yeni format və imkanların meydana çıxması, sərhədyanı ticarətin əhatəliliyinin artırılması, "bulud" məşğulluğun genişləndirilməsi, qloballaşan rəqəmsal mühitdə ölkələrarası və daxili əməliyyatlar arasındakı sərhədlərin aradan qaldırılması;
– şirkətlərin, sahibkarların, ev təsərrüfatlarının iştirakı ilə rəqəmsal ticarətin sürətli artımı ilə əlaqəli tənzimləyici dəyişikliklər, transsərhəd virtual məkanda ticarət əlaqələrinin tənzimlənməsi ilə bağlı yeni bir nəsil intizamın meydana çıxması.

İnnovasiyalı biznes-modellər və texnoloji nailiyyətlər mal və xidmətlər ticarətində səmərəlilik, qənaət üçün yeni imkanlar yaradır. Buna görə rəqəmsallaşdırma prosesinin sürət qazanması daxili iqtisadiyyatın və xarici iqtisadi fəaliyyətin bütün sahələrində keyfiyyət dəyişikliklərinə səbəb ola bilər.

Bulud hesablamalar və böyük məlumatlar dövrü bir-birindən çox uzaqlarda olan və hətta bir-birləri ilə tanış olmayan insanlar arasında ticarət məqsədləri daxil olmaqla qarşılıqlı əlaqə yaratmağa imkan verir, yəni dünyanın hər bir sakini potensial olaraq beynəlxalq ticarətin iştirakçısı ola bilər.

Elektron ticarəti ənənəvi ticarətdən fərqləndirən xüsusiyyətlərə aşağıdakılar aiddir [4]:

– malların və xidmətlərin yeni satış bazarlarına çıxarılmasına imkan verən coğrafi, zaman və müəyyən dərəcədə dil maneələrinin olmaması;
– xammal və material tədarükündən başlamış hazır məhsulların paylanması və satış sonrası xidmətə qədər şirkətin fəaliyyətinin bütün sahələrində, yeni texnologiyaların tətbiqi ilə əldə edilən daha aşağı istehsal və dövriyyə xərcləri;
– daha yüksək rəqabət səviyyəsi;
– anbar və satış sahələrində fiziki məhdudiyyətlərin olmaması səbəbindən elektron ticarət obyektinin potensial tutumunun ənənəvi elektron ticarət obyektinin tutumunu xeyli dərəcədə üstələməsi.

Ölkəmizdə elektron ticarətin müşahidəsi, əsas iqtisadi fəaliyyəti pərakəndə və topdansatış ticarət olan statistik vahidlər üzrə 2013-cü ildən aparılır. Elektron ticarət dövriyyəsinin göstəriciləri 2013-2020-ci illərdə aşağıdakı kimi olmuşdur:

**Cədvəl 2**

**Elektron pərakəndə ticarət dövriyyəsi**

| İllər | Elektron pərakəndə ticarət dövriyyəsi, min manatla | Əvvəlki ilə nisbətən, sabit qiymətlərlə, faizlə |
|---|---|---|
| 2013 | 2 586,0 | 158,6 |
| 2014 | 6 445,2 | 244,8 |
| 2015 | 12 779,8 | 188,1 |
| 2016 | 25 613,1 | 173,2 |
| 2017 | 46 227,0 | 158,3 |
| 2018 | 43 352,1 | 91,8 |
| 2019 | 40 255,6 | 90,6 |
| 2020 | 98 161,2 | 236,1 |

Mənbə: Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi.

Cədvəldən göründüyü kimi, ölkə üzrə elektron pərakəndə ticarət dövriyyəsi 2013-cü ildə 2586 min manat təşkil etmişdirsə, artıq 2020-ci ildə bu göstərici 98 161.2 min manata yüksəlmişdir.

Son dövrün yeni sosial-iqtisadi hadisələrindən biri olan elektron ticarət sürətlə inkişaf etməkdədir. İqtisadi subyektlər arasında nağdsız dövriyyənin artması və əhalidə nağdsız ödəniş vərdişlərinin formalaşması üçün elektron ticarət mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda elektron ticarətin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli Sərəncamına əsasən yaradılan "www.azexport.az" internet portalı sahibkarların öz məhsullarını elektron ticarət kanalları ilə xarici və daxili bazarlara çıxarmasını asanlaşdırmışdır. Amazon, Alibaba kimi dünyanın məşhur satış şəbəkələri DHL, TNT kimi aparıcı nəqliyyat logistika şirkətləri ilə inteqrasiya olunan veb-portal

ölkədə elektron ticarətin inkişafına böyük təkan vermişdir. Portal üzərindən kart ödənişlərinin qəbulu tam təhlükəsiz rejimdə həyata keçirilir. "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanı ilə "www.azexport.az" internet portalında transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" bölməsinin yaradılması və bu portal vasitəsilə təqdim olunan malların dəyərinin real vaxt rejimində ödənilməsi imkanının və elektron pul kisəsinin yaradılmasının təmin edilməsi tapşırılmışdır. Bütün bu tədbirlər isə Azərbaycanın qeyri-neft ixracını artırmaqla yanaşı, sahibkarlara məhsullarını elektron üsullarla da satmaq vərdişlərini formalaşdıracaq və bununla da rəqəmsal ekosistemi təkmilləşdirəcəkdir [5].

## Nəticə

İqtisadi proseslərin rəqəmsal qloballaşması müasir iqtisadiyyatın inkişafının təməl meyli və prinsipinə çevrilməkdədir. Bu proses yalnız inqilabi texnoloji dəyişikliklərlə deyil, həm də bütövlükdə iqtisadiyyatın təkamül qanunauyğunluqları ilə müəyyən edilir, müasir idarəetməni ticarət qaydalarını nəzərə almağa istiqamətləndirir, əmək məhsuldarlığı və məhsul keyfiyyətinin artmasına kömək edir və iqtisadi proseslərin mənfi tərəflərini zərərsizləşdirir. Rəqəmsal qloballaşmanın nəticəsi beynəlxalq iqtisadi inteqrasiyadır, bunun sayəsində qeyri-ənənəvi transsərhəd mallar, kreditlər və investisiyalar axını sürətlə artır, qlobal informasiya, ideya və texnologiyalar mübadiləsi intensivləşir. Bu, milli iqtisadiyyatların vahid qlobal rəqəmsal iqtisadi sistemin bir hissəsinə çevrilməsinə gətirib çıxarır. Bu baxımdan, milli rəqəmsal təhlükəsizlik siyasətinin formalaşdırılması və daim yenilənməsi tələb olunur. Qarşıda duran mühüm vəzifələrdən biri də beynəlxalq rabitə üçün aydın, şəffaf və bərabər qaydalar yaratmaq və onlara riayət olunmasına nəzarət etməkdir. Hər cür ayrı-seçkiliyin qarşısının alınması, istehlakçı hüquqlarının, intellektual mülkiyyətin və şəxsi məlumatların qorunması, eyni zamanda vətəndaşların lazımi səviyyədə təhsil və rəqəmsal savadlılığının artırılması mühüm vəzifələrdən biri hesab edilir.

Azərbaycanda İKT-nin inkişaf dinamikası, uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkəyə olan inamın artması, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığın genişləndirilməsi, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması üzrə qarşıya qoyulan vəzifələr, dövlət siyasətinin tərkib hissəsi kimi İKT sahəsinə göstərilən böyük diqqət və qayğı, ölkəmizin yaxın gələcəkdə yüksək texnologiyalar sahəsində böyük uğurlar qazanacağına zəmanət verir.

**Aida İbrahimova, Zərifə Nağıyeva**
**Rəqəmsal iqtisadiyyat və elektron ticarət**
**Xülasə**

Məqalədə qloballaşmanın mahiyyəti, xüsusiyyətləri, mərhələləri və meyilləri nəzərdən keçirilmiş, müasir informasiya texnologiyalarının qloballaşma proseslərinə təsiri qeyd olunmuşdur. Qlobal iqtisadiyyatda və beynəlxalq ticarətdə rəqəmsallaşmanın miqyasının sürətlə böyüməsi və rəqəmsal məkanın qlobal ticarət üçün əsas sahəyə çevrildiyi göstərilmişdir. Müasir informasiya və kommunikasiya texnologiyalarının (xüsusən də internetin) qloballaşma prosesinin iştirakçılarına verdiyi üstünlüklər burada öz əksini tapmışdır. Rəqəmsal transformasiyanın beynəlxalq ticarət üçün nəticələri qeyd olunmuş, sərhədlərarası elektron ticarətin inkişaf xüsusiyyətləri, verdiyi üstünlüklərin mahiyyəti izah olunmuşdur. Bununla yanaşı, elektron ticarəti ənənəvi ticarətdən fərqləndirən xüsusiyyətlər vurğulanmışdır. Ölkəmizin sosial-iqtisadi həyatında mühüm rol oynayan İKT-nin inkişaf səviyyəsini xarakterizə edən göstəricilərin dinamikası verilmişdir.

**Аида Ибрагимова, Зарифа Нагиева**
**Цифровая экономика и электронная торговля**
**Резюме**

В статье рассмотрены сущность, особенности, этапы и тенденции глобализации, влияние современных информационных технологий на процессы глобализации. Было

показано, что масштабы цифровизации мировой экономики и международной торговли быстро растут и цифровое пространство становится ключевым направлением для глобальной торговли. Отражены преимущества современных информационных и коммуникационных технологий (особенно Интернета) для участников процесса глобализации. Отмечены результаты цифровой трансформации международной торговли, разъяснены особенности развития трансграничной электронной коммерции и суть ее преимуществ. В то же время, были подчеркнуты особенности, отличающие электронную коммерцию от традиционной коммерции. Приведена динамика показателей, характеризующих уровень развития ИКТ, играющих важную роль в социально-экономической жизни нашей страны.

**Aida Ibragimova, Zarifa Nagiyeva**

**Digital economy and electronic trading**

**Summary**

The article examines the essence, features, stages and trends of globalization, the impact of modern information technologies on the processes of globalization. It was shown that the scale of digitalization of the world economy and international trade is growing rapidly and the digital space is becoming a key area for global trade. It reflects the benefits of modern information and communication technologies (especially the Internet) for the participants in the globalization process. The results of the digital transformation of international trade are noted, the features of the development of cross-border e-commerce and the essence of its advantages are explained. At the same time, the features that distinguish e-commerce from traditional commerce were highlighted. The dynamics of indicators characterizing the level of ICT development, which play an important role in the socio-economic life of our country, is given.

**Ədəbiyyat**

1. Г.Г.Головенчик. Цифровая экономика как новый этап глобализации. Цифровая трансформация, № 1 (2), 2018.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. www.stat.gov.az
3. А.Н.Спартак. Последствия цифровой трансформации для международной торговли. Российский внешнеэкономический вестник. 2018(5)
4. В.П.Куприяновский, С.А.Синягов, Д.Е.Намиот, А.П.Добрынин, П.В.Куприяновский. Розничная торговля в цифровой экономике. International Journal of Open Information Technologies ISSN: 2307-8162 vol. 4, no. 7, 2016.
5. 2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 26 sentyabr 2018-ci il. https://republic.preslib.az/az_c5.html

Məqalə redaksiyaya daxil olmuşdur: 21.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 29.06.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 33.311
DOI: 10.338.70/2413-6557-2021-7-3-

# COVID-19-un EV TƏSƏRRÜFATLARININ İSTEHLAK XƏRCLƏRİNƏ TƏSİRLƏRİ

***Yaşar Paşa***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Həyat keyfiyyətinin statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: yashar.pasha@stat.gov.az*

***Nəbi Quliyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Həyat keyfiyyətinin statistikası şöbəsinin məsləhətçisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: nabi.guliyev@stat.gov.az*

**Açar sözlər:** istehlak xərcləri, pandemiyanın istehlaka təsiri, gəlirin azalması, maliyyə yardımı, karantin.
**Ключевые слова:** расходы на потребление, влияние пандемии на потребление, уменьшение доходов, финансовая помощь, карантин.
**Keywords:** consumption expenditure, the impact of the pandemic on consumption, decreasing of income, financial assistance, quarantine.

COVID-19 pandemiyası ilə əlaqədar olaraq sosial məsafənin saxlanması və yoluxma hallarının azaldılması məqsədilə sərt karantin rejiminin tətbiqi nəticəsində dünya iqtisadiyyatında şok yaşanmış, istehsal, istehlak, ticarət dövriyyəsi azalmış, yoxsulluq isə artmışdır [2, 3]. Xəstəliyin yayılmasının qarşısının alınması məqsədilə qapanmalar nəticəsində iş yerlərində istehsalın, xidmətin durması nəticəsində əhalinin gəlirlərində azalma müşahidə edilmişdir [1]. İqtisadi və sosial faktorların zaman daxilində dəyişməsinə uyğun olaraq istehlak səviyyəsi dinamik sürətdə dəyişir. İstehlakçıların müəyyən məhsulları alma və istifadə etmə seçimlərini yönləndirən bu struktur, istehlakçının seçimlərinin əsasında duran psixoloji müddəti ifadə edir [6, 7]. İstehlaka bir çox faktor təsir etdiyindən bu faktorlara zəmin yaradan səbəblərin müəyyənləşməsi iqtisadiyyat üçün olduqca əhəmiyyətlidir [5, səh.14]. COVID-19 pandemiyası müddətində istehlakda ani və xüsusi dəyişikliklərin olduğu və tələb şokunun yarandığı görünmüşdür [1]. Pandemiyanın iqtisadi ölçüsünün müəyyən edilməsi bu cür başqa yoluxucu xəstəliklərin yayılması zamanı onların istehlaka təsirlərinin daha yaxşı müəyyən edilməsinə kömək göstərəcəkdir. İndiki dövrədək dünyada yoluxucu xəstəliklərdən yaranan pandemiyaların ölkə iqtisadiyyatına fərqli tərəflərdən təsir etdiyi məlumdur [10, səh.9]. Xüsusilə bilavasitə və dolayı yollardan yaranan xərc, istehsal prosesində yaranan durmalar, sərhədlərin qapanması, logistikada yaranan gecikmələr kimi əsas faktorların təklif şoklarına səbəb olduğundan, buna görə də istehlak strukturundakı ani dəyişikliklər tələb şoklarını yaradır [4, səh.17]. COVID-19 pandemiyasının yayılması nəticəsində Çin iqtisadiyyatında yaranan istehsalın azalması və xüsusilə bəzi sektorlardakı istehsalın müvəqqəti dayanması ilə birlikdə dünyada tədarük zəncirində problemlər yaranmışdır. Həmçinin ərzaq məhsulları üzrə idxaldan asılı olan və ölkə daxilində yaranan tələb artımını təmin edə bilməyən ölkələrdə ciddi problemlər yaşanmışdır [11, səh.404]. Karantin rejimlərinin tətbiqi nəticəsində dünyada turizm sektoruna da böyük ziyan dəymişdir [12, səh.45].

Pandemiya müddətində Azərbaycanda istehsalçı və istehlakçını qorumaq və iqtisadiyyatda yarana biləcək balanssızlıqları aradan qaldırmaq məqsədilə bəzi yardım paketləri nəzərdə tutulmuşdur. Bu məqsədlə ölkədə pandemiya ilə əlaqədar qapanmalar zamanı gəlirləri azalan və bundan daha çox əziyyət çəkən əhali qruplar üçün təşviq paketi hazırlanmış, işsizlərə, istehsalı dayandırılmış sahibkarlara, aztəminatlılara və qeyri-formal çalışanlara aylıq yardım verilmişdir.

Həmçinin istehlakçıların qərarlarına təsir edə biləcək sahələrdə dövlət tərəfindən görülən əsas tədbirlər bu şəkildə olmuşdur:

- Pandemiyanın qarşının alınması üçün birinci olaraq ölkə sərhədləri qapanmış və xaricə quru, hava nəqliyyatının gediş-gəlişi, ölkənin pandemiyanın daha çox yayıldığı şəhərlərə giriş-çıxış məhdudlaşdırılmış, həmçinin insanların kütləvi hərəkətliliyini azaltmaq məqsədilə SMS icazə tətbiq edilmiş, küçəyə çıxmağa, ictimai nəqliyyatdan istifadəyə məhdudiyyətlər tətbiq edilmişdir.
- Risk qrupu olan 65 yaşdan yuxarı olan şəxslərin küçəyə çıxmağı məhdudlaşdırılmış, fiziki təması daha da azaltmaq məqsədilə ölkədə bütün tədris müəssislərində təhsil onlayn rejimə keçirilmişdir. Bütün böyük ticarət mərkəzləri, kafe, restoranların və insanların təması yüksək ola bilən bu kimi sahələrin fəaliyyəti dayandırılmışdır. İctimai nəqliyyat vasitələrində əvvəlcə müəyyən olunmuş sayda sərnişinlərin istifadəsinə icazə verilmiş, həftəsonları isə fəaliyyəti tam dayandırılmışdır.
- Bütün bu qapanmaların və sərt karantinin tətbiqinin ticarət fəaliyyətini zəiflətdiyindən sərt karantin tətbiq olunan aylarda yuxarıda adları çəkilən əhali kateqoriyalarına birdəfəlik 190 manat maddi yardım göstərilmişdir. Həmçinin qapanma tətbiq olunan aylarda fəaliyyətinə icazə verilməyən fəaliyyət sahələrində çalışan sahibkarlara da birdəfəlik yardım edilmişdir. Fərdi (mikro) sahibkarın 2019-cu il ərzində dövlət büdcəsinə ödənişinin məbləği 250 manatdan az olduğu təqdirdə ona 250 manat məbləğində maliyyə yardımı edilmişdir. Maliyyə dəstəyinin maksimal həddi 5000 manat təşkil etmişdir [8].




Şəkil 1. COVID-19 infeksiyasına yoluxma hallarının sayı (günlər üzrə və kumulyativ) [9]

COVID-19-un istehlak xərclərinə təsirini öyrənmək üçün məqalədə müqayisələr yoluxma hallarının ən çox olduğu 2020-ci ilin 2-4-cü rüblərini əhatə edir.

**Cədvəl 1**

**Ev təsərrüfatlarının orta aylıq adambaşına istehlak xərcləri, manat**

| | 2019-cu ilin II rübü | 2020-ci ilin II rübü | 2019-cu ilin III rübü | 2020-ci ilin III rübü | 2019-cu ilin IV rübü | 2020-ci ilin IV rübü |
|---|---|---|---|---|---|---|
| **İstehlak xərcləri, cəmi** | **295.28** | **286.59** | **297.69** | **294.90** | **306.93** | **297.97** |
| ərzaq məhsullarına | 123.21 | 131.35 | 121.70 | 128.84 | 125.72 | 129.34 |
| alkoqollu içkilərə | 1.62 | 1.68 | 1.68 | 1.73 | 1.66 | 1.73 |
| tütün məmulatlarına | 4.21 | 4.32 | 4.27 | 4.48 | 4.41 | 4.63 |
| paltar və ayaqqabıya | 17.14 | 17.75 | 18.08 | 18.89 | 19.90 | 20.06 |
| su, işıq, qaz və digər yanacaq növlərinə | 22.15 | 23.28 | 21.32 | 23.46 | 23.70 | 25.98 |
| ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa | 26.10 | 24.23 | 25.90 | 25.16 | 25.89 | 24.16 |
| səhiyyə xidmətlərinə | 14.35 | 14.60 | 14.83 | 16.05 | 14.68 | 16.00 |
| nəqliyyat xidmətlərinə | 18.82 | 19.14 | 19.42 | 19.82 | 19.46 | 19.86 |
| rabitə xidmətlərinə | 9.71 | 9.91 | 9.71 | 10.24 | 9.71 | 10.24 |
| istirahət və mədəniyyət xidmətlərinə | 12.52 | 8.31 | 13.71 | 11.51 | 13.32 | 10.30 |
| təhsil xərclərinə | 5.27 | 3.86 | 5.20 | 4.56 | 5.78 | 5.16 |
| mehmanxana, kafe və restoran xidmətlərinə | 26.38 | 14.10 | 27.77 | 15.57 | 28.32 | 15.47 |
| digər mal və xidmətlərə | 13.80 | 14.06 | 14.10 | 14.59 | 14.38 | 15.04 |

Xəstəliyə yoluxma halları əsasən 2020-ci ilin II rübündə artmağa başladı. Məhz buna görə Martın 31-də Azərbaycanda xüsusi karantin elan edildi. Bununla əlaqədar olaraq sərt qadağalar tətbiq olundu. İstehsalın, satış və ictimai iaşə sektorunun işində ləngimə olması ilə bərabər olaraq ümumilikdə gəlir səviyyəsində də azalma müşahidə edildi. Bu özünü əhalinin xərclərində büruzə verdi.

**Cədvəl 2**

**Ev təsərrüfatlarının orta aylıq adambaşına istehlak xərcləri, faizlə**

| | 2020-ci ilin II rübü 2019-cu ilin II rübünə nisbətən %-lə | 2020-ci ilin III rübü 2019-cu ilin III rübünə nisbətən %-lə | 2020-ci ilin IV rübü 2019-cu ilin IV rübünə nisbətən %-lə |
|---|---|---|---|
| **İstehlak xərcləri, cəmi** | **97.1** | **99.1** | **97.1** |
| ərzaq məhsullarına | 106.6 | 105.9 | 102.9 |
| alkoqollu içkilərə | 103.7 | 103.0 | 104.2 |
| tütün məmulatlarına | 102.6 | 104.9 | 105.0 |
| paltar və ayaqqabıya | 103.6 | 104.5 | 100.8 |
| su, işıq, qaz və digər yanacaq növlərinə | 105.1 | 110.0 | 109.6 |
| ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa | 92.8 | 97.1 | 93.3 |
| səhiyyə xidmətlərinə | 101.7 | 108.2 | 109.0 |
| nəqliyyat xidmətlərinə | 101.7 | 102.1 | 102.1 |
| rabitə xidmətlərinə | 102.1 | 105.5 | 105.5 |
| istirahət və mədəniyyət xidmətlərinə | 66.4 | 84.0 | 77.3 |
| təhsil xərclərinə | 73.2 | 87.7 | 89.3 |
| mehmanxana, kafe və restoran xidmətlərinə | 53.4 | 56.1 | 54.6 |
| digər mal və xidmətlərə | 101.9 | 103.5 | 104.6 |

Cədvəl 2-dən də göründüyü kimi pandemiyanın ölkədə yeni yayıldığı vaxtlar ən böyük təsir təhsil, istirahət və restoran xidmətlərinə olmuşdur. Adı çəkilən xərclərdə fərqin böyük olmasının səbəbi 2020-ci ilin II rübündə yoluxma hallarının həmin ilin III və IV rüblərinə nisbətən daha az olmasına baxmayaraq qadağaların daha sərt olması ilə əlaqədardır. 2020-ci ilin III rübü ərzində istehlak xərcləri 2019-cu ilin müvafiq dövrünə nisbətdə ölkə üzrə 0.9%, o cümlədən, ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa 2.9%, istirahət və mədəniyyət xidmətlərinə 16%, təhsilə 12.3%, mehmanxana, kafe və restoran xidmətlərinə xərclər 43.9% azalmış, ərzaq məhsullarına 5.9%, alkoqollu içkilərə 3.0%, tütün məmulatlarına 4.9%, paltar və ayaqqabıya 4.5%, su, işıq, qaz və digər yanacaq növlərinə 10.0%, səhiyyə xidmətlərinə 8.2%, nəqliyyat xidmətlərinə 2.1%, rabitə xidmətlərinə xərclər isə 5.5%, digər mal və xidmətlərə 3.5% artmışdır. Həmçinin III rüb üzrə xərclərdəki dəyişikliklər demək olar ki, II rübdəki ilə eyni istiqamətdə dəyişmişdir. Yenə də III rübdə II rübdəki kimi istirahət və mədəniyyət, təhsil, mehmanxana, kafe və restoran xidmətlərinə xərclər azalmışdır. Səhiyyə xidmətlərinin 8.2% artmasının səbəbi əhali arasında virusa yoluxmamaq üçün profilaktik olaraq dərman vasitələrindən çox istifadə etməsi ilə əlaqədardır.

2020-ci ilin IV rübü ərzində də istehlak xərcləri 2019-cu ilin müvafiq dövrünə nisbətdə ölkə üzrə 2.9%, o cümlədən, ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa 6.7%, istirahət və mədəniyyət xidmətlərinə 22.7%, təhsilə 10.7%, mehmanxana, kafe və restoran xidmətlərinə 45.4% azalmış, ərzaq məhsullarına 2.9%, alkoqollu içkilərə 4.2%, tütün məmulatlarına 5%, paltar və ayaqqabıya 0.8%, su, işıq, qaz və digər yanacaq növlərinə 9.6%, səhiyyə xidmətlərinə 9%, nəqliyyat xidmətlərinə 2.1%, rabitə xidmətlərinə xərclər isə 5.5%, digər mal və xidmətlərə 4.6% artmışdır. Ümumilikdə hər üç rüb üzrə ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa, istirahət və mədəniyyət, təhsil, mehmanxana, kafe və restoran xidmətlərinə xərclərin azalması müşahidə olunmuşdur.

**Cədvəl 3**

**Ev təsərrüfatlarının orta aylıq adambaşına istehlak xərcləri, manat**

| | 2019 | 2020 | 2020-ci il 2019-cu ilə nisbətən %-lə |
|---|---|---|---|
| **İstehlak xərcləri, cəmi** | **298,41** | **297,78** | **99,8** |
| ərzaq məhsullarına | 123,8 | 129,24 | 104,4 |
| alkoqollu içkilərə | 1,64 | 1,65 | 100,6 |
| tütün məmulatlarına | 4,3 | 4,38 | 101,9 |
| paltar və ayaqqabıya | 18,36 | 18,99 | 103,4 |
| su, işıq, qaz və digər yanacaq növlərinə | 22,57 | 23,46 | 103,9 |
| ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa | 25,61 | 24,92 | 97,3 |
| səhiyyə xidmətlərinə | 14,44 | 14,79 | 102,4 |
| nəqliyyat xidmətlərinə | 18,95 | 19,57 | 103,3 |
| rabitə xidmətlərinə | 9,65 | 9,88 | 102,4 |
| istirahət və mədəniyyət xidmətlərinə | 12,71 | 10,53 | 82,8 |
| təhsil xərclərinə | 5,46 | 4,89 | 89,6 |
| mehmanxana, kafe və restoran xidmətlərinə | 26,84 | 21,5 | 80,1 |
| digər mal və xidmətlərə | 14,08 | 13,98 | 99,3 |

Cədvəl 3-ə əsasən 2020-ci ilin yanvar-dekabr aylarında istehlak xərcləri 2019-cu ilin müvafiq dövrünə nisbətdə ölkə üzrə 0.2%, o cümlədən, ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa 2.7%, istirahət və mədəniyyət xidmətlərinə 17.2%, təhsilə 10.4%, mehmanxana, kafe və restoran xidmətlərinə xərclər 19.9%, digər mal və xidmətlərə 0.7% azalmış, ərzaq məhsullarına 4.4%, alkoqollu içkilərə 0.6%, tütün məmulatlarına 1.9%, paltar və ayaqqabıya 3.4%, su, işıq, qaz və digər yanacaq növlərinə 3.9%, səhiyyə xidmətlərinə 2.4%, nəqliyyat xidmətlərinə 3.3%, rabitə xidmətlərinə xərclər isə 2.4% artmışdır.

Ötən il əhalinin istehlak xərclərində paltar və ayaqqabıya çəkilən xərclər 6.7%, kommunal xərclərə, elektrik enerjisi və yanacağa 8.8%, ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa 8.1%, səhiyyə xidmətlərinə 5.4%, nəqliyyat və rabitəyə 10.1%, istirahət və mədəniyyət xərclərinə

3.5%, təhsilə 1.7%, digər mal və xidmətlərə isə 4.9% təşkil etmişdir. Şəhər və kənd yerləri üzrə adambaşına istehlak xərclərinin quruluşu təxminən eyni olmuşdur.

COVİD-19 pandemiyası əhalinin xərclərinə təsir etməklə yanaşı, xərclərin strukturuna da təsir etmişdir. Gəlirin azalması ilə əlaqədar olaraq xərclər əsasən zəruri məhsulların istehlakına yönəldilmişdir. Ümumilikdə götürüldükdə isə əsas artım ərzaq məhsullarına, alkoqollu içkilərə, tütün məmulatlarına, nəqliyyat xidmətlərinə, su, işıq, qaz və digər yanacaq növlərinə, səhiyyə xidmətlərinə olmuşdur. Ərzaq, alkoqollu içki, tütün məmulatları, su, işıq, qaz və digər yanacaq növlərinə xərclərin artımının səbəbi qapanmalar nəticəsində əhalinin əsasən evdə olması ilə bağlıdır. Səhiyyə xidmətlərinə xərclərin artımının səbəbi həm virusa yoluxanların, həm də yoluxmayanların immuniteti artıran dərman vasitələri və tibbi xidmətlərdən istifadədir.

Ev təsərrüfatlarının orta aylıq adambaşına istehlak xərclərinin ($Y$) orta aylıq adambaşına gəlirlərdən ($X$) asılılığının tədqiqi nəticəsində aparılan korrelyasiya təhlili nəticəsində bu iki göstərici arasında korrelyasiya əlaqəsi güclü olduğu və korrelyasiya əmsalının R=0,9871-ə bərabər olduğu müəyyən edilmişdir. Bu əlaqənin istiqaməti müsbətdir, yəni adambaşına orta aylıq gəlirlər artdıqca (yaxud azaldıqca) orta aylıq istehlak xərcləri də artır (yaxud azalır).

## Nəticə

COVID-19 pandemiyası ilə əlaqədar olaraq əhalinin gəlirlərinin azalması fonunda istehlak xərcləri azalmış, bununla yanaşı, istehlakın strukturunda müəyyən məhsul və xidmətlər üstünlük təşkil etmişdir. 2020-ci ildə istehlak xərcləri keçən ilin müvafiq dövrü ilə müqayisədə azalmış, ərzaq, tütün, spirtli içkilər, səhiyyə xidmətlərinə, su, işıq, qaz və digər yanacaq növlərinə xərclər əhalinin çox vaxtını evdə keçirməsi səbəbindən daha da artmışdır. Təhsil xərclərinin azalması kursların bağlanması, illik təhsil ödənişlərinin, repetitorluq xidmətlərinə ödənişin ləngiməsi, gecikdirilməsi və ya verilməməsi ilə bağlıdır. Mədəniyyət və istirahət xidmətlərindən istifadəyə xərclərin kəskin düşməsi ilə bərabər, insanlar sərəncamlarındakı gəliri daha çox zəruri istehlak məhsulu - ərzaq məhsullarına xərcləmişdir. Həmçinin əhalinin ərzaq məhsullarına olan xərclərinin artımına normal qidalanmanın insan immunitetini daha da möhkəmləndirdiyi təbliğatının aparılması təsir göstərmişdir. Aparılan tədqiqatda bir daha sübut olundu ki, gəlirlərin azaldığı bu kimi hallarda insanların əyləncə, kafe, restoran və digər zəruri olmayan məhsul və xidmətlərə olan xərclərin azalması özünü zəruri olan məhsul və xidmətlərin istehlakının daha da artmasında göstərir.

**Yaşar Paşa, Nəbi Quliyev**

**COVID-19-un ev təsərrüfatlarının istehlak xərclərinə təsirləri**

**Xülasə**

Məqalədə COVID-19 pandemiyasının ev təsərrüfatlarının istehlak xərclərinə təsiri tədqiq edilmişdir. Tədqiqat rüblər üzrə aparılmış və hər bir rüb üzrə istehlak xərcləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisə edilmişdir. Aparılmış tədqiqat nəticəsində müəyyən olmuşdur ki, 2020-ci ildə pandemiya nəticəsində ölkədə qapanmalarla əlaqədar olaraq əhalinin gəlirləri və xərcləri əvvəlki ilə nisbətən azalmışdır. Eyni zamanda gəlirlərin azalması fonunda xərclərin daha çox ərzaq, paltar və ayaqqabı, səhiyyə, nəqliyyat və digər zəruri məhsul və xidmətlərin alınmasına yönəldiyi məlum olmuşdur.

**Яшар Паша, Наби Кулиев**

**Влияние COVID-19 на потребительские расходы домохозяйств**

**Резюме**

В статье исследуется влияние пандемии COVID-19 на потребительские расходы домохозяйств. Исследование проводилось по кварталам, и расходы на потребление за каждый квартал сравнивались с соответствующим периодом прошлого года. Исследование показало, что доходы и расходы населения снизились по сравнению с предыдущим годом из-за

ограничений в результате пандемии в 2020 году. В то же время, на фоке уменьшения доходов потребительские расходы на продукты питания, одежду и обувь, здравоохранение, транспорт и другие основние товары и услуги увеличились.

.

**Yashar Pasha, Nabi Guliyev**

**Impacts of COVID-19 on household consumption expenditures**

**Summary**

The article examines the impact of the COVID-19 pandemic on consumer expenditures in households. In accordance changing of the strict quarantine regime, the research was conducted on quarterly and consumption expenditures for each quarter were compared with the corresponding period of the previous year. The study revealed that the income and expenditures of the population decreased compared to the previous year due to the lockdown of the country as a result of the pandemic in 2020. At the same time, it reveals that, with declining income, consumer expenditures shifted to food, clothing and shoes, health, transportation and other basic needs.

**Ədəbiyyat**

1. https://www.worldbank.org/en/news/feature/2020/06/08/the-global-economic-outlook-during-the-covid-19-pandemic-a-changed-world
2. https://unctad.org/system/files/official-document/osg2020d1_en.pdf
3. https://blogs.worldbank.org/opendata/updated-estimates-impact-covid-19-global-poverty-looking-back-2020-and-outlook-2021
4. The Global Macroeconomic Impacts of COVID-19: Seven Scenarios, Warwick McKibbin and Roshen Fernando, Centre for Applied Macroeconomic Analysis, February 2020
5. Covid-19 sürecinde üretim, yönetim ve pazarlama, Doç. Dr. Deniz Zeren, Dr. Osman Yılmaz, Ankara 2020.
6. Mental health in the COVID-19 pandemic W Cullen , G Gulati , B D Kelly QJM 2020 May 1;113(5):311-312.
7. Tobacco Use Changes and Perceived Health Risks among Current Tobacco Users during the COVID-19 Pandemic Int J Environ Res Public Health 2021 Feb 12;18(4):1795.
8. https://www.taxes.gov.az/az/post/1020
9. https://koronavirusinfo.az/az/page/statistika/azerbaycanda-cari-veziyyet
10. Investigating the effects of COVID-19 and public health expenditure on global supply chain operations: an empirical study Xuanlong Qin, Danish Iqbal Godil, Muhammad Kamran Khan, Salman Sarwat, Sadaf Alam and Laeeq Janjua, Springer Nature 2021.
11. The Impact of COVID-19 on Consumer Food Waste, Brian E. Roe, Kathryn Bender, Danyi Qi, Applied Economic Perspectives and Policy (2021) volume 43, number 1, pp. 401–411.
12. Observed impacts of the Covid-19 first wave on travel behaviour in Switzerland based on a large GPS panel, Joseph Molloy, Thomas Schatzmann, Beaumont Schoeman, Christopher Tchervenkov, Beat Hintermann, Kay W.Axhausen, Transport Policy 104 (2021) 43-51.

Məqalə redaksiyaya daxil olmuşdur: 18.03.2021
Təkrar işlənməyə göndərilmişdir: 20.03.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT:33:303.7
DOI:10.338.70/2413-6557-2021-7-3-

# AQRAR SAHƏDƏ İNVESTİSİYA POTENSİALINDAN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Nizami Qafarov***
*Azərbaycan Kooperasiya Universitetinin*
*Aqrar sahənin və sənayenin iqtisadiyyatı kafedrasının dosenti, i.e.n.*
*AZ 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93*
*e-poçt: qafarovnizami@mail.ru*

**Açar sözlər:** aqrar sahə, investisiya mexanizmi, dövlət dəstəyi, əsas kapitala investisiya, ev təsərrüfatı.
**Ключевые слова:** аграрный сектор, инвестиционный механизм, государственная поддержка, инвестиции в основной капитал, домашнее хозяйство.
**Keywords:** agrarian sector, investment mechanism, state support, investment in fixed assets, household.

## Giriş

Azərbaycan Respublikasında infrastruktur və əlaqəli sahələrin tərəqqi səviyyəsi, ixtisaslı kadrların olması və i.a. amillər sənayenin tərəqqi etməsini müəyyən edir. Ona görə ki, sənaye ölkə iqtisadiyyatının yalnız bir hissəsi olmaqla, bu sahə aqrar, istehsala xidmət və i.a. sahələr ilə sıx bağlıdır. Həmçinin kənd təsərrüfatının təkmilləşdirilməsi emal sənayesinin formalaşmasına, bu sahəyə xidmət sahələrinin tərəqqisinə əlverişli şərait yaradaraq, onların inkişafına zəmin yaradır. Bu sahələr isə öz növbəsində nəqliyyat, rabitə, maliyyə-kredit sektoru, başqa istehsal və sosial infrastruktur sferaların inkişafına tələb yaradaraq investisiya qoyuluşlarına ehtiyac formalaşdırır. Bu isə respublikada tikintinin gələcək inkişafına əlverişli şəraiti təmin edir, bu sahə üzrə maddi-texniki bazasının möhkəmlənməsi və inşaat şirkətlərinin inkişafına təkan verir. Bu səbəbdən də, ölkədə investisiya qoyuluşlarının maliyyələşmə imkanlarının məhdud olmadığı şəraitdə bir qədər mürəkkəb sahələrarası əlaqələrlə təmsil olunan emal sənayesinin tərəqqi etdirilməsi başqa sahələrdə də buraxılışın, həçminin daha da artımına tələb yaradaraq investisiya fəallığının yüksəlməsinə gətirib çıxara bilər.

Azərbaycan Respublikasında mövcud investisiya potensialını reallaşdırmaq nöqteyi-nəzərindən sahəvi bölümdə milli iqtisadiyyatın gələcək inkişaf proqramının hazırlanması mütləqdir. Bu proqram başlıca sahələrlə onlara xidmət göstərən sahələrin inkişafını uzlaşdırmalı, dövlət və özəl bölmələrin əməkdaşlığı əsasında yerinə yetirilməlidir [1].

## 1. Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahə və regionlarında kənd təsərrüfatının investisiya imkanlarının aşkarlanması zərurəti

Son illərdə dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbin artması və bununla əlaqədar qiymətlərin yüksəlməsi bu sahəyə investisiya qoyuluşlarının səmərəliliyini artırır.

Azərbaycanın regionlarında kənd təsərrüfatı və bu sahənin məhsullarının emalı və satışı sahələrində investisiya imkanları böyükdür. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı və bu sahənin emalı sənayesi sahələrinin inkişafının ixrac hesabına inkişaf etdirilməsi mümkündür. Son illərdə ölkədə kənd təsərrüfatı məhsullarının ixracı artsa da, bu sahədə ciddi dönüş əldə edilməmişdir. Belə ki, 2019-cu ildə Azərbaycandan təqribən cəmi 633,8 mln. ABŞ dolları məbləğində kənd təsərrüfatı məhsulu ixrac olunmuşdur [2]. Ölkədə kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi üçün ilk növbədə bu sahənin maddi-texniki bazası yaxşılaşdırılmalıdır. Belə ki, 1990-cı ildə orta hesabla 1 kombayna 129,8 hektar dənli və dənli paxlalıların əkin sahəsi düşdüyü halda, bu göstərici 2019-cu ildə 272 hektar, 1 kartofyığan maşına orta hesabla müvafiq olaraq 566,7 hektar və 1324 hektar kartof sahəsi düşmüşdür [2]. Kənd təsərrüfatı istehsalçılarının müasir texnika ilə təmin olunması, zəruri aqrotexniki tədbirlərin həyata keçirilməsi, bütövlükdə, bu sahənin elmi əsaslarla inkişaf etdirilməsi və burada göstərilən xidmətlərin keyfiyyətinin artırılması, emal sənayesi müəssisələri ilə

səmərəli əlaqələrin formalaşdırılması hesabına kənd təsərrüfatı istehsalını artırmaq imkanları mövcuddur. Bunlara nail olmaq üçün irihəcmli investisiya qoyuluşları tələb olunur.

Kənd təsərrüfatı sahəsində investisiya qoyuluşları tələb edən istiqamətlərdən biri çoxillik bitkilərin əkin sahələrinin artırılmasıdır. Belə ki, ölkədə üzüm bağlarının sahələri 1990-cı ildə 181,4 min hektardan 2019-cu ildə 16,1 min hektara, çay plantasiyalarının sahəsi 13,3 min hektardan 1,1 min hektara qədər azalmışdır [2].

Qeyd etmək lazımdır ki, üzümçülük, kartof istehsalı, meyvə istehsalı və digər bitkilərin yetişdirilməsi xüsusiyyətlərini nəzərə alaraq onların ölkənin ərazisi üzrə yerləşdirilməsinin optimallaşdırılması bazarların nisbətən uzun müddət ərzində təzə məhsullarla təmin edilməsinə səbəb olar. Belə ki, eyni bir məhsulun ölkənin müxtəlif yerlərində yetişmə vaxtı müxtəlifdir.

Fikrimizcə, ölkədə aqrar istehsalın ərazi üzrə optimal yerləşdirilməsi sahəsində dövlətin təsir imkanları genişdir. Belə ki, dövlət ayrı-ayrı bölgələrdə kənd təsərrüfatı istehsalçılarına xidmət edən əsas təşkilat olan «Aqrolizinq» ASC dövlət mülkiyyətindədir. Bununla yanaşı, dövlət güzəştlər mexanizmi vasitəsilə aqrar istehsalın ərazi üzrə optimal yerləşdirilməsini stimullaşdıra bilər [3]. Hesab edirik ki, müxtəlif regionların aqrar məhsulları üzrə ixtisaslaşması yönündə tədbirlər sözügedən bölgələrin investisiya imkanının əhəmiyyətli rol oynaya bilər. Misal üçün, Lənkəran-Astara iqtisadi bölgəsində subtropik bitkilərin istehsalı, habelə onların emalı müəssisələrinin yaradılması, Qazax-Gəncə, Dağlıq Şirvan və Cəlilabad bölgələrində üzümçülüyün, eləcə də şərabçılığın tərəqqisinə nail olunması, Lənkəran-Astara, Gəncə-Qazax, Quba-Xaçmaz və başqa bölgələrdə tərəvəzçiliyin inkişaf etdirilməsi, Quba-Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonlarında meyvəçiliyin tərəqqisi və s. məqsədəmüvafiqdir. Fikrimizcə, dövlətin maliyyə dəstəyinin həcmi məhdud olduğuna görə, bu bölgələrdə təbii amillər nöqteyi-nəzərindən daha səmərəli istehsalların tərəqqisi üçün mühüm infrastrukturun, emal müəssisələrinin formalaşmasına yönlənməlidir. Misal üçün, Quba-Xaçmaz iqtisadi rayonunda alma istehsalının maksimum həddə çatdırılması üçün alma bağlarının artırılması, bağların becərilməsi üçün lazım olan texniki vasitələrin, gübrə və dərmanların əldə edilməsi, almanın saxlanılması üçün ixtisaslaşmış anbarların inşası, alma emal edən firmaların təşkili, istehsal olunmuş məhsulların nəql edilməsi üçün lazım olan taraların istehsalı müəssisələrinin yaradılması, lazım olan ixtisaslaşdırılmış nəqliyyat vasitələrinin alınması və s. kimi məsələlərin həll edilməsi üçün xərclərin bir qismi dövlət tərəfindən maliyyələşdirilə bilər. Bundan başqa, məsələn, qeyd edilən regionda alma istehsalının artırılmasının potensial imkanları, bu məhsulun istehsalı və emalının potensial həcmi və satış imkanları Kənd Təsərrüfatı Nazirliyinin sifarişi ilə onun qurumları və ya ixtisaslaşdırılmış təşkilatlar tərəfindən müəyyənləşdirilə bilər. Fikrimizcə, bu tədbirlərin digər kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində də nəzərə alınması və bu baxımdan, regionun imkanlarının qiymətləndirilməsi mövcud investisiya imkanlarının müəyyən edilməsi və reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda, Abşeron, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları istisna olmaqla, digər iqtisadi rayonlarda adambaşına düşən kənd təsərrüfatı məhsulunun həcmi əhəmiyyətli dərəcədə bir-birindən fərqlənmir. Belə vəziyyətdə bu regionlarda kənd təsərrüfatı xammalına əsaslanan yeyinti və yüngül sənaye sahələrinin inkişaf etdirilməsi zəruridir.

Kənd yerlərində iri kənd təsərrüfatı təşkilatları ilə yanaşı, mövcud olan müxtəlif təsərrüfat formaları, fermer təsərrüfatları, eyni zamanda əhalinin fərdi köməkçi təsərrüfatları (FKT), təsərrüfat (kəndli) daxil olmaqla iqtisadi prosesin bütün iştirakçılarına təmin ediləcək alternativ investisiya mənbələrinin formalaşdırılmasının zəruriliyini obyektiv şəkildə diktə edir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının obyektiv olaraq kənd təsərrüfatı işinin şaxələndirilməsi forması kimi çıxış edən və itkilərin minimuma endirilməsinə yönəlmiş çoxyönlü olması, sahibkarlığın təşkilati və hüquqi əsaslarından asılı olaraq investisiya strategiyalarındakı fərqləri müəyyənləşdirir. Beləliklə, bir və ya iki növ məhsul istehsalında ixtisaslaşmış təsərrüfatlar, əsasən, öz mənbələri ilə idarə olunur. 100-150 hektardan çox ərazisi olan və bir neçə sahəni inkişaf etdirən təsərrüfatlar onsuz da borc mənbələrindən vəsait cəlb etmək məcburiyyətində qalırlar.

Beləliklə, ölkədə hökumət tərəfindən regional tənzimləmə ilə sahə tənzimlənməsinin səmərəli əlaqələndirilməsi bütövlükdə ölkənin sosial-iqtisadi inkişafını təmin edəcəkdir. Kənd

təsərrüfatı sahəsində son dövrlərdə investisiya fəallığı artsa da, bu sahədə təsərrüfatların az olması onlarda istehsalatın texniki-iqtisadi səviyyəsini məhdudlaşdırır.

**Cədvəl 1**

**Kənd təsərrüfatının ümumi məhsulunun quruluşu (faktiki qiymətlərlə, yekuna görə faizlə) [2]**

| İllər | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|---|---|
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| | Kənd təsərrüfatı müəssisələri və sair təşkilatlar | | | Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları | | |
| 2000 | 2,3 | 1,4 | 2,4 | 98,2 | 97,1 | 98,6 |
| 2005 | 4,0 | 1,4 | 7,4 | 96,0 | 98,6 | 92,6 |
| 2010 | 5,0 | 3,0 | 7,1 | 95,0 | 97,0 | 92,9 |
| 2011 | 5,2 | 3,5 | 7,0 | 94,8 | 96,5 | 93,0 |
| 2012 | 5,0 | 4,0 | 9,3 | 93,4 | 96,0 | 90,7 |
| 2013 | 6,9 | 4,6 | 9,3 | 93,1 | 95,4 | 90,7 |
| 2014 | 7,7 | 4,6 | 10,5 | 92,3 | 95,4 | 89,5 |
| 2015 | 7,3 | 4,8 | 9,7 | 92,7 | 95,2 | 90,3 |
| 2016 | 8,0 | 5,7 | 9,9 | 92,0 | 94,3 | 90,1 |
| 2017 | 9,8 | 7,9 | 11,4 | 90,2 | 92,1 | 88,6 |
| 2018 | 9,4 | 8,2 | 10,4 | 90,6 | 91,8 | 89,6 |
| 2019 | 9,1 | 8,6 | 9,6 | 90,9 | 91,4 | 90,4 |

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, 2000-2019-cu illərdə bitkiçilik məhsulunun həcmində fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının payı orta hesabla 92,2% təşkil etmişdir ki, bu təsərrüfatların da nəzdindəki torpaq sahələri 2-3 hektar olmuşdur. Bu sahədə təsərrüfatların az olması onların istehsalın texniki iqtisadi səviyyəsinin artmasına, satış kanallarının tərəqqisinə olan stimullarını məhdudlaşdırır. Müasir dövrdə ölkədə torpaq bazarının yaranmaması nisbətən iri və orta təsərrüfatların yaradılması imkanlarını məhdudlaşdırır. Təsərrüfatların bu cür az olması onların emal sənayesi müəssisələri ilə səmərəli təsərrüfat əlaqələri yaratmasını da mürəkkəbləşdirir.

Beləliklə, həm kənd təsərrüfatı, həm də sənaye sahələrində iqtisadi subyektlərin iqtisadi potensialının aşağı olması ölkədə investisiya resurslarının mənimsənilməsini məhdudlaşdıran əsas amillərdəndir.

## 2. Azərbaycanda aqrar sahənin inkişafı üçün əsas kapitala investisiyaların və onun strukturunun dinamikasının təhlili

Xarici təcrübələrin də göstərdiyi kimi, inkişaf etmiş sənaye ölkələri kənd təsərrüfatını konsolidə edilmiş büdcədən dəstəkləyirlər ki, bu da FAO-nun tövsiyə etdiyi şirkətin 70%-i qida təhlükəsizliyi səviyyəsini və ehtiyaclarını təmin edir, onu müəyyən dərəcədə formalaşdırır. Dünyanın inkişaf etmiş ölkələrində istehsalçıların qorunması, ticarət və satınalma şirkətlərinin təmsil olunduğu dövlət tərəfindən onların məhsullarının zəmanətli həcmini sabit qiymətlərlə almaqla təmin edilir. Bu, istehsalın genişləndirilməsi üçün tələb olunan istehsal səmərəliliyi səviyyəsini saxlamağa imkan verir.

Bundan əlavə, dövlət istehsalçılara bazar şərtləri, ətraf mühitin qorunması tədbirləri və yerli infrastrukturun inkişafı barədə məlumat verməyi maliyyələşdirir.

Azərbaycanda bu xarici təcrübə 2008-ci il maliyyə böhranından sonra istifadə olunmağa başlandı, bu da istehsal və investisiya fəaliyyətinin müsbət dinamikasına səbəb oldu. Aqrar-sənaye kompleksinin sahələri üçün daha əlverişli rəqabət şəraiti yaratdı.

Azərbaycanda aqrar sahənin inkişafına yönəlik investisiyaların həcmi 2019-cu ildə 769,5 mln. manat təşkil etmişdir ki, bu da 2015-ci illə müqayisədə 2,2 dəfə çoxdur (cədvəl 2).

**Cədvəl 2**

**Aqrar sahənin inkişafı üçün əsas kapitala investisiyalar (mln. manatla) [2]**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019 / 2015 |
| Əsas kapitala yönəldilmiş investisiyalar, cəmi | 15957,0 | 15772,8 | 17430,3 | 17244,9 | 18539,5 | 116,2 |
| artım sürəti, faizlə | 88,9 | 78,3 | 102,8 | 95,7 | 105,5 | x |
| Kənd təsərrüfatının inkişafı üçün əsas kapitala investisiyalar, milyon manat | 355,5 | 325,1 | 617,8 | 764,4 | 769,5 | 216,5 |
| artım sürəti, faizlə | 95,8 | 88,0 | 177,3 | 119,7 | 98,8 | |
| Kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarının əsas kapitala qoyulmuş investisiyaların ümumi həcminə nisbəti, % | 2,2 | 2,1 | 3,5 | 4,4 | 4,2 | x |
| o cümlədən: dövlət, milyon manatla | 216,6 | 253,1 | 324,1 | 360,6 | 358,2 | 165,4 |
| dövlət, faizlə | 60,9 | 77,9 | 52,5 | 47,2 | 46,6 | x |
| qeyri-dövlət, milyon manatla | 138,9 | 72,0 | 293,7 | 403,8 | 411,4 | 296,2 |
| qeyri-dövlət, faizlə | 39,1 | 22,1 | 47,5 | 52,8 | 53,1 | x |

Bu artım tempi ölkə üzrə əsas kapitala yönəldilmiş investisiyaların müvafiq dövrdəki artım tempindən (16,2%) xeyli çoxdur.

Azərbaycanda kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarının əsas kapitala qoyulmuş investisiyaların ümumi həcmində payı 2015-ci ildəki 2,2%-dən 2018-ci ildə 4,4%-ə yüksəlsə də, 2019-cu ildə bu göstərici bir qədər (0,2 faiz bəndi) azalaraq 4,2% təşkil etmişdir. Təhlil edilən dövrdə kənd təsərrüfatına yönəldilmiş kapital qoyuluşlarında qeyri-dövlət sektorunun xüsusi çəkisi 12,1 faiz bəndi qədər artaraq 2015-ci ildəki 39,1%-dən 2019-cu ildə 53,1%-ə yüksəlmişdir.

Ölkə iqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələri üzrə əsas kapitala yönəldilmiş daxili investisiyaların dinamikasına nəzər yetirsək, görərik ki, 2015-2019-cu illərdə sənayedə bu göstərici 1,8 dəfəyə yaxın olsa da, kənd təsərrüfatında artım tempi müvafiq dövr üçün 2,2 dəfəyə yaxın olmuşdur (cədvəl 3).

**Cədvəl 3**

**İqtisadiyyatın sənaye və kənd təsərrüfatı sahələri üzrə əsas kapitala yönəldilmiş daxili investisiyaların dinamikası, milyon manat [2]**

| Göstəricilər | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019/ 2013 | 2019/ 2015 |
| Əsas kapitala investisiyalar - cəmi | 13178,9 | 12715,0 | 9058,5 | 6490,3 | 8765,3 | 11874,9 | 12867,1 | 97,6 | 142,0 |
| o cümlədən sahələr üzrə: Sənaye | 3503,9 | 3370,7 | 2758,0 | 2598,9 | 3620,6 | 4504,1 | 4846,7 | 138,3 | 175,7 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 26,6 | 26,5 | 30,5 | 40,0 | 41,3 | 37,9 | 37,7 | x | x |
| ondan: qida emalı | 160,8 | 92,4 | 87,9 | 63,6 | 93,5 | 180,1 | 127,3 | 79,2 | 144,8 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 1,2 | 0,7 | 1,0 | 1,0 | 1,1 | 1,5 | 1,0 | x | x |
| Kənd təsərrüfatı | 561,9 | 349,9 | 344,2 | 310,1 | 567,3 | 752,0 | 748,7 | 133,2 | 217,5 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 4,3 | 2,8 | 3,8 | 4,8 | 6,5 | 6,3 | 5,8 | x | x |

Hər iki halda artım tempi ölkə üzrə müvafiq ortalama göstəricisini xeyli geridə qoymuşdur. Nəticədə, kənd təsərrüfatı üzrə əsas kapitala yönəlik investisiyaların payı 2015-2019-cu illərdə 3,8%-dən 5,8%-ə qədər artmışdır. Hesablamalara görə ölkə iqtisadiyyatı üzrə əsas kapitala investisiyaların həcmi 2019-cu ildə 2013-cü ilə nisbətən 2,4% azalmış olsa da, sənaye və kənd

təsərrüfatı sahələri üzrə bu göstərici müvafiq olaraq 38,3% və 33,2% təşkil etmişdir. Bunun nəticəsidir ki, sənaye və kənd təsərrüfatının inkişafı üçün ayrılmış daxili investisiyaların bütövlükdə ölkə üzrə əsas kapitala yönəldilmiş investisiyalarda payı müvafiq dövrdə sənayedə 26,6%-dən 37,7%-ə, kənd təsərrüfatında isə 4,3%-dən 5,8%-ə qalxmışdır.

Qida emalı sənayesinə yönəldilmiş investisiyaların həcmi 2015-2019-cu illərdə 45%-ə yaxın artsa da, 2019-cu ildə 2013-cü ilə nisbətən 21%-ə qədər azalmış, cəmi ölkə üzrə daxili investisiyalarda payı 0,7-1,5 faiz civarında tərəddüd etmişdir.

İqtisadiyyatın sahələri üzrə xarici kapitalın iştirakı ilə təşkilatların əsas kapitalına investisiyalara gəldikdə demək lazımdır ki, kənd təsərrüfatında bu tip investisiyaların həcmi 2013-2019-cu illərdə 69,9% artmışdır ki, bu da ölkə iqtisadiyyatı üzrə ortalama müvafiq göstəricidən 48,5%, sənaye üzrə isə - 59,5% üstün olmuşdur (cədvəl 4).

**Cədvəl 4**

**İqtisadiyyatın sahələri üzrə xarici kapitalın iştirakı ilə təşkilatların əsas kapitalına investisiyalar, milyon manat [2]**

| Göstəricilər | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019/ 2013 | 2019 / 2015 |
| Əsas kapitala investisiyalar - cəmi | 4672,0 | 4903,6 | 6898,5 | 9282,5 | 8665,1 | 5370,0 | 5672,4 | 121,4 | 82,2 |
| o cümlədən sahələr üzrə: Sənaye | 3995,7 | 4268,9 | 5741,9 | 7350,9 | 6989,5 | 3993,1 | 4411,2 | 110,4 | 76,8 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 85,5 | 87,1 | 83,2 | 79,2 | 80,7 | 74,4 | 77,8 | x | x |
| ondan: qida | - | - | - | - | 32,0 | 16,5 | 13,0 | - | - |
| əsas kapitala investisiyalarda payı, %-lə | - | - | - | - | 0,4 | 0,3 | 0,3 | - | - |
| Kənd təsərrüfatı | 12,3 | 14,0 | 11,3 | 15,0 | 50,5 | 12,5 | 20,9 | 169,9 | 185,0 |
| əsas kapitala investisiyalarda payı, %-lə | 0,3 | 0,3 | 0,2 | 0,2 | 0,6 | 0,2 | 0,4 | x | x |

Onu da qeyd edək ki, son 2015-2019-cu illərdə ölkə iqtisadiyyatı üzrə xarici kapitalın iştirakı ilə təşkilatların əsas kapitalına investisiyaların həcmi 17,8%, sənaye üzrə isə bu tip investisiyaların həcmi 23,2% azalsa da, kənd təsərrüfatında bu tip investisiyaların həcmi 85,5% artmışdır.

Eyni zamanda kənd təsərrüfatına yatırımlar emal sənayesindən, xüsusən də qida sənayesindən əhəmiyyətli dərəcədə az idi ki, bu da ticarət və yanacaq sənayesindən sonra investisiya üçün ən cəlbedicidir, çünki qida məhsullarına sabit tələb zamanı investisiyaların nisbətən sürətli qayıdışı mövcuddur.

**3. Aqrar sahənin maliyyə resursları ilə təminatına dövlət dəstəyinin istiqamətləri**

Dövlət başçısının 2016-cı il dekabr ayının 6-da verdiyi Fərmanla təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə konkretləşdirilmiş 9 hədəfdən biri (hədəf 3) maliyyə vəsaitlərinə çıxışın asanlaşdırılmasından ibarətdir [4]. Azərbaycan Respublikasında rəqabətədavamlı aqrar sektoru formalaşdırmaq məqsədilə istehsalçıların maliyyə resursları ilə qarşılamaq, bu aspektdə riskləri qiymətləndirmək, eləcə də mövcud riskləri azaltmaq və yaxud təsirini yumşaltmaqla bağlı alətləri təkmilləşdirilmək zərurəti yaranır.

Yuxarıda sadalananları diqqətdə saxlayaraq, həmin strateji hədəfdə üç aparıcı istiqamət seçilmişdir. Birinci prioritet əsasında aqrar sahənin maliyyələşdirilmə vasitəsini təkmilləşdirmək məqsədilə görüləcək tədbirlər üzə çıxarılır. İkinci prioritetdə ölkədə aqrar sığortanı inkişaf etdirməklə əlaqəli tədbirlər planlaşdırılır. Sonuncu prioritetdə isə planlaşdırılan tədbirlər aqrar sahəyə yerli, eləcə də xaricdən investisiyaların cəlb olunaraq stimullaşdırılması məqsədi daşıyır.

Son dövrlərdə aqrar sahə üçün təqdim olunan kreditlərin həcminin artmasına rəğmən, bu cür kreditlərin ümumi kredit portfeli tərkibində, eləcə də ÜDM-də payı azdır. Başqa sözlə desək, Mərkəzi Bankın məlumatlarına əsasən 2019-cu il ərzində aqrar emal sənayesinə yönəldilən kreditlərin həcmi 532 milyon manat olmuşdur. Bu da ümumən Azərbaycan Respublikası iqtisadiyyatına ayrılmış kreditlərin cəmi 3,5 faizi deməkdir. Bunun da əsas səbəblərindən biri olaraq sahənin özünəməxsus xüsusiyyətləri olması qeyd edilir. Bir qədər də dəqiqləşdirsək, bu sahənin təbii-iqlimdən asılılığı, kapitalın dövretmə sürətində aşağı kəmiyyətin mövcudluğu, daha böyük hissəsi xırda təsərrüfatlardan təşkil olunan aqrar sahə məhsulları istehsalçılarına görə girov şərtlərinin əlverişli olmaması, bu sahədə kredit risklərinin azalmasını qarşılaya bilən uyğun mexanizmlərin istisnalığı, habelə istehsalçılarda maliyyə savadlılığının bir qədər aşağı səviyyəsi sözügedən sahəyə sərf edilən kreditlərin ümumən iqtisadiyyatda payının xeyli azalmasına səbəb olub.

Birinci prioriteti reallaşdırmaq üçün nəzərdə tutulan tədbirlərə aşağıdakılar aiddir [4]:

1. Aqrar sahədə maliyyə ehtiyatlarına tələbatla bağlı hədəfləri təyin etmək. Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyinin birgə araşdırmaları əsasında ümumən kənd təsərrüfatı, xüsusilə də onun öncül sahələrində maliyyə ehtiyatlarının təminat səviyyəsini üzə çıxarmaq və ehtiyacları müəyyənləşdirmək son dərəcə vacibdir. Hər iki nazirlik tərəfindən bu aspektdə tədqiqatlar aparmaq və maliyyə resurslarına əlçatanlıq imkanlarını artırmaq məqsədilə uyğun hədəflər seçilməlidir.

2. Kredit zəmanət fondunun təşkilati-iqtisadi imkanlarını nəzərdən keçirmək. Kredit qurumlarının verdiyi aqrar kreditlərlə əlaqəli risklərin qarşısını almaq üçün risk bölgüsünə əsasən zəmanət fondunu qurmaq imkanları tədqiq edilməlidir. Aqrar sahə məhsullarının istehsalçılarına təsir edən xarici təsirlərə (məsələn, quraqlığa və yaxud ixrac bazarında stabilliyi pozmağa) qarşı çoxsaylı risk paylaşması alətləri üzə çıxarılmalıdır. Bu tədbirin icrası məqsədilə “Azərbaycan Respublikasında KOS səviyyələrində istehlak malları istehsalı ilə əlaqəli Strateji Yol Xəritəsi”ndəki müddəalara əməl olunmalıdır.

3. Aqrar sahədə innovativ, habelə girovsuz kreditləri tətbiqetmə vasitələrini işləyib hazırlamaq. Girovsuz və innovativ kreditlər üzrə normativ hüquqi bazanı yaratmaq və fasiləsiz olaraq təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi Maliyyə Bazarlarına Nəzarət Palatası ilə Kənd Təsərrüfatı Nazirliyinə həvalə olunub. Bu yöndə işləri icra etmək məqsədilə girovsuz və innovativ kreditlərin təqdimatı ilə bağlı inkişaf etmiş dövlətlərin zəngin təcrübəsinin öyrənilməsi, eləcə də təhlillərin aparılması kimi vəzifələr təyin olunur.

4. Kredit təyinatlı girov bazasını daha da genişləndirmək. Daşınan girovların idarəçiliyinə görə məsuliyyət daşıyan mərkəzi qurumla Maliyyə Bazarlarına Nəzarət Palatasının əməkdaşlığı kontekstində aqrar sahə əmlakının (məsələn, texnika və texnologiyanın) zəruri qaydada təsnifləşdirilməklə məlumat bazasına yerləşdirilməsi qarşılanacaqdır. Paralel olaraq anbarda saxlanılan əmtəələrin, eləcə də istehsal ediləcək əmtəələrin girov kimi qəbulu ilə əlaqəli mövcud beynəlxalq təcrübənin tədqiqi yolu ilə müvafiq təkliflərin hazırlanması qarşılanacaqdır.

5. Aqrar-ərzaq məhsullarının istehsalçıları üzrə maliyyə savadlılığını zənginləşdirmək. Ölkədə yerləşən aqrar sahənin qida məhsulları üzrə elmi tədqiqat mərkəzlərinin araşdırmaları sayəsində fasiləsiz olaraq təlim və seminarların aparılması gündəmə gətirilir. Həmin təlim və ya seminarlarda aqrar-ərzaq malları istehsalçıları üçün maliyyəyə çıxışla əlaqəli məlumatlar təqdim edilməsi, eləcə də onlara (ehtiyaclarına adekvat olaraq) maliyyə vəsaitlərindən effektiv istifadə məqsədilə zəruri biliklərin aşılanması planlaşdırılır. Bununla yanaşı, maliyyə qurumlarının fəaliyyətlərində də istehsalçıların maliyyə savadlılığını artırmaq sahəsində rolunun genişləndirilməsi yönümündə işlərin görülməsi qarşılanacaqdır.

6. Aqrar bölməyə təsir edən risklərin idarəçiliyi üzrə vasitələr yaratmaq. Aqrar bölmədə riskləri dəyərləndirmək, eləcə də bu riskləri azaltmaq və yaxud təsirini yumşaltmaq üzrə alətlərin təyin edilməsi üçün Kənd Təsərrüfatı Nazirliyində araşdırmaların aparılması gündəmə gətirilir. Tədqiqatların gedişində əsas risklər, onların peyda olması tezliyinin və dərəcəsinin araşdırılması, habelə həmin risklərin ölkə səviyyəsində və bölmənin nəticələri sahəsindəki təsirə uyğun yekun nəticələrin hazırlanması əsas məqamlardandır. Bu tədqiqata əsasən əldə edilən informasiyalarla

əlaqəli elektron məlumat bazası təşkil edilməklə kredit təşkilatlarında aqrar sahəyə aid istənilən fəaliyyətin tədqiqi və kreditlərin tədqimatı ilə əlaqəli qərarların çıxarılması ilə bağlı aparıcı informasiya mənbələri kimi meydana çıxması baş verəcəkdir.

7. Kredit təşkilatlarının maliyyə vəsaitlərinin aqrar bölmənin kreditləşməsinə yönlənməsi üzrə stimullaşdırma tədbirlərinin hazırlanması. Kredit təşkilatları sayəsində aqrar sahəyə ayrılmış kommersiya kreditləri ilə bağlı faiz dərəcələrini optimallaşdırmaq vasitəsilə istehsalçıların əlverişli şərtlərinə uyğun gələn maliyyəyə çıxışını sadələşdirmək, eləcə də aqrar sektora əlavə maliyyə vəsaitləri cəlb etmək yönündə beynəlxalq təcrübənin araşdırılaraq sistemləşdirilməsi, təklif və tövsiyələrin işlənib hazırlanması tələb olunur.

Aqrar sahənin ümumilikdə maliyyələşmə vasitələrinin təkmilləşdirilməsi planlaşdırılır. Girovsuz, habelə innovativ kreditlərin istifadəsi ilə əlaqəli normativ hüquqi bazanı təkmilləşdirmək vacib məsələ kimi vurğulanır. Daşınmaz girovdan dolayı başqa girov növləri ilə kreditləşdirmə alətlərinin formalaşdırılması planlaşdırılır. Aqrar sahədə mövcud olan işlək olmayan kredit məbləğinin azaldılması qarşılanmalıdır. Aqrar-ərzaq malları istehsalçıları üzrə maliyyə savadlılığının mükəmməl vəziyyətə gətirilməsi və onların əlverişli şərtlərə uyğun maliyyə çıxışının qarşılanması reallaşmalıdır. Bu prioritet kontekstində göstərilən tədbirlərin nəticəsi olaraq əlavə müəyyən maliyyə vəsaitinə çıxış imkanı yaradacaq və kredit zəmanət fondunun yaradılması təmin ediləcəkdir [5].

Burada sadalanan tədbirlərin digər prioritetlərini reallaşdırmaq məqsədilə dəstəkləyici rola malik olması, eləcə də real ÜDM-in formalaşmasına təsir göstərəcəyi ehtimal olunur.

Gözlənilən risklərlə bağlı məsələyə gəldikdə vurğulamaq lazımdır ki, fermerlərdə innovativ maliyyələşdirmə vasitələri ilə əlaqəli biliklərin azlığı sözügedən sahəyə maraqların yetərincə olmaması ilə nəticələnə bilər. Bu prioritet üzrə qeyd edilən başqa risk faktoru Azərbaycan Respublikasında fəaliyyətdə olan kredit qurumlarının aqrar sahəyə kreditlər təqdim etməkdə cüzi maraq kəsb etməsidir.

Son illərdə Azərbaycan Respublikasında aqrar sahəyə yatırılan sərmayələrin ümumi həcminin yüksəlməsinə rəğmən, ümumən bu sahəyə investisiya yatırımları ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə xeyli aşağıdır. Son on beş ildə Azərbaycan Respublikası iqtisadiyyatının sahələri üzrə investisiyaların quruluşuna nəzər salsaq, görərik ki, aqrar sahəyə yönlənmiş investisiyaların payı ortalama cəmi-cümlətani 3,1 faiz də deyil.

Azərbaycan Respublikası iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiya məbləğinin keçən müddət ərzində bir neçə dəfə çoxalmasına rəğmən, respublikada aqrar sahənin inkişafı istiqamətində birbaşa xarici investisiyaların yatırılması hallarına demək olar ki, rast gəlinmir.

Aqrar sahəyə sərmayə yatırımlarının təşviq edilməsi prioritetini reallaşdırmaq məqsədilə aqrar investisiya ehtiyaclarını dəyərləndirmək, eləcə də investisiya layihələrini hazırlamaq nəzərdə tutulub. Bunun üçün ilk öncə, aqrar sahənin gələcək inkişaf perspektivlərinə uyğun olaraq bu sahənin investisiya ehtiyaclarını, habelə imkanlarını müfəssəl qaydada qiymətləndirmək məsələsi İqtisadiyyat, Kənd Təsərrüfatı nazirliklərinin, eləcə də yerli icra hakimiyyəti orqanlarının birgə fəaliyyəti ilə təmin ediləcəkdir. Bu cür dəyərləndirmə əsasında inzibati rayonlarda və sahələrdə investisiya layihələri və xəritələrinin tərtibatı aparılır. Aqrar sahənin investisiya imkanları nəzərə alınmaqla həm elektron, həm də çap materiallarını işləyib hazırlamaq, ölkədaxili və xaricdə baş tutan sərgilərdə, konfranslarda, forumlarda, milli və xarici biznesmenlərlə ikitərəfli görüşlərdə təqdimatı gözlənilir.

Qloballaşma şəraitində tanınmış aqroemal, xüsusən qida məhsulları istehsalçılarının (transmilli şirkətlərin) ölkəmizə sərmayə qoymağa dəvət edilməsi və zərurət yarandıqda, bu cür istehsalçıların ölkəyə investisiya yatırımlarına cəlb olunmasının təşviqi üçün xüsusi strategiyaların, habelə proqramların işlənməsi nəzərdə tutulur. Aqrar sahədə əlverişli investisiya mühitini formalaşdırmaq məqsədilə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri müştərək qaydada sözügedən sahədə müvafiq investisiya mühitinin təhlilini aparmalı və nəticələri ümumiləşdirməlidir. Araşdırmaların nəticəsinə əsasən aqrar sahə yönümündə sərmayə mühitini daha da təkmilləşdirmək məqsədilə təkliflərin hazırlanmasına ehtiyac vardır.

İnzibati rayonların hər birində müvafiq investisiya xəritə və layihələrinin işlənib hazırlanması və aqrar sahədə əlverişli investisiya mühitini bərqərar etmək nəzərdə tutulur. Dünyanın tanınmış aqrosənaye, xüsusən qida məhsulları istehsalçılarının sözügedən sahəyə yatırımları ilə ölkəmizin qlobal dəyər zəncirinə inteqrasiyasını daha da gücləndirmək planlaşdırılıb. Aqrar sahəyə cəlb olunacaq birbaşa xarici investisiyaların həcminin daha da artırılması qeyd edilir. Həmin prioritetdə sadalanan tədbirlər sayəsində aşağıdakı nəticələrə nail olunması planlaşdırılıb:

- aqrar sahəyə cəlb olunacaq investisiyaların həcminin 2 dəfəyə qədər yüksəldilməsi;
- Azərbaycan Respublikasının inzibati rayonları və sahələrində 100-ə qədər investisiya layihəsinin hazırlanması.

**4. Aqrar sahəyə investisiya cəlb edilməsi mexanizminin təkmilləşdirilməsi**

Bir çox əmtəə məhsulunun istehsal həcmində əhəmiyyətli bir paya sahib olan FKT, əsasən, ev təsərrüfatlarının imkanlarına malikdir, çünki bunlar ya kənd təsərrüfatı məhsullarının əsas istehsalçısı, ya da aqrar-sənaye kompleksində dövlət investisiya siyasətinin prioritetləri hesab edilmir. Bu kateqoriyadan olan əmtəə istehsalçılarının investisiya bazarına məhz kənd təsərrüfatı əmtəə istehsalçısı kimi daxil olmaq üçün real fürsəti yoxdur. Nəzəri olaraq onlar banka müraciət edə, kifayət qədər likvid aktivləri girov qoyaraq lazımi investisiya (o cümlədən kredit) mənbələri əldə edə bilərlər. Lakin praktikada bu kateqoriyadan olan potensial borcalanların kreditləri bankların onlara marağını əhəmiyyətli dərəcədə məhdudlaşdıran yüksək risk qrupuna aiddir. Bu kateqoriyadan olan əmtəə istehsalçılarına borc verilməsinin zəruriliyini başa düşməsinə baxmayaraq, sonuncular (banklar) ölkənin Mərkəzi Bankının təlimatları ilə məhdudlaşır, buna görə borcalanlara verilən malların miqdarı üçün yüksək risk qrupu, bank 100% təqdim edilmiş kredit həcmində ehtiyat yaratmalıdır.

İqtisadiyyatın digər sahələrindən kapital cəlb etməklə kənd təsərrüfatına investisiya qoyuluşu və kənd təsərrüfatı istehsalı sahələri daxilində kapitalın axması problemlidir ki, bunların da hər biri özünə xas olan texnika, texnologiya və istehsalın təşkilindən istifadə edən bir çox məhsul alt kompleksi olan çoxşaxəli strukturdur. İnvestisiya mənbələrinin və istiqamətlərinin formalaşmasına həlledici təsir göstərən mühüm cəhət kənd təsərrüfatı prosesinin bioloji əsasını təşkil edir. Azərbaycanın müxtəlif təbii-iqlim zonalarında bioloji proseslər qeyri-bərabər davam edir, buna görə də investisiyaların prioritetində əhəmiyyətli amil investisiyalara (xarici və digər cəlb olunan) qiymət əmələgəlmə xüsusiyyətlərini, müvafiq risklərin nəzərə alınması zərurətini müəyyən edən kənd təsərrüfatı istehsalının rayonlaşdırılmasıdır. Kənd təsərrüfatında yeni mal cinsləri, bitki sortlarının yetişdirilməsi kimi seqmentlərə uzunmüddətli investisiya qoyuluşu, bu məqsədlə kapital mənbələri yaratmaq üçün əmtəə istehsalçılarının kooperasiyasını obyektiv şəkildə stimullaşdırır.

Kənd təsərrüfatı müəssisələrinin əsas kapitalına qoyulan investisiyaların artması və dövlət tərəfindən göstərilən dəstək son illərdə bir çox kənd təsərrüfatı istehsalçısının fəaliyyətinin səmərəliliyini artırmağa imkan verdi. Azərbaycanın kənd təsərrüfatı müəssisələri müxtəlif maliyyələşdirmə mənbələrindən - əmtəə kreditləşməsindən icarəyə götürülmüş torpaqlarda öz kənd təsərrüfatı istehsalını həyata keçirən şaquli inteqrasiya olunmuş aqro-ərzaq komplekslərinin yaradılmasına qədər istifadə edirlər.

## Nəticə

Kənd təsərrüfatına investisiyaların cəlb edilməsinə dair dövlət siyasəti, fikrimizcə, bu sahənin inkişafı üçün məhdud büdcə vəsaitlərinin istifadəsi kimi hədəf funksiyasını həll etmək ehtiyacından irəli gəlməlidir. Bu tapşırığın həyata keçirilməsi müxtəlif tənzimləmə metodlarından istifadə etməklə iki yolla mümkündür.

1) birbaşa - dövlət investisiya infrastrukturunun yaradılması, kənd təsərrüfatının müəyyən sahələri üçün subsidiyalar, məqsədli respublika və regional proqramların dövlət tərəfindən maliyyələşdirilməsi, inzibati-idarəçilik təsərrüfat subyektlərinin prioritet investisiya layihələrinin güzəştli kreditləşdirilməsinə dövlət dəstəyi (müəyyən bir məqsədə çatmaq üçün qarşılıqlı əlaqəli tədbirlər kompleksi məhdud müddətə və məhdud resurslarla);

2) dolayı (dövlət tənzimləməsi) - iqtisadi (çevik kredit, vergi, amortizasiya və qiymət siyasətinin aparılması, investorlara zəmanət və üstünlüklərin verilməsi), hüquqi (investisiya

fəaliyyətinin dövlət hüquqi tənzimlənməsi və dəstəklənməsi, müvafiq tənzimləmə bazasının vaxtında yaradılması, biznes strukturları ilə dövlət qurumları arasındakı münasibətlərin uyğunlaşdırılması), təşkilati (aqrosənaye kompleksi - ölkələr, bölgələr, bələdiyyələr orqanların fəaliyyətinin təşkilati-iqtisadi tənzimlənməsinə dair qanunvericilik aktlarının və dövlət orqanlarının qərarlarının icrasına nəzarətin təmin edilməsi və investisiya proseslərinin aktivləşdirilməsi).

Beləliklə, Azərbaycan iqtisadiyyatının kənd təsərrüfatı sektoruna investisiya cəlb etmək, fikrimizcə, bu sahənin bütün sosial-iqtisadi, texniki, texnoloji, bioloji və digər xüsusiyyətlərini həqiqətən nəzərə alan müvafiq mexanizm tələb edir. Normal investisiya mühitinin formalaşmasında dövlətin real iştirakı olmadığı təqdirdə kənd təsərrüfatının cəlbediciliyinin artırılması, dünya bazarında Azərbaycan kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin asılı olduğu əsas həll problemlərindən biri olaraq qalacaqdır.

**Nizami Qafarov**

**Aqrar sahədə investisiya potensialından istifadənin təkmilləşdirilməsi**

**Xülasə**

Məqalə Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahə və regionlarında kənd təsərrüfatının investisiya imkanlarının, xarici investisiyaların ölkənin aqrar sektoruna cəlb edilməsi mənbələrinin araşdırılmasına həsr edilmişdir. Tədqiqatın əsas məqsədi aqrar sahədə investisiya mexanizmindən istifadə etməklə bu sahənin maliyyə resurslarına əlçatanlığının təmin edilməsini araşdırmaqdan və ölkənin kənd təsərrüfatı sektorunun mövcud maliyyə mənbələrindən effektiv istifadə ilə bağlı təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Tədqiqatın metodologiyası iqtisadi-statistik və müqayisəli təhlil, məntiqi ümumiləşdirmə və sintez metodlarını əhatə edir. Tədqiqatın elmi yeniliyi ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatı fonunda aqrar sahədə investisiya mexanizmindən kompleks istifadənin təkmilləşdirilməsi ilə bağlı müvafiq təklif və tövsiyələr hazırlamaqdır.

Məqalədə kənd təsərrüfatına investisiya imkanlarının aşkarlanması zərurəti əsaslandırılmış, Azərbaycanda aqrar sahənin inkişafı üçün əsas kapitala investisiyaların və onun strukturunun dinamikası təhlil edilərək qiymətləndirilmişdir. Müəllif tərəfindən həmçinin aqrar sahənin maliyyə resursları ilə təminatının dövlət dəstəyi istiqamətləri müəyyənləşdirilmiş və aqrar sahəyə investisiya cəlb edilməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı müvafiq təklif və tövsiyələr verilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələrindən aqrar sahədə mövcud investisiya potensialından istifadənin təkmilləşdirilməsi ilə bağlı milli iqtisadiyyatın gələcək inkişaf proqramının hazırlanmasında istifadə oluna bilər.

**Низами Гафаров**

**Улучшение использования инвестиционного потенциала в аграрном секторе**

**Резюме**

Статья посвящена исследованию инвестиционных возможностей сельского хозяйства в различных секторах экономики и регионах Азербайджана, источников привлечения иностранных инвестиций в аграрный сектор страны. Основная цель исследования - изучить доступность финансовых ресурсов в аграрном секторе с использованием инвестиционного механизма и разработать предложения и рекомендации по эффективному использованию имеющихся финансовых ресурсов в аграрном секторе страны. Методология исследования включает экономико-статистический и сравнительный анализ, методы логического обобщения и синтеза. Научная новизна исследования заключается в разработке актуальных предложений и рекомендаций по совершенствованию комплексного использования инвестиционного механизма в аграрном секторе на фоне обеспечения населения страны продуктами сельского хозяйства.

В статье обоснована необходимость выявления возможностей инвестирования в сельское хозяйство Азербайджана, проанализирована и оценена динамика инвестиций в основной капитал и его структура для развития аграрного сектора Азербайджана. Автор также обозначил направления государственной поддержки предоставления финансовых

ресурсов в аграрный сектор и внес соответствующие предложения и рекомендации по совершенствованию механизма привлечения инвестиций в аграрный сектор.

Практическая значимость исследования заключается в том, что его результаты могут быть использованы для разработки программы будущего развития национальной экономики с целью улучшения использования имеющегося инвестиционного потенциала в аграрном секторе.

**Nizami Gafarov**

**Improving the use of investment potential in the agrarian sector**

**Summary**

The article is devoted to the study of agricultural investment opportunities in different sectors of economy and regions of Azerbaijan, the sources of attracting foreign investment in the country's agrarian sector. The main purpose of the reasearch is to study the availability of financial resources in the agrarian sector using the investment mechanism and to develop proposals and recommendations on the effective use of existing financial resources of the agrarian sector of the country. The research methodology includes economic-statistical and comparative analysis, logical generalization and synthesis methods. The scientific novelty of the research is to develop relevant proposals and recommendations on improving the integrated use of the investment mechanism in the agrarian sector against the background of the provision of the country's population with agro-food products.

The article substantiates the need to identify agricultural investment opportunities in different sectors of economy and regions of Azerbaijan, analyzes and evaluates the dynamics of fixed capital investment and its structure for the development of the agricultural sector in Azerbaijan. The author also identified areas of state support for the provision of financial resources to the agrarian sector and made relevant proposals and recommendations to improve the mechanism for attracting investment in the agrarian sector.

The practical significance of the study is that its results can be used to develop a program for the future development of the national economy to improve the use of existing investment potential in the agricultural sector.

**Ədəbiyyat**

1. T.İ.Kərimova. "İqtisadiyyatın investisiya potensialının formalaşdırılması və səmərəli istifadəsi problemləri". Monoqrafiya, Bakı-2017.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. www.stat.gov.az
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabat. Bakı-2020
4. "AzərbaycanRespublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il
5. A.E.Quliyeva. Regional sosial-iqtisadi inkişaf proqramları: maliyyə-kredit təminatı və səmərəlilik. Monoqrafiya. Bakı: "Kooperasiya" nəşriyyatı, 2017.

Məqalə redaksiyaya daxil olmuşdur: 26.05.2021
Təkrar işlənməyə göndərilmişdir: 28.05.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 33:331
DOI:10.338.70/2413-6557-2021-7-3-

# AZƏRBAYCANDA AQRAR SEKTORUN STATİSTİK İCMALI VƏ AZAD EDİLMİŞ RAYONLARIN KƏND TƏSƏRRÜFATI POTENSİALI

***Nizami Kazımov***
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*Ümumi əkinçilik, Genetika və Seleksiya kafedrasının baş müəllimi, a.e.f.d*
*AZ 2000, Gəncə şəhəri, Atatürk prospekti 450*
*e-poçt: knizami70@gmail.com*

***Zülfüqar Məhərrəmov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Samux Rayon Statistika İdarəsi, aparıcı məsləhətçi*
*AZ 5100, Samux şəhəri, Heydər Əliyev prospekti 44*
*e-poçt: zulfubey@mail.ru*

**Açar sözlər:** kənd təsərrüfatı, inkişaf problemləri, inkişaf amilləri, iqtisadiyyatın kənd təsərrüfatı sektoru, inkişaf potensialı, bitkiçilik.
**Ключевые слова:** сельское хозяйство, проблемы развития, факторы развития, аграрный сектор экономики, потенциал развития, растениеводство.
**Keywords:** agriculture, development problems, development factors, agrarian sector of the economy, development potential, crop production.

## Giriş

Kənd təsərrüfatı milli iqtisadiyyatın ayrılmaz bir sahəsi olmaqla yanaşı, həm də strateji əhəmiyyətə malikdir və ölkənin ərzaq təhlükəsizliyini təmin edir. Kənd təsərrüfatı sektorunun inkişafı və kənd təsərrüfatı istehsalının yaxşılaşdırılması perspektivləri ölkənin sabit və dinamik sosial-iqtisadi inkişafı üçün obyektiv bir şərtdir. Bu sahə bütün iqtisadiyyatın inkişafında, eləcə də maddi və sosial təminat problemlərinin həllində mühüm rol oynayır [3]. Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həllində, xüsusən də regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Kənd təsərrüfatı sektorunun inkişafı perspektivləri və aqrosənaye istehsalının son nəticələri birbaşa kənd təsərrüfatı sektorunun inkişaf səviyyəsindən asılıdır. Kənd təsərrüfatında istehsalın artması ilə müxtəlif növ ehtiyatların (əmək, maliyyə, maddi, istehsal vasitələri) və xammalın istifadəsi artır. Eyni zamanda hökumət dövlət büdcəsindən kənd təsərrüfatı istehsalının artımı üçün minimum miqdarda vəsait ayırdıqda ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı istehsalının səmərəliliyi, cəmiyyətin qida ilə özünü təmin etmək imkanları yüksəlir [3]. Xeyli sayda elm adamı Azərbaycan iqtisadiyyatının aqrar sektorunun vəziyyəti və inkişaf istiqamətlərini öyrənmişdir. Çox sayda elmi inkişaf arasında bu kimi elm adamlarının İ.Mustafayev, H.Əliyev, Ç.Əliyev, A.Əliyev, V.Tutayuqun əsərlərini qeyd etmək lazımdır. Bununla birlikdə, kənd təsərrüfatı sektorunun inkişaf mexanizminin, inkişaf tendensiyalarının müəyyənləşdirilməsi ilə bağlı bir çox sual kifayət qədər araşdırılmamışdır. Eyni zamanda bu problemlərin elmi əsaslandırılması son dərəcə vacibdir, çünki iqtisadi və sosial inkişaf proqnoza təsir göstərir.

## Tədqiqatin məqsədi

Məqalənin məqsədi Azərbaycanda kənd təsərrüfatı sektorunun icmalı, bitkiçilik məhsullarının mövcud vəziyyəti, inkişafı potensialı və əsas göstəricilərinin təhlili aparılmışdır. Həmçinin məqalədə Azərbaycanın kənd təsərrüfatı istehsalının dinamikası, məhsul yığımı haqda məlumat, taxıl ehtiyatları tədqiq edilmişdir. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası, əkinçilik sektorunun güclü, zəif tərəflərini göstərən SWOT analiz matrisi tərtib edilmiş, həmçinin bu ərazilərin kənd təsərrüfatının inkişafı üçün imkanlar və təhdidlər müəyyənləşdirilmişdir.

**Tədqiqatın material və metodları**

Tədqiqat üçün informasiya bazası aşağıdakılardır: Tədqiqat üçün məlumat bazası Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin [3,10], Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi [5], Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin [1], İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) məlumatlarıdır. Məqalədə Azərbaycan alimlərinin kənd təsərrüfatı sektorunun inkişafının diaqnostikası sahəsindəki araşdırmalarından da istifadə olunur. İşdə istifadə edilən tədqiqat metodları: monoqrafik, idrakın ümumi məntiqi metodları (müşahidə, analiz, sintez, ümumiləşdirmə, sistematik yanaşma), empirik tədqiqatın ümumi elmi metodları (iqtisadi monitorinq) və s.-dən ibarətdir. Bu göstəricilərin elmi əsaslandırılması çox vacibdir, çünki bu məlumatlar iqtisadi və sosial inkişaf proqnozuna təsir göstərir.

**Tədqiqat işinin müzakirəsi**

Azərbaycan ən qədim əkinçilik mədəniyyətinə malik ölkədir. Azərbaycan Respublikası üçün kənd təsərrüfatı həm də ənənəvi istehsal sahəsidir. Kənd təsərrüfatı məhsullarının (xammalın) və ərzaq məhsullarının istehsalı çox mürəkkəb sistemdir, onun vəziyyəti və inkişafı bir çox xarici və daxili xarakterli amillərin kompleks təsirindən asılıdır. Hazırda o, ölkə əhalisini yetəri qədər və tamdəyərli qida məhsulları ilə təmin edilməsi kimi öz əsas funksiyalarını hələki istənilən səviyyədə yerinə yetirmir. Bu məqsədə nail olunması birbaşa dövlətin aqrar siyasətinin əsasını təşkil edir [6].

Azərbaycan Respublikası kənd təsərrüfatı sektorunun inkişafında başlıca olaraq dörd əsas problemi qeyd etmək olar [6]. Birinci problem iqlim xüsusiyyətləridir. Ölkəmizin təbii-iqlim şəraiti kənd təsərrüfatı bitkilərinin bütün il ərzində becərilməsinə imkan versə də, torpaq fondunun 55,2 faizi kənd təsərrüfatına yararlıdır ki, bunun da əksəriyyəti rütubət çatışmayan quraq zonaya aid olduğundan burada suvarma tətbiq etmədən kənd təsərrüfatı məhsulları istehsal etmək mümkün deyildir [11]. Azərbaycanda ərazilərin yalnız 30%-i praktik olaraq risksiz, kənd təsərrüfatına əlverişli, nisbətən proqnozlaşdırılan iqlimə malikdir. Azərbaycanda orta hesabla iqlimin əlverişsiz təsiri hər 2-3 ildən bir məhsula təsir göstərir. Kənd təsərrüfatının inkişafındakı ikinci problem maliyyə çatışmazlığıdır. Azərbaycanda kənd təsərrüfatı müəssisələrinə yardım və dəstək səviyyəsi orta Avropa göstəricilərindən bir neçə dəfə aşağıdır. Hətta "Ümumdünya Ticarət Təşkilatının qaydaları ilə müəyyən edilmiş hədd kimi göstərilən vəsait fermerlərə çatmır. Ayrıca, ayrılmış vəsaitlər də bəzən son dərəcə təsirsiz olaraq istifadə olunur" [9,10]. Kənd təsərrüfatının inkişafındakı üçüncü problem, qeyri-qənaətbəxş texniki vəziyyət (pisləşmə), həmçinin kənd təsərrüfatı maşın parkının çatışmazlığıdır. Azərbaycanlı fermerlər, mövcud avadanlıqların aşağı məhsuldarlığı səbəbindən Qərb istehsalçıları ilə tam rəqabət apara bilmirlər. Bu problem yalnız maliyyələşdirmə problemləri həll edildikdən sonra həll edilə bilər. Dördüncü problem insan amilidir. Buraya idarəetmə və bilik məsələləri daxildir. Bütün liderlər səmərəlilik üçün səy göstərmirlər. Nəticədə məlum olur ki, bir iqlim zonasında, bir bölgədə, inkişaf etmiş bir təsərrüfatda məhsuldarlıq, geri qalmış digər təsərrüfatın oxşar məhsulun məhsuldarlığından dəfələrlə çox ola bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı üçün nəzərə alınmalı olan əsas amillər bunlardır:

- torpaq örtüyünün müxtəlifliyi;
- ərazilərin, əsasən, düz xarakteri;
- əmək ehtiyatlarının və elmi bazanın mövcudluğu;
- kənd təsərrüfatı istehsalının kimyəviləşdirilməsi, mexanizasiyası və avtomatlaşdırılması [6].

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, 2019-cu ildə bütün kənd təsərrüfatı istehsalçılarının (kənd təsərrüfatı təşkilatları, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları) istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi cari qiymətlərdə, ilkin hesablamalara görə, 7836,7 milyon manat təşkil etmişdir [1]. Eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Azərbaycanın kənd təsərrüfatı 2020-ci il üçün məcmuəsi hər il 2016-cı ildən 2019-cu ilə qədər olan dövrdə 11,9% artım qeyd edilir. Bu da onu göstərir ki, Azərbaycanda kənd təsərrüfatı

istehsalı kifayət qədər sürətlə böyüyür[1]. Bir qayda olaraq, kənd təsərrüfatı iki alt bölmədən ibarətdir: bitkiçilik və heyvandarlıq. Bitkiçilik üstünlük təşkil edən bir sahədir, belə ki, sənaye üçün qida və xammaldan əlavə, ev heyvanları üçün yem də istehsal edir.

Statistikaya görə, 2011-ci ildən 2019-cu ilədək Azərbaycan Respublikasında kənd təsərrüfatı istehsalında kifayət qədər yaxşı artım var (cədvəl 1).

**Cədvəl 1**

**Kənd təsərrüfatı məhsullarının istehsalı, milyon manat [1]**

| | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
| Ölkədə | 4525,2 | 4844,6 | 5244,6 | 5225,8 | 5635,3 | 5632,4 | 6580,0 | 7010,0 | 7836,7 |
| bitkiçilik məhsulları | 2339,8 | 2458,2 | 2629,6 | 2449,4 | 2761,1 | 2577,2 | 3019,0 | 3186,0 | 3751,2 |
| heyvandarlıq məhsulları | 2185,4 | 2386,4 | 2615,0 | 2776,4 | 2874,2 | 3055,2 | 3561,0 | 3824,0 | 4085,5 |

Bununla yanaşı, 2014-cü və 2016-cı ildə Azərbaycanda kənd təsərrüfatı istehsalında azalma tendensiyasının yaşandığını da qeyd etmək lazımdır (şəkil 1).




Şəkil 1. Azərbaycanda kənd təsərrüfatı istehsalının dinamikası,% [1]

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, Ümumi Daxili Məhsulda kənd təsərrüfatının payını yüksəltmək, istehsalın intensiv yolla inkişafını təmin etmək məqsədilə xırda təsərrüfatların kooperasiya yolu ilə birləşdirilməsi obyektiv zərurətə çevrilmişdir. Xarici ölkələrin təcrübələrinə əsaslanaraq kiçik ölçülü təsərrüfatların könüllülük əsasında kooperasiyalarda birləşməsi istiqamətində müəyyən işlər görülməlidir [6]. Araşdırmalar göstərir ki, həmin təsərrüfatların əksəriyyəti digər səbəblərlə yanaşı, kənd təsərrüfatı üzrə müvafiq biliyi, ixtisası və təcrübəsi olmağına və pay torpaqları əsasında formalaşmış kiçik ölçülü təsərrüfatların könüllülük əsasında kooperasiyalarda birləşmədiklərinə görə aqrobiznesdə uğurlu nəticələr əldə edə bilmirlər.

**Cədvəl 2**

**Azərbaycanda bəzi kənd təsərrüfatı bitkiləri yığımı barədə məlumatları [1]**

| K/t məhsulunun adı | 2018-ci il | | | 2019-cu il | | |
|---|---|---|---|---|---|---|
| | əkin sahəsi, ha | istehsal, ton | məhsul-darlıq, sent/ha | əkin sahəsi, ha | istehsal, ton | məhsul-darlıq, sent / ha |
| Payızlıq və yazlıq buğda | 679 103 | 2042 863 | 30,1 | 670 020 | 2171 490 | 32,4 |
| Payızlıq və yazlıq arpa | 337 179 | 941 956 | 27,9 | 342 214 | 1015 539 | 29,7 |
| Dən üçün qarğıdalı | 31 746 | 247 939 | 57,7 | 32 840 | 283 570 | 59,5 |
| Çəltik | 4 054 | 12 413,2 | 30,0 | 4 037 | 12043,7 | 29,9 |
| Paxlalı bitkilər | 25 998 | 49 721 | 19,3 | 17 181 | 35 947 | 20,9 |
| Pambıq | 132 512 | 233 592 | 17,6 | 100 112 | 295 279 | 29,5 |
| Tütün | 3405 | 6316,6 | 19,0 | 3134 | 6038,6 | 19,3 |
| Şəkər çuğunduru | 8562 | 277217 | 350 | 7346 | 218525 | 328 |
| Dən üçün günəbaxan | 11566 | 23586 | 20.6 | 16551 | 33726 | 21.6 |
| Kartof | 59318 | 898914 | 149 | 56921 | 1004172 | 169 |
| Tərəvəz | 69499 | 1521931 | 162 | 69354 | 1714678 | 176 |

Taxıl istehsalının vəziyyəti və taxıl bazarında mövqeyi dünya təcrübəsində beynəlxalq miqyasda və ayrı-ayrı ölkələrin ərzaq təhlükəsizliyinin əsas göstəricisi kimi qəbul edilir.

Taxıl istehsalı bütün dövrlərdə diqqətdə olmuş və dövlətlərin iqtisadi siyasətinin ana xəttini təşkil etmişdir [6]. Taxıl bitkiləri Azərbaycanın əkin sahələrinin çoxunu tutur. Azərbaycan iqtisadiyyatının ən vacib sahələrindən biri də kənd təsərrüfatıdır. Yeni kənd təsərrüfatı istehsalçılarını cəlb etmək və yerli istehsalçıları dəstəkləmək üçün hökumət bu sahə üçün müəyyən üstünlüklər verir. Məsələn, kənd təsərrüfatı istehsalçıları üçün güzəştli kreditləşmə mövcuddur [6].




Şəkil 2. 01.12.2021-ci il tarixinə Azərbaycana idxal olunan taxıl ehtiyatlarının qrafiki [5]

Azərbaycana idxal olunan buğdanın 70 faizi Rusiyadan gətirilir. Bundan başqa, Azərbaycanda buğda idxalı və istehsalı əlavə dəyər vergisindən də azaddır. Ekspertlər isə bildirir ki, yaranmış vəziyyətdə əsas məqam ərzaq buğdasına tələbin yerli istehsal hesabına ödənilməsini təmin etməkdir. Sadəcə, bunun üçün fermerlərlə ərzaq buğdasının istehsalı istiqamətində təşviqat

işləri aparılmalıdır. Əks təqdirdə dünya taxıl bazarlarında baş verənlərin Azərbaycana təsiri qaçılmaz olacaq [8].




Şəkil 3. Taxıl idxalı (min ton) [5]

Dağlıq Qarabağ və ətraf rayonlar hələ sovetlər dövründə ciddi aqrar-sənaye infrastrukturu olub. Bu infrastrukturun bərpası həm kənd təsərrüfatı məhsullarının artmasına imkan verəcək, həm də ölkənin ixrac potensialını artırmış olacaq. Azad edilmiş ərazilərdə kənd təsərrüfatı inkişafı mərhələli şəkildə həyata keçiriləcək. Əsas odur ki, bunun üçün ciddi potensial və dövlət dəstəyi var. Azərbaycan torpaqlarının işğaldan azad olunması ölkədə kənd təsərrüfatının inkişafı üçün iki obyektiv amili formalaşdırır. Birincisi, ölkənin əkin dövriyyəsi genişlənəcək. İkincisi, azad edilmiş ərazilərdə mövcud olan su anbarlarından istifadə əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunmasını yaxşılaşdıracaq. Əkin dövriyyəsi, ilk növbədə, işğaldan azad olunmuş ərazilərdə əkinəyararlı kənd təsərrüfatı təyinatlı torpaqlar hesabına artacaq. Əkin dövriyyəsinin genişlənməsi və ənənəvi su mənbələrinə çıxış əldə edilməsi ciddi üstünlükdür. Qeyd edilən amillər bütün ölkədə kənd təsərrüfatının daha da inkişafı üçün real zəmin yaradır [17]. Bu rayonlarımızın aqrar üstünlüyü, xammal bazası baxımından əlverişlidir. İşğal nəticəsində minlərlə hektar əkinəyararlı ərazi hərbi tullantılarla çirkləndirilmiş, 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən, təxminən, 128 min suvarılan torpaq, 35 min hektara yaxın üzüm və meyvə bağları məhv edilərək dövriyyədən çıxarılıb. İşğala qədər ölkə üzrə ÜDM istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i həmin rayonların payına düşür [15,16]. Qeyd etdiyimiz statistik məlumatlar görüləcək işlərin miqyası haqqında müəyyən təsəvvür yaradır. Xüsusilə Laçın və Kəlbəcərin iqtisadi potensialı, o cümlədən, ölkə üzrə Ümumi Daxili Məhsuldakı payının qiymətləndirilməsi göstərir ki, həmin ərazilərdə iqtisadiyyatın dəfələrlə artması mümkündür. İşğaldan azad edilən ərazilərimizin təbii imkanları, kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yarada bilər. Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli inzibati rayonlarının sənaye, kənd təsərrüfatı potensialı genişdir. Xammal bazası, təbii resursları olduqca böyükdür [16]. İşğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının bərpası üçün geniş, əhatəli tədbirlər planı nəzərdə tutulur. İlk növbədə həmin ərazidəki torpaqlar bərpa olunmalı, meliorasiya, irriqasiya sistemləri quraşdırılmalıdır ki, kənd təsərrüfatına yararlı hala gəlsin. Eyni zamanda bu torpaqların təyinatı üzrə uçotu aparılmalıdır, yəni torpaqların əkin, örüş, biçənək yeri olması

müəyyənləşdirilməlidir. Bundan sonra bu torpaqların orada yaşayacaq insanların istifadəsinə verilməsi üçün müvafiq mexanizm əsasında tədbirlər həyata keçiriləcək.

Torpaqların işğaldan azad olunmasından sonra 155 min hektarlıq əkin dövriyyəsi bizim ümumi kənd təsərrüfatı dövriyyəsinə cəlb oluna bilər [9].

**Cədvəl 3**

**İşğaldan azad edilmiş ərazilərin əkincilik sektorunun SWOT analizi [1,2,3,6,7,8,11,12,13,14]**

| **Güclü tərəfləri** | **Zəif tərəfləri** |
|---|---|
| – əkinçilik üçün əlverişli torpaq; | – kifayət qədər su təchizatının olmaması; |
| – kənd təsərrüfatının inkişafı üçün əlverişli coğrafi mövqe və bioiqlim şəraiti (üzümçülük, bağçılıq, tərəvəzçilik, taxıl bitkiləri yetişdirmək, heyvandarlıq); | – torpaq eroziyası və qoruyucu meşə zolaqlarının olmaması; |
| – aqro-klasterlərin inkişafı potensialı, ölkədə ərzaq təhlükəsizliyini təmin etmək potensialı; | – Seçim və toxum fondunun kifayət qədər olmaması; |
| – dənli bitkilərin inkişafı üçün unikal təbii və iqlim potensialı; | – riskli əkinçilik zonasının olması; |
| – kiçik profilli istehsalın və dar profilli təsərrüfatların inkişafı. | – genişmiqyaslı kənd təsərrüfatı istehsalının inkişaf etməməsi. |
| **İmkanlar** | **Təhdidlər** |
| – kənd təsərrüfatının inkişafı üçün coğrafi mövqe və yaxşı iqlim şəraiti; | – su təchizatında fasilələr (içməli su və sənaye istehlakı); |
| – çox sayda boş və işlənməmiş ərazinin olması; | – artan yeraltı sular və daşqınlar nəticəsində əkin sahələrinin və yaşayış məntəqələrinin su basması |
| – kənd təsərrüfatı məhsullarına və ekoloji təmiz məhsula tələbatın yüksək olması; | – təhlükəli hidrometeoroloji hadisələrin baş vermə ehtimalı; |
| – kənd təsərrüfatı iqtisadiyyatının modernləşdirilməsi və inkişafı üçün texnologiyaların mövcudluğu. | – ehtiyatlarda azalma və su mənbələrin keyfiyyətində azalma; |
| – nəqliyyatın əlçatanlığına təbii amillərin təsirinin yüksək olması; | – torpağın münbitliyinin azalması (deqradasiya); |

Yuxarıda sadalanan tədbirlərin görülməsi nəticəsində ölkənin aqrar-sənaye kompleksinin inkişafına keyfiyyətcə və məzmunca yeni bir təməl qoyuldu.

## Nəticə

Azərbaycan Respublikasının kənd təsərrüfatı bütövlükdə ölkə üçün strateji əhəmiyyətə malikdir. Azərbaycanda kənd təsərrüfatı istehsalında artım var, investorların marağı var, bitki istehsalı üçün investisiya sahələrində artım qeyd olunur. Azərbaycanda məhsul istehsalının inkişafı üçün hər cür potensialın olduğuna şübhə yoxdur. Dövlət səviyyəsində dəstək müsbət təsir göstərir və kənd təsərrüfatında vəziyyətin sabitləşməsini təmin edir.

**Nizami Kazımov, Zülfüqar Məhərrəmov**

**Azərbaycanda aqrar sektorun statistik icmalı və azad edilmiş rayonların kənd təsərrüfatı potensialı**

**Xülasə**

Məqalədə Azərbaycanda bitkiçilik məhsullarının vəziyyəti və inkişafı məsələlərinə baxılmış, kənd təsərrüfatı sektorunda mövcud problemlər və inkişaf perspektivləri araşdırılmışdır. Yazda kənd təsərrüfatı bitkilərinin məhsuldarlıq potensialı araşdırılmış, onlardan səmərəli istifadə edilərək yüksək məhsul əldə edilməsi yolları araşdırılmışdır. Məqalədə həmçinin işğaldan azad edilmiş

ərazilərdə kənd təsərrüfatının inkişafı məsələləri tədqiq edilmiş, əkin dövriyyəsinə cəlb ediləcək torpaqların səmərəli istifadəsi məsələsinə diqqət ayrılmışdır. Əkin dövriyyəsinə cəlb ediləcək torpaqlarda meliorasiya və irriqasiya sistemlərinin quraşdırılması, torpaqların təyinatı üzrə uçotunun aparılması məsələlərinin vacibliyi göstərilmişdir. Tədqiqatın nəticəsində göstəricilər təhlil edilərək ümumiləşdirmə aparılmışdır.

**Низами Казымов, Зулфугар Магеррамов**

**Статистический обзор аграрного сектора Азербайджана и сельскохозяйственного потенциала освобожденных регионов**

**Резюме**

В статье рассматриваются вопроса состояния и развития растениеводства в Азербайджане, исследуются существующие проблемы и перспективы развития в аграрном секторе. Особое внимание было уделено потенциалу урожайности сельскохозяйственных культур, способам получения высоких урожаев при эффективном использовании ресурсов. В статье также рассматриваются вопросы развития сельского хозяйства на освобожденных территориях, уделяется внимание рациональному использованию земель, задействованных в севообороте. Отмечена важность установки мелиоративных и ирригационных систем на землях, которые будут задействованы в севообороте, учета земель по целевому назначению. В результате исследования показатели были проанализированы и обобщены.

**Nizami Kazimov, Zulfugar Maharramov**

**Statistical diagnosis of the agrarian sector in Azerbaijan and the agricultural potential of the regions**

**Summary**

The article examines the situation and development of crop production in Azerbaijan, examines the existing problems and development prospects in the agricultural sector. Special attention was paid to the productivity potential of agricultural crops, ways to achieve high yields using them effectively. The article also examines the development of agriculture in the liberated areas, and pays attention to the efficient use of land to be involved in crop rotation. The importance of installing amelioration and irrigation systems on the lands to be involved in crop rotation, keeping records of lands by purpose was indicated. As a result of the study, the indicators were analyzed and summarized.

**Ədəbiyyat**

1. Azərbaycanın kənd təsərrüfatı. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məcmuəsi. Bakı-2020.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı // Azərbaycan qəzeti. 29 yanvar 2019-cu il, səh. 4-5.
3. Е.А.Матущевская, М.А.Полигенько. Экономическая диагностика аграрного сектора Росии ротенциал развития растеневодства в Крыму.
4. Ş.Göyçaylı, T.İsmayılov. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları Bakı-2009.
5. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/en-cox-idxal-olunan-mallar/
6. İsmət Abasov. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı-2013
7. Akif Əlizadə. Kənd təsərrüfatının davamlı inkişafının elmi əsasları. “Azərbaycan” qəzeti, 2015, 31 iyul, səh.6
8. A.Əliyev. Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. Bakı-2003.
9. https://qafqazinfo.az/news/detail/isgaldan-azad-edilmis-erazilerde-kend-teserrufati-nece-inkisaf-etdirilecek-304456

10. https://www.agro.gov.az/az/texnika-ve-innovasiyalar/suvarma-ve-meliorasiya/torpaqlardan-semereli-istifad
11. Г.В.Григорьева, О.В.Егорова. Методы диагностики проблем, рекомендуемые для применения при прогнозировании и планировании развития растениеводства //Научный журнал Российского НИИ проблем мелиорации. 2016. № 2. стр. 225–242. URL:http://www.rosniipm-sm.ru/dl_files/udb_files/udb13-rec421-field6.pdf
12. Д.Ю.Самыгин, Н.Г.Барышников. Диагностика развития сельского хозяйства региона:состояние, тенденции, прогноз: Монография. М.: ИНФРА-М, 2014. стр. 140.
13. Д.Ю.Самыгин. Оценка эффективности развития сельскохозяйственной деятельности:территориальный аспект // Д.Ю.Самыгин, Н.Г.Барышников // Аудит и финансовый анализ. 2014. № 4. стр. 294–301
14. Д.Ю.Самыгин, Ю.А.Кирдяшкина. Диагностика финансовой устойч ивости сельского хозяйства региона // Экономический анализ: теория и практика. 2014. № 35 (386). URL: https://cyberleninka.ru/article/n/diagnostika-finansovoy-ustoychivosti-selskogo-hozyaystvaregiona
15. https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050
16. https://xalqqazeti.com/mobile/az/news/65710
17. http://www.agroexpert.az/isgaldan-azad-olunan-rayonlar-kend-teserrufatinin-inkisafi-ucun-iki-ob

Məqalə redaksiyaya daxil olmuşdur: 27.05.2021
Təkrar işlənməyə göndərilmişdir: 01.06.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 339.5
DOI:10.338.70/2413-6557-2021-7-3-

# AZƏRBAYCANIN İXRAC SƏBƏTİNİN İQTİSADİ MÜRƏKKƏBLİK İNDEKSİ ƏSASINDA TƏHLİLİ

***Pərvin Verdiyeva***
*Bakı Avrasiya Universiteti*
*"İqtisadiyyat və riyaziyyat" kafedrasının müəllimi*
*AZ1073, Bakı şəhəri, Akademik Həsən Əliyev küçəsi, 135 A*
*e-poçt: v.pervin@yahoo.com*

**Açar sözlər:** iqtisadi inkişaf, iqtisadi şaxələnmə, ixrac səbəti, İqtisadi Mürəkkəblik İndeksi (İMİ), Çinin ixrac səbəti.
**Ключевые слова:** экономическое развитие, экономическая диверсификация, экспортная корзина, Индекс Экономической Сложности (ИЭС), экспортная корзина Китая.
**Keywords:** economic development, economic diversification, export basket, Economic Complexity Index (ECI), China's export basket.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, sürətli iqtisadi böyümə perspektivdə davamlı iqtisadi inkişafı təmin etmir, lakin iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə uğurlu struktur dəyişikliyi ölkələrin qlobal dəyər zəncirinin bir hissəsinə çevrilməsinə şərait yaradır. İqtisadiyyatın şaxələndirilməsinin iqtisadi mexanizmi belədir: ölkə iqtisadiyyatı uğurlu sənaye siyasəti vasitəsilə şaxələndikdən və bununla adambaşına düşən ÜDM-in müəyyən səviyyəsinə çatdıqdan sonra bazar qüvvələrinin təsiri artır və iqtisadiyyatın səmərəsiz sahələri isə azalır.

Əsrlər öncəsindən bu günədək iqtisadi şaxələnmə və onun iqtisadi inkişafda rolu bir çox iqtisadçıların tədqiqat obyekti olmuşdur. Belə ki, 19-cu əsrdə D.Rikardo [9, səh.134] "Müqayisəli üstünlük" nəzəriyyəsində üstün istehsal qabiliyyətləri ilə müxtəlif əmtəə istehsalı üzrə ixtisaslaşmanın bir ölkəyə daha çox istehsal imkanları verməsi fikrini irəli sürmüş, P.Samuelson və B.Balassa [5, səh.181-189] isə ixracın böyümə sürəti ilə iqtisadi artım tempi arasındakı müsbət əlaqəni təsbit etmişlər. İxtisaslaşma və iqtisadiyyatın şaxələndirilməsi ilə iqtisadi inkişaf arasında əlaqəyə dair bu uzun sürən müzakirələrə son empirik nəticələr yeni təkan verdi. Belə ki, J.İmbs və R.Wacziarg [7, səh.63-86] 2003-cü ildə dərc olunan "Şaxələnmə mərhələləri" ("Stages of diversification") adlı məqalələrində iqtisadiyyatın şaxələnməsi ilə adambaşına düşən gəlirlər arasında qeyri-xətti əlaqəni müəyyənləşdirərək göstərdilər ki, aşağı gəlirli ölkələrin iqtisadiyyatı, adətən, məhdud çeşiddə məhsul üzrə ixtisaslaşır və adambaşına düşən ÜDM artdıqca, iqtisadi fəaliyyətin sektor bölgüsü müxtəlifləşir. İki amil arasındakı qeyri-xətti əlaqə göstərir ki, diversifikasiyanın böyümə ilə əlaqəli olmasına baxmayaraq, bu şaxələndirici tendensiya adambaşına düşən ÜDM-in artması ilə azalır və ən yüksək gəlir səviyyəsində baş verən dönüş nöqtəsindən sonra yenidən ixtisaslaşmaya doğru yönəlir. Buna görə də ixtisaslaşma və adambaşına düşən ÜDM arasındakı qeyri-xətti əlaqə "U" əyrisi kimi təsvir olunur. Lakin bəzi müəlliflər yenidən ixtisaslaşmanın mövcudluğunu qəbul etmir və diversifikasiya prosesinin davam etdiyini iddia edirlər (De Benedictis, Gallegati, Tamberi).

Harvard Universitetinin professorları R.Hausmann, J.Hwang və D.Rodrik tərəfindən 2005-ci ildən başlayaraq iqtisadiyyatda struktur dəyişikliyinin önəmini vurğulayan yeni araşdırmalar aparıldı. Onlar məhsuldar biliklərin bir ölkənin istehsal etdiyi məhsulların tərkibində əks olunduğu ehtimalına əsaslanaraq beynəlxalq ticarət məlumatlarından istifadə edərək, müxtəlif və mürəkkəb məhsuldarlıq qabiliyyətlərini ölçə və müqayisə edə bilən İqtisadi Mürəkkəblik İndeksini (ECI-Economic Complexity Index) hesablamaqla yeni bir metodologiya təklif etdilər. İrəli sürülən əsas fikir ondan ibarətdir ki, bir ölkənin nə qədər çox istehsal və ixrac etməsi əhəmiyyətli ola bilər, lakin ixrac səbəti kəmiyyətcə çox, çeşidcə müxtəlif son məhsullardan ibarət olmadıqca nə ixtisaslaşma, nə də şaxələnmə iqtisadi inkişafa təsirli olmayacaqdır.

İqtisadi Mürəkkəblik İndeksi 1968-ci ildən sonrakı dövrün məlumatları əsasında hesablanmaqla 4 illik dövrü əhatə edir.

**Cədvəl 1**

**Dünya ölkələrinin İqtisadi Mürəkkəblik İndeksi**

| Ölkələr | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 1993-1997 | | 2003-2007 | | 2013-2017 | |
| | İMİ | Yerləşmə sırası | İMİ | Yerləşmə sırası | İMİ | Yerləşmə sırası |
| **Azərbaycan** | 0.440148 | 38 | -1.08907 | 106 | -0.654587 | 84 |
| **Yaponiya** | 2.53902 | 1 | 2.34652 | 1 | 2.30938 | 1 |
| **Almaniya** | 2.2561 | 2 | 2.0148 | 2 | 2.07537 | 3 |
| **Cənubi Koreya** | 1.1494 | 19 | 1.54709 | 10 | 1.77613 | 6 |
| **Sinqapur** | 0.9837 | 21 | 1.5565 | 9 | 1.86534 | 4 |
| **Çin** | 0.328308 | 41 | 0.632635 | 34 | 0.69130 | 33 |
| **Norveç** | 0.8298 | 24 | 0.660506 | 32 | 1.09466 | 22 |
| **Rusiya** | 0.469322 | 35 | 0.510294 | 41 | 0.85204 | 27 |
| **Türkiyə** | 0.099291 | 53 | 0.413431 | 43 | 0.175726 | 52 |
| **Səudiyyə Ərəbistanı** | -0.142044 | 64 | -0.153061 | 62 | 0.747155 | 29 |
| **Gürcüstan** | 0.20617 | 45 | -0.257126 | 71 | 0.0587891 | 63 |
| **Misir** | -0.535714 | 77 | -0.220008 | 68 | -0.319753 | 72 |
| **Venesuela** | -0.131131 | 63 | -0.342388 | 75 | -0.655229 | 85 |
| **Türkmənistan** | -0.613978 | 79 | -0.917194 | 98 | -1.19506 | 112 |
| **Vyetnam** | -0.841634 | 96 | -0.378907 | 77 | -0.623084 | 83 |
| **Hindistan** | 0.101682 | 52 | 0.168601 | 49 | 0.359807 | 45 |
| **BƏƏ** | -0.242739 | 68 | -0.021976 | 57 | 0.128674 | 54 |
| **Qətər** | -0.709645 | 88 | -0.052826 | 59 | 0.396207 | 42 |

**Qeyd:** Cədvəl https://oec.world/en/rankings/country/eci/?year_range=2013-2017 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Ən son dərc olunan 4 illik dövrdə 2013-2017-ci illər əhatə olunmuşdur.

Cədvəl 1-in məlumatları göstərir ki, Yaponiya, Almaniya, Norveç kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə İqtisadi Mürəkkəblik İndeksi daha yüksəkdir. Artıq uzun illərdir ki, Yaponiyanın İMİ reytinqindəki mövqeyi dəyişməz olaraq qalır. Milli mənafeni ayrı-ayrı fərdlərin mənafeyindən üstün tutan Yapon modeli bazar qanunları ilə yanaşı, dövlətin fəal iqtisadi tənzimləmə alətlərindən istifadəyə əsaslanan iqtisadi mexanizmə malikdir. Dövlətin iqtisadi siyasəti daha yüksək əlavə dəyər yaradan elm tutumlu sahələrin inkişafına istiqamətlənmişdir. Yaponiyada müharibədən sonrakı illərdən başlayaraq insan amili ön xəttə çəkilərək milli prioritetlərin seçilməsi ilə iqtisadiyyatın sürətli diversifikasiyasına başlanılmışdır. 1960-cı ildən bəri yüksək texnologiyalı innovativ son məhsullar istehsalına əsaslanan emal sənayesi və xidmət sektoru Yaponiyanın iqtisadi artımının əsas mühərriki olmuşdur. İqtisadiyyatın müxtəlif sektorlar üzrə şaxələnməsi, ixracın da şaxələnməsinə təkan vermişdir. Bu səbəbdən Yaponiya uzun illərdir ki, İqtisadi Mürəkkəblik İndeksi reytinqində ən mürəkkəb ölkə kimi yer alır. 2019-cu ildə Yaponiya ötən ilə nisbətən 7% çox, yəni 738.2 mlrd. ABŞ dolları dəyərində məhsul ixrac etmişdir. Ölkə üzrə ümumi ixrac məhsulları ÜDM-in 13.2%-ni təşkil etmişdir. Yaponiyanın mürəkkəb ixrac səbətində ən yüksək paya malik məhsullar aşağıdakılardan ibarət olmuşdur:

1. Nəqliyyat vasitələri: 154.1 mlrd. ABŞ dolları (ümumi ixracın 20.9%)
2. Kompüterlər də daxil olmaqla maşınlar: 148 mlrd. ABŞ dolları (20.1%)

3. Elektrik maşın və avadanlıqları: 109.4 mlrd. ABŞ dolları (14.8%)
4. Optik, texniki, tibbi aparat: 41.3 mlrd. ABŞ dolları (5.6%)
5. Dəmir, polad: 29.9 mlrd. ABŞ dolları (4.1%)
6. Plastik, plastik məmulatlar: 26.1 mlrd. ABŞ dolları (3.5%)
7. Üzvi kimyəvi maddələr: 18.9 mlrd. ABŞ dolları (2.6%)
8. Gəmi, gəmilər: 12.6 mlrd. ABŞ dolları (1.7%)
9. Daşlar, qiymətli metallar: 12 mlrd. ABŞ dolları (1.6%)

Harvard Universitetinin Beynəlxalq İnkişaf Mərkəzi-Böyümə Laboratoriyasının proqnozlarına görə Vyetnam və Çin kimi istehsalını daha mürəkkəb istehsal seqmentlərinə keçirən ölkələr, önümüzdəki on il ərzində ən sürətli iqtisadi artıma malik olacaqlar. Həmçinin proqnozda Uqanda, Misir, Myanma kimi ölkələr də 2027-ci ilə qədər iqtisadiyyatı ən sürətli böyüyən ölkələr sırasındadır. Çin və Hindistan son illərdə ən sürətli böyüyən ölkələr olaraq, qlobal artımın yarısına sahib olmalarına baxmayaraq fərqli yollardadırlar. Harvard Universitetinin Böyümə Laboratoriyası tədqiqatçılarının proqnozlarına əsasən Hindistanda önümüzdəki on il ərzində artım tempi aşağı düşəcək, əksinə, Çində isə ortalama 6,1% artım əldə olunacaq. Bunun əsas səbəbi Hindistan iqtisadiyyatında son 10 ildə böyüyən ticarət kəsri və fərqli istehsal sahələrinə şaxələnmənin olmamasıdır. Çin isə əvvəlki illərə nisbətən sadə əmtəə istehsalında daha mürəkkəb istehsal seqmentlərinə keçərək sahə və ixrac diversifikasiyası həyata keçirməyə sürətlə davam edir.

İqtisadi Mürəkkəblik İndeksi sıralamasında 11 pillə irəliləyərək 19-cu ən mürəkkəb ölkəyə çevrilən Çin təcrübəsi göstərir ki, əsas olan nə qədər ixrac etdiyiniz deyil, nə qədər müxtəlif və mürəkkəb ixrac etməyimizdir.




Şəkil 1. 2019-cu ildə Çinin ixrac səbətinin strukturu (ümumi ixraca nisbətən %-lə) [8]
**(Şəkil http://atlas.cid.harvard.edu məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir)**

Şəkil 1-in məlumatlarından görünür ki, Çin iqtisadiyyatında ötən illər ərzində əsaslı struktur dəyişiklikləri baş vermişdir. İlk illərdə ixrac səbətində tekstil və maşınqayırma sənayesi məhsulları üstünlük təşkil edirdisə, son 5 ildə əsas şaxələnmə innovasiya əsaslı emal sənayesinin inkişafı sayəsində Elektronika məhsulları üzrə baş vermişdir. 2002-ci ildən bu yana Çinin ixrac səbətinə 54 yeni məhsul daxil olmuş və bu məhsullar 2017-ci ildən adambaşına 132 dollar gəlir gətirməyə başlamışdır. Çin iqtisadiyyatının son illərdə müşahidə edilən uğurlu iqtisadi mexanizmi qarışıq bir iqtisadiyyata əsaslanır. Çin hökumətinin xərcləri onun böyüməsinə əhəmiyyətli təsir göstərir.

2008-2009-cu il maliyyə böhranının mənfi təsirini aradan qaldırmaq məqsədilə dövlət büdcəsindən 600 mlrd. ABŞ dolları vəsait iqtisadiyyatın əsas sektorlarının, xüsusən də elektronika, avtomobil, gəmiqayırma, poladtökmə, informasiya texnologiyaları, neft-kimya, yüngül sənaye, logistika və əlvan metallurgiya kimi sahələrin inkişafını sürətləndirmək, iqtisadiyyatını şaxələndirmək və dünya bazarına rəqabətqabliyyətli innovativ məhsullarla çıxa bilmək məqsədilə istifadə olundu. Çin iqtisadiyyatının illər ərzində əldə etdiyi bu böyümə yüz milyonlarla insanı dərin yoxsulluqdan qurtardı, səhiyyə, təhsil və digər sosial standartların yaxşılaşdırılmasına müsbət təsir göstərdi. Heç şübhəsiz, bu sürətli böyümənin əsas aqreqatları xarici ticarət və cəlb edilən xarici kapital olmuşdur. Lakin Çin hökuməti xarici şirkətləri məmnuniyyətlə qəbul etsə də, güclü yerli oyunçuların meydana gəlməsini təmin etmək və daxili imkanları artırmaq məqsədi ilə bir sıra alətlərdən istifadə etdi. Xarici investorlardan, vergi güzəştləri, ucuz işçi qüvvəsi, əlverişli infrastruktur və kapitalın qaytarılmasına dövlət zəmanəti qarşılığında yerli firmalarla (xüsusən də, elektronika sahəsində) istehsal təcrübəsi və texnologiyanı bölüşən müştərək fəaliyyəti tələb etdi. Beləliklə də, beynəlxalq şirkətlərin yerli şirkətlərlə müştərək fəaliyyəti həqiqi qlobal uğur hekayəsini yaratdı. Bu təcrübə bir daha onu sübut edir ki, ölkənin iqtisadi artımı və perspektivdə iqtisadi inkişafı üçün əsas olan ixracın həcmi və ya onun ÜDM-ə nisbəti deyil, bu ixracın "keyfiyyəti"dir.

Azərbaycan İMİ reytinqində 133 ölkə arasında ən mürəkkəb 84-cü ölkə olaraq qərarlaşıb (cədvəl 1). Bu ölkəmizin ixrac səbətinin məhdud müxtəlifliyini əks etdirir.




Şəkil 2. 1996-2017-ci illər ərzində Azərbaycanın ixrac səbətinin dəyişməsi [8]

**Qeyd:** Şəkil http://atlas.cid.harvard.edu məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 2-dən göründüyü kimi, Azərbaycanın ixrac səbətində mədənçıxarma sənayesi məhsulları üstünlük təşkil edir. Bu mənzərə yüksək iqtisadi artım tempinin bir istiqamət üzrə, yəni neft-qaz sektoru üzrə əldə olunmasını əks etdirir. Eyni zamanda son 10 ildə ixrac səbətimizdə xidmət sektorunun, xüsusən də İKT, nəqliyyat və turizm sektorları üzrə artımını müşahidə edirik. Ölkədə informasiya və bilik iqtisadiyyatının yaradılması, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə səmərəliliyin artırılması, rəqabətqabliyyətli və keyfiyyətli məhsul istehsalı üçün xidmət sektorunun, xüsusən İKT sahəsinin inkişafı istiqamətində sistemli siyasət aparılmışdır [1, səh.4]. Belə ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 2003-cü il 17 fevral tarixində "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın, 2005-ci il 21 oktyabr tarixində "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı"nın qəbulu, 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ölkəmizdə İKT sahəsinin inkişafına

təkan vermişdir. Azərbaycanda davamlı və dayanıqlı inkişafı prioritet istiqamətlərindən olan İKT sahəsinin inkişafı və ixracyönümlü məhsulların istehsalının artırılması məqsədilə iqtisadi fəaliyyətin e-hökumət, e-ticarət kimi yeni formalar yaradılmış, Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan “Azərkosmos” təsis edilmişdir. “Azərspace-1”, “Azərsky”, “Azərspace-2” kimi 3 peykə sahib olmaqla öz informasiya təhlükəsizliyini təmin etmək və dünya bazarına xidmət ixrac edən bir ölkəyə çevrilmək əsas strateji hədəflərimizdəndir. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı” məlumatlarına əsasən “Azərkosmos” ASC 2019-cu ildə, ötən ilin eyni dövrünə nisbətən 47% daha çox gəlir əldə edib. Xidmət ixracının əsas tərəfdaş ölkələri ABŞ, İngiltərə, Fransa, Malayziya, Almaniya və BƏƏ olmuş, əldə olunan gəlirin 90%-i isə peyk xidmətlərinin payına düşmüşdür.




Şəkil 3. 2019-cu ildə Azərbaycanda ixrac səbətinin strukturu (ümumi ixraca nisbətən %-lə) [10]

**Qeyd:** Şəkil Azərbaycanın xarici ticarətinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Şəkil 3-dən görünür ki, ixrac səbətimizin əmtəə strukturunda əsasən xammal və yarımfabrikatlar üstünlük təşkil edir. 2019-cu ildə ümumi ixracın əmtəə strukturunda 20 mal qrupu üzrə 97 adda məhsul üstünlük təşkil etməklə, ümumi ixracın 96%-nə bərabər olmuşdur. Lakin bunun 92.8%-i bir mal qrupu üzrə, yəni “Mineral məhsullar” üzrə formalaşmışdır. Alt qruplar üzrə təhlil apardıqda isə məlum olur ki, “Mineral məhsullar” mal qrupunun, “Mineral yanacaq, neft və neft emalı məhsulları” alt qrupu ümumi ixrac səbətinin 91.8%-ni təşkil etmişdir [2, səh.57-68]. İxrac səbətimizin məhdud müxtəlifliyi Azərbaycanda iqtisadiyyatın şaxələnməsi ilə yanaşı, ixracın da şaxələndirilməsi son dərəcə vacibliyini göstərir.

Təhlil məlumatları onu göstərir ki, İMİ reytinqində ilk sıralarda qərarlaşan İEÖ-nün ixrac səbətində inkişaf etmiş emal sənayesinin innovativ, keyfiyyətli, rəqabətqabliyyətli son məhsulları üstünlük təşkil edir. Azərbaycan da daxil olmaqla əksər neft ixrac edən ölkələr isə daha aşağı İM indeksinə malikdir (cədvəl 1). Bu vəziyyət neft ölkələrində ixrac səbətinin neft sektoru hesabına bir istiqamətli inkişaf etməsilə məhdud müxtəlifliyə malik olmasını əks etdirir. Görünən başqa bir mənzərə isə BƏƏ və Qətər kimi yüksək gəlirli ölkələrin aşağı İM indeksinə malik olmalarıdır. Bu onu göstərir ki, qeyd edilən ölkələrdə uzun illər ərzində karbohidrogen resurlarının yüksək ixrac qiyməti ölkəyə irihəcmli neft gəlirlərinin daxil olmasına səbəb olmuşdur. Lakin bu gəlirlər ölkənin neft gəlirlərindən asılılığı aradan qaldırmaq məqsədilə qeyri-neft sektorunun inkişafına və ixracın şaxələndirilməsinə yönləndirilməmiş, tədiyə balansında əlverişli mövqelərin yaranmasını təmin etməklə ixrac səbətinin şaxələndirilməsinə marağı azaltmışdır.

## Nəticə

Ölkəmizdə davamlı iqtisadi artımın təmin edilməsi və qeyri-neft ixracının genişləndirilməsi üçün orta və yüksək mürəkkəblik dərəcəsinə malik rəqabətqabliyyətli, innovativ son məhsul istehsal edən sənaye sahəsinin, xüsusən də emal sənayesinin inkişafı vacibdir. Milli iqtisadi inkişafın sürətləndirilməsinə təkrar istehsalın genişlənmiş miqyasda intensiv artımının təsir imkanlarının çoxaldılması üçün strateji sənayeləşdirmə yoluna qısa zamanda düşmək çox vacibdir. Bu yolda əsas kapitalın investisiyalaşması prosesi ön sıraya çıxarılmalı, çoxsaylı mülkiyyət subyektlərinə yönəldilən investisiyaların və kapitalların məhsuldar səyləri ilə maliyyə resurslarının qarşılaşması arasında yaranan qaydalara əməl edilməlidir. Yalnız belə halda milli iqtisadi artım milli bazar təsərrüfatının inkişafını ifadə edə bilər, bu da öz növbəsində iqtisadiyyatın və ixracın diversifikasiyası nəticəsində ümumi milli məhsulun real artımını və milli iqtisadi inkişafın sürətlənməsini təmin edə bilər. Belə halda təkrar istehsalın genişlənmiş miqyasda intensiv artımı ayrı-ayrılıqda deyil, yalnız kompleks investisiyalaşma tipində təminatı problemi yaranır. Bu isə investisiyaların köməyi ilə qarşılıqlı əlaqələnən istehsalların artan iqtisadi səmərəliliyi növündə iqtisadi artımın əlavə resurslarının milli iqtisadiyyatı əldə etməsinə imkan yaradır.

**Pərvin Verdiyeva**

### Azərbaycanın ixrac səbətinin İqtisadi Mürəkkəblik İndeksi (İMİ) əsasında təhlili

**Xülasə**

Məqalədə iqtisadi diversifikasiyanın rolu və onun iqtisadi inkişafa təsiri nəzəri baxımdan təhlil edilmiş, daha sonra onun ölkə iqtisadiyyatına və qeyri-neft sektorunun inkişafına təsri istiqamətləri göstərilmişdir. Məqalədə diqqət mərkəzində saxlanılan əsas məsələ isə sahəvi diversifikasiyanın ixrac diversifikasiyası ilə müşayiət olunmasıdır. Belə ki, Azərbaycanın ixrac səbətinin müxtəlifliyi İqtisadi Mürəkkəblik İndeksi əsasında təhlil edilmiş, dünya ölkələri ilə müqayisə edilərək bu müxtəlifliyin iqtisadi inkişafda rolu əsaslandırılmışdır.

**Парвин Вердиева**

### Анализ экспортной корзины Азербайджана на основе Индекса Экономической Сложности (ИЭС)

**Резюме**

В статье сначала анализируется роль экономической диверсификации и ее влияние на экономическое развитие с теоретической точки зрения, а затем показаны направления ее влияние на экономику страны и развитие ненефтяного сектора. Основным предметом изучения были вопросы секторальной диверсификации, которая сопровождается диверсификацией экспорта. Таким образом, разнообразие экспортной корзины Азербайджана было проанализировано на основе Индекса Экономической Сложности по сравнению с другими странами, и была обоснована роль этого разнообразия в экономическом развитии.

**Parvin Verdiyeva**

### Analysis of Azerbaijan's export basket based on the Economic Complexity Index (ECI)

**Summary**

The article first analyzes the role of economic diversification and its impact on economic development from a theoretical point of view and then shows its impact on the country's economy and the development of the non-oil sector. The main issue in the article is that sectoral diversification is accompanied by export diversification. Thus, the diversity of Azerbaijan's export basket was analyzed on the basis of Economic Complexity Index, compared with other countries, the role of this diversity in economic development was substantiated.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 2016-cı il 6 dekabr
2. Azərbaycanın Milli hesabları // Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Statistik məcmuə. – Bakı: Rəsmi nəşr, – 2020, – 139 s
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. http://www.economy.gov.az
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. http://www.stat.gov.az
5. Balassa, B. Exports and economic growth. Futher evidence // – USA: Journal of Development Economnics, – 1978, – p. 181-189
6. İ.A.Kərimli. İqtisad elmi: aktual problemlər və real yanaşmalar. Bakı, 2013, 504s.
7. Imbs, J. Stages of diversification // – USA: American Economic Review. Vol.93, No.1, – 2003, – p. 63-86.
8. The Atlas of Economic Complexity - Harvard University. http://www.atlas.cid.harvard.edu
9. Риккардо, Д. Начало политической экономии и налогового обложения / Д. Риккардо. Москва: Госполитиздат. Сос. Т.1 – 1955, – 339 с.
10. Azərbaycanın xarici ticarəti. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2020



Məqalə redaksiyaya daxil olmuşdur: 30.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 01.07.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 339.1
DOI: 10.338.70/2413-6557-2021-7-3-

# AZƏRBAYCANDA PANDEMİYA DÖVRÜNDƏ ELEKTRON TİCARƏTƏ ARTAN TƏLƏB

***Şamxal Məmmədov***
*Odlar Yurdu Universiteti*
*"İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının doktorantı*
*AZ 1072, Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 13*
*e-poçt: samxal-memmedov-92@mail.ru*

**Açar sözlər:** elektron ticarət, elektron biznes, onlayn mağaza, ödəniş kartları, informasiya texnologiyaları, pandemiya.
**Ключевые слова:** электронная коммерция, электронный бизнес, онлайн магазин, платежные карты, информационные технологии, пандемия.
**Keywords:** e-commerce, elektronic business, online store, payment cards, information technologies, pandemic.

Dünyada koronavirus pandemiyasının əhatə dairəsinin genişlənməsi dünya ölkələrinin iqtisadiyyatına ciddi zərər vurmuş və bəzi müəssisələr bu səbəbdən fəaliyyətini dayandırmışdır. 2020-ci ilin əvvəlindən etibarən pandemiyaya görə dünyanın əksər ölkələrində sərt karantin rejimi tətbiq olunmuş, iri ticarət mərkəzlərinin fəaliyyətinə müvəqqəti olaraq məhdudiyyət qoyulmuşdur. Həmin müəssisələr bu zaman elektron ticarətə üstünlük verməyə, onu daha da inkişaf etdirməyə başladılar.

Elektron ticarət informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi üzrə həyata keçirilən fəaliyyətdir [2]. Elektron ticarətin müştərilər üçün iqtisadi faydası aşağıdakılardır:

- Müştərilərə istənilən məkandan 24 saat müddətində alış əməliyyatlarını həyata keçirməyə imkan verir;
- Burada daha çox məhsul və satıcı təqdim edilir;
- Daha ucuz məhsul və xidmətlər əldə etmək imkanı yaranır;
- Müştərilər qısa müddət ərzində məhsul haqqında ətraflı məlumat əldə edə bilirlər;
- Elektron ticarət vasitəsilə virtual auksionlarda iştirak etmək mümkün olur;
- Elektron ticarət biznesdə rəqabəti gücləndirir [9].

İnternet vasitəsilə ticarət əməliyyatlarını həm məhsulun istehsalçıları, həm də distributorlar həyata keçirə bilərlər. Şəbəkə vasitəsilə həyata keçirilən kommersiya fəaliyyətinin məqsədi aşağıdakılardır:

- Məhsulun və ya firmanın imicinin yaradılması;
- Bütün mümkün imkanlarından istifadə etməklə məhsul haqqında tam məlumatın verilməsi (Məs: animasiya, videotəsvir, qrafika və s. imkanlarından istifadə etməklə);
- Bazarda olan vəziyyətə operativ qaydada münasibət bildirilməsi;
- Məhsulun internet vasitəsilə satışı və s. [7].

Azərbaycanda son illərdə elektron ticarətin inkişafı üçün xeyli işlər görülsə də, ümumi ticarətdə onun payı hələ də az olmaqda davam edir. Burada əsas məsələlərdən biri internetin əlçatanlığıdır. Azərbaycanda görülən tədbirlər nəticəsində son illərdə internet istifadəçilərinin sayı xeyli artmışdır. Belə ki, Azərbaycan əhalisinin 81,1%-i internet istifadəçisidir [3].

Pandemiya dövründə qlobal elektron ticarətin həcmi artmışdır. Belə ki, elektron ticarətin ümumi ticarətdəki payı 2019-cu ildə 16%, 2020-ci ildə 19% olmuşdur. Qlobal onlayn satışlarda 1-ci yeri "Alibaba" şirkəti, 2-ci yeri isə "Amazon" şirkəti tutmuşdur [6].

Azərbaycanda ödəniş kartlarının sayı da əvvəlki illərə nisbətən xeyli artmışdır. Belə ki, Azərbaycanda ödəniş kartlarının sayı 2021-ci ilin mart ayının məlumatına əsasən 9769000 ədəd olmuşdur.




Şəkil 1. 2020-ci il yanvar-dekabr və cari ilin I rübündə Azərbaycanda ödəniş kartlarının sayı, min ədəd [4]

Şəkil 1-də 2020-ci il yanvar-dekabr aylarında və cari ilin I rübündə Azərbaycanda ödəniş kartlarının sayı göstərilmişdir. Ödəniş kartlarının sayı 2020-ci ilin yanvar ayında 7713000, 2021-ci ilin yanvar ayında isə 9413000 ədəd olmuşdur. Qeyd edilən vaxt ərzində, yəni 2020-ci ilin yanvar ayından 2021-ci ilin yanvar ayına qədər bu artım 1700000 ədəd olmuşdur.

Alıcı, mağaza və bank arasında hesablaşmalar ödəmə sistemi vasitəsilə həyata keçirilir. Nağdsız hesablaşmalar sistemi elektron ticarətin inkişafını müəyyən edən amillərdən biridir. Bütün elektron ödəmə sistemlərini 2 sinfə bölmək olar:

- Kredit ödəmə sistemləri;
- Debet ödəmə sistemləri.

Kredit ödəmə sistemləri dedikdə kredit kartından istifadə üzərində qurulmuş sistem nəzərdə tutulur. Debet ödəmə sistemləri dedikdə isə çeklərin və nağd ödəmələrin elektron ekvivalentindən istifadəyə əsaslanan sistemlər nəzərdə tutulur [12].




Şəkil 2. 2020-ci il yanvar-dekabr və cari ilin I rübündə Azərbaycanda debet və kredit kartları ilə aparılan əməliyyatların həcmi, milyon manat [4]

Şəkil 2-də 2020-ci il yanvar-dekabr və cari ilin I rübündə Azərbaycanda debet və kredit kartları ilə aparılan əməliyyatların həcmi göstərilmişdir. Bu dövrdə minimum göstərici 2020-ci ilin yanvar ayında, maksimum göstərici isə 2021-ci ilin mart ayında qeydə alınmışdır. Həmin göstəricilər müvafiq olaraq 1 mlrd. 887 mln. və 3 mlrd. 126 mln. manata bərabər olmuşdur.

Elektron ticarətin inkişafında, bank kartları vasitəsilə əməliyyatların həcminin artmasında turizmin xüsusi əhəmiyyəti vardır. 2020-ci ildə koronavirus pandemiyası turizm sahəsinin inkişafına mənfi təsir göstərmişdir. Turizm sahəsindəki bu tənəzzül 2021-ci ilin əvvəlində də davam etmişdir. Belə ki, 2021-ci ilin yanvar-mart aylarında Azərbaycana dünyanın 128 ölkəsindən 117,2 min əcnəbi və vətəndaşlığı olmayan şəxslər gəlmişdir. Bu 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 dəfə azdır [1].




Şəkil 3. 2021-ci ilin yanvar-mart aylarında Azərbaycana gələn xarici vətəndaşlar (ölkələr üzrə, %-lə) [1]

Şəkil 3-də 2021-ci ilin yanvar-mart aylarında Azərbaycana gələn xarici vətəndaşlar haqqında ölkələr üzrə məlumat verilmişdir. Azərbaycana gələn xarici vətəndaşların 93,4%-ni kişilər, 6,6%-ni qadınlar təşkil etmişdir. Bu müddət ərzində ən çox əcnəbi gələn ölkələrin ilk beşliyində Rusiya, Türkiyə, İran, Gürcüstan və Ukrayna yer tutmuşdur. 2020-ci ilin yanvar-dekabr aylarında əcnəbilərin bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi 430,2 milyon manat olmuşdur. 2021-ci ilin yanvar-mart aylarında əcnəbilərin bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi isə 83,9 milyon manat təşkil etmişdir. Təkcə mart ayında bu göstərici 33,4 milyon manata bərabər olmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2020-ci ilin yanvar ayında 85,2 milyon manat, fevral ayında 72,9 milyon manat, mart ayında isə 53,9 milyon manat həcmində əcnəbilər bank kartları vasitəsilə əməliyyat aparmışlar.




Şəkil 4. 2020-ci il yanvar-dekabr və cari ilin yanvar-mart aylarında əcnəbilərin bank kartları ilə apardıqları əməliyyatların həcmi, milyon manatla [1]

Şəkil 4-də 2020-ci il yanvar-dekabr aylarında və cari ilin I rübündə əcnəbilərin bank kartları ilə apardıqları əməliyyatların həcmi göstərilmiş, bu dövrdə aparılan əməliyyatların həcmində də geriləmə müşahidə edilmişdir. 2020-ci ilin yanvar ayında bu əməliyyatların həcmi 85,2 mln. manat olsa da, 2020-ci ilin sonunda bu göstərici kifayət azalmış, 27,9 mln. manata bərabər olmuşdur. Yəni pandemiya dövründə bu geriləməni şəkil 4-də görmək mümkündür.

Elektron ticarətin infrastrukturu, ilk növbədə telekommunikasiya vasitələrinin köməyi ilə bir neçə kompüter və digər elektron qurğularını birləşdirən kompüter şəbəkəsindən ibarətdir. Elektron ticarətin belə infrastrukturu istifadəçilərə müxtəlif yerlərdə olan informasiyadan istifadə etmək və kompüterlərdən uzaqlaşmamaqla bir-biri ilə ünsiyyət yaratmaq imkanlarını təqdim edir. Bütün kompüter istifadəçiləri, eyni zamanda şəbəkə istifadəçiləri olmasalar da, onların əksəriyyəti "İnternet" adlanan qlobal şəbəkə mühitində birləşirlər [9].

Elektron ticarəti aşağıdakı mövqelərdən nəzərdən keçirmək mümkündür:

- Əlaqələrin həyata keçirilməsi;
- Biznes prosesi;
- Xidmətlər;
- Zaman;
- Məkan.




Şəkil 5. Elektron ticarətin iştirakçısı olan tərəflərə görə elektron ticarət əməliyyatlarının növləri [10]

Şəkil 5-də elektron kommersiyanın növləri göstərilmişdir. B2B – şirkətlər arasında olan elektron ticarəti müəyyən edir. B2C – istehlakçılarla şirkətlər arasında mövcud olan elektron ticarəti müəyyən edir. B2G – dövlət sektoru ilə şirkətlər arasında elektron ticarəti müəyyən edir. C2C – fərdi sahibkarlarla istehlakçılar arasında ticarəti bildirir [11].

Cədvəl 1-də 2019-2020-ci illər üzrə B2C elektron kommersiya indeksi göstərilmişdir. Azərbaycan bu indeks üzrə 2020-ci ildə 152 ölkə arasında 65-ci yeri tutmuşdur. İsveçrə 2020-ci ildə bu indeks üzrə dünyada birinci yeri tutmuşdur. İlk beşlikdə (müvafiq olaraq 2-5 yer) olan ölkələrdən Hollandiya, Danimarka, Sinqapur və Böyük Britaniyanın adını qeyd etmək olar.

**Cədvəl 1**

**2019-2020-ci illər üzrə B2C elektron kommersiya indeksi, (ölkələrin mövqeyi) [5]**

| № | İllər / Ölkələr | 2019 | 2020 |
|---|---|---|---|
| 1 | İsveçrə | 2 | 1 |
| 2 | Hollandiya | 1 | 2 |
| 3 | Danimarka | 6 | 3 |
| 4 | Sinqapur | 3 | 4 |
| 5 | Böyük Britaniya | 4 | 5 |
| 6 | Almaniya | 9 | 6 |
| 7 | ABŞ | 13 | 12 |
| 8 | Yaponiya | 21 | 20 |
| 9 | İtaliya | 36 | 29 |
| 10 | Rusiya | 40 | 41 |
| 11 | İran | 45 | 44 |
| 12 | Gürcüstan | 51 | 47 |
| 13 | Türkiyə | 54 | 57 |
| 14 | Azərbaycan | 63 | 65 |
| 15 | Pakistan | 114 | 116 |

Azərbaycanda pandemiya dövründə həmçinin elektron ticarət əməliyyatlarının sayı artmışdır. 2021-ci ilin yanvar ayında qeydə alınan göstərici 2020-ci ilin yanvar ayında qeydə alınan göstəricidən 1,4 dəfə çoxdur. Bu artımları biz, həmçinin fevral və mart aylarında da görürük.




Şəkil 6. 2020-ci ilin yanvar-dekabr və cari ilin yanvar-mart aylarında Azərbaycanda elektron ticarət əməliyyatlarının sayı, min əməliyyat [4]

Şəkil 6-da 2020-ci ilin yanvar-dekabr və cari ilin yanvar-mart aylarında Azərbaycanda elektron ticarət əməliyyatlarının sayı göstərilmişdir. Qeyd edilən dövrdə maksimum göstərici 2021-ci ilin mart ayında müşahidə olunmuşdur (7769000 əməliyyat).




Şəkil 7. 2020-ci ilin yanvar-dekabr və cari ilin yanvar-mart aylarında Azərbaycanda elektron ticarətin həcmi, milyon manat [4]

Şəkil 7-də 2020-ci ilin yanvar-dekabr və cari ilin yanvar-mart aylarında Azərbaycanda elektron ticarətin həcmi verilmişdir. Şəkil 7-ə diqqət yetirdikdə görə bilərik ki, pandemiya dövründə maksimum göstərici cari ilin mart ayında müşahidə olunmuşdur. Pandemiya dövründə elektron ticarətin həcmi artaraq 427 milyon manat təşkil etmişdir.

Azərbaycanda pandemiya dövründə ticarət obyektlərinin fəaliyyətinə müvəqqəti olaraq məhdudiyyət qoyulmuşdur. Bu isə onlayn alış edənlərin sayının artmasına səbəb olmuşdur. Demək lazımdır ki, ölkəmizdə elektron mağazaların sayı kifayət qədər deyildir və onların yaradılması probleminin həlli kifayət qədər sadədir. Aşağıdakı məsələlərin həllini təmin edən informasiya serveri yaratmaq mümkündür:

- Malların aktual vəziyyəti kataloqunun dərc edilməsi;
- Malın satın alınması üçün müştəri sifarişinin formalaşdırılması;
- Anbardan və ya kənar malgöndərənlərdən mal alınmasına dair sifarişin formalaşdırılması;
- Malın müştəriyə çatdırılmasının müşayiət edilməsi;
- Malın haqqının alınması.

Elektron mağazaların dizaynı xüsusi diqqət tələb edir. Materialın təqdimat forması, naviqasiya və mal seçimi üzrə baza əməliyyatlarının sadəliyi və s. alıcıya mühüm təsir göstərir [12].

İnternet mağaza bölmələri və malgöndərənlər arasında informasiya mübadiləsi mühiti kimi istifadə edilir. İnternet-mağaza internetdə mövcud iş formalarından, öz biznesinin internetdə təqdim olunması formasından biridir. İnternet mağazanın sahibi həm istehsalçı, həm də distributor ola bilər. Veb-vitrində müxtəlif çeşiddə məhsullar təqdim oluna bilər. İnternet mağazanın həyata keçirdiyi funksiyalar aşağıdakılardır:

- Müştəriyə məhsul haqqında informasiyanın verilməsi;
- Müştəridən sifarişin qəbul edilməsi;
- Ödənişin qəbulu;
- Məhsulun çatdırılması.

İnternet-mağazanın uğurlu işinin əsasını planauyğun qaydada həyata keçirilən marketinq tədbirləri və reklam təşkil edir. Elektron kommersiya müəssisəsinin texnoloji prosesinə aşağıdakı xüsusiyyətlər aiddir.

- Məlumatlandırma;
- Regionluq;
- Pərakəndə halqa;
- Sifarişin rahatlığı;
- Çeşid;
- Ödənişin rahatlığı;
- Sifarişin alınması;
- Müştərilərlə əlaqə.

Elektron ticarət son zamanlar yeni imkanlar yaradır. Lakin ənənəvi ticarətlə məşğul olanların sayı kifayət qədər çoxdur. Elektron texnologiyaların biznes-proseslərə təsiri nəticəsində kommersiyanın 4 kateqoriyasını ayırmaq mümkündür:

1. Xalis ənənəvi kommersiya;
2. I səviyyəli elektron kommersiya;
3. Kombinə olunmuş elektron kommersiya;
4. Xalis elektron kommersiya.

Elektron ticarət əməliyyatlarının sayının artması nağdsız ödənişlərin həcminin artmasına müsbət təsir göstərir. Azərbaycanda nağdsız ödənişlərin həcmi 2021-ci ilin mart ayında 793 mln. manat təşkil etmişdir. Müqayisə üçün qeyd lazımdır ki, 2020-ci ilin mart ayında bu göstərici 507 mln. manat olmuşdur. Şəkil 8-də Azərbaycanda pandemiya dövründə nağdsız ödənişlərin həcmi göstərilmişdir.




Şəkil 8. 2020-ci ilin yanvar-dekabr və cari ilin yanvar-mart aylarında Azərbaycanda nağdsız ödənişlərin həcmi, milyon manat [13]




Şəkil 9. 2021-ci ilin yanvar-mart aylarında Azərbaycanda ATM, POS-terminal və elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi, milyon manat [13]

Şəkil 9-da 2021-ci ilin yanvar-mart aylarında Azərbaycanda ATM, POS-terminal və elektron ticarət vasitəsilə aparılan əməliyyatların həcmi göstərilmişdir. Bu əməliyyatların həcmində artım müşahidə olunmuş, maksimum göstərici mart ayında qeydə alınmışdır.

Son illər ölkəmizdə elektron ticarət inkişaf etməyə başlamışdır. Elektron ticarətin ölkəmizdə əhatə dairəsinin artırılması vacib məsələlərdən biridir. Bunun üçün geniş imkanlar mövcuddur. Hər il demək olar ki, nağdsız ödənişlərin həcmi artmaqda davam edir.

**Nəticə**

Pandemiya dünya ölkələrinin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Pandemiya dövründə qapanmalar nəticəsində bir çox ticarət obyektləri fəaliyyətlərini dayandırmışdır. Ənənəvi ticarətlə məşğul olanlar zərərlə qarşılaşsalar da, elektron ticarətlə məşğul olan ticarət obyektləri daha çox gəlir əldə etmişlər. Bu o deməkdir ki, ölkəmizdə elektron ticarətlə məşğul olan ticarət obyektlərinin sayı artmağa başlamışdır. Əvvəlki illərə nisbətən ödəniş kartlarının sayı xeyli artmışdır. Qeyd etmək lazımdır ki, son illər ödəniş kartlarının sayının artması ilə bərabər elektron ticarət dövriyyəsi də artmışdır. Bu sahədə bəzi problemlər mövcud olsa da, gələcəkdə bu sahəni inkişaf etdirmək mümkündür.

**Şamxal Məmmədov**
**Azərbaycanda pandemiya dövründə elektron ticarətə artan tələbat**
**Xülasə**

Məqalədə koronavirus pandemiyası dövründə elektron ticarətin inkişafı, ölkəmizə gələn xarici vətəndaşlar, əcnəbilərin bank kartları vasitəsilə apardıqları əməliyyatların həcmi, pandemiyanın dünya ölkələrinin iqtisadiyyatına mənfi təsiri haqqında məlumat verilmişdir. 2019-2020-ci illər üzrə B2C elektron kommersiya indeksi göstərilmişdir.

Məqalədə həmçinin 2020-ci ilin yanvar-dekabr aylarında və 2021-ci ilin I rübündə ödəniş kartlarının sayı, debet və kredit kartları ilə aparılan əməliyyatların həcmi, əcnəbilərin bank kartları ilə apardıqları əməliyyatların həcmi, Azərbaycanda elektron ticarətin həcmi haqqında məlumat verilmişdir.

**Шамхал Мамедов**
**Растущий спрос на электронную коммерцию в Азербайджане во время пандемии**
**Резюме**

В статье представлена информация о развитии электронной коммерции во время пандемии коронавируса, объеме операций с банковскими картами, осуществляемых иностранцами в нашей стране, негативных последствиях пандемии для экономики мира. Был проанализирован электронный коммерческий индекс B2C за 2019-2020 годы.

В статье также представлена информация о количестве платежных карт, объеме операций с дебетовыми и кредитными картами, объеме операций с банковскими картами, осуществляемых иностранцами и объеме электронной коммерции в Азербайджане в январе-декабре 2020 года и в первом квартале 2021 года.

**Shamkhal Mammadov**
**The growing demand for e-commerce in Azerbaijan during the pandemic**
**Summary**

The article provides information on the development of e-commerce during the Coronavirus Pandemic, the volume of transactions with bank cards carried out by foreigners in our country, the adverse effects of the Pandemic for the world economy. The B2C e-commerce index for 2019-2020 was shown.

The article also provides information on the number of payment cards, volume of transactions with debit and credit cards, volume of transactions with bank cards carried out by foreigners and the volume of e-commerce in Azerbaijan on January-December 2020 and in the first quarter of 2021.

**Ədəbiyyat**


1. http://www.iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2021/03_ExportReview-2021.pdf
2. “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı-2005
3. https://azertag.az/xeber/Azerbaycanda_internet_istifadechilerinin_sayi_25_faiz_artib-1765613
4. https://uploads.cbar.az/assets/160ad6303ebb42c7249c42006.pdf
5. THE UNCTAD B2C E-COMMERCE INDEX 2020
6. https://margin.az/xeber/qlobal-onlayn-satislar-keskin-artib/11752
7. K.P.Paşayev. “Kommersiya fəaliyyətinin əsasları”. Bakı: “İqtisadi Universiteti” Nəşriyyatı, 2010.
8. M.Q.Əkbərov. Elektron kommersiya/Ali məktəblər üçün dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı 2011.
9. M.Q.Ağamalıyev, T.Ş.Şükürov. “Ticarət müəssisələrinin iqtisadiyyatı”. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010.
10. http://old.taxes.gov.az/modul.php?name=beynelxalq&news=34
11. http://tedris.taxes.gov.az/assets/upload/files/Elektron%20Ticar%C9%99t.pdf
12. İ.K.Musayev, M.N.Əlizadə, A.B.Mahmudov. “Elektron biznes”. Bakı-2016. “MSVNƏŞR” nəşriyyatı.
13. https://uploads.cbar.az/assets/2737fbd4db960ce79240cdc07.pdf



Məqalə redaksiyaya daxil olmuşdur: 14.05.2021
Təkrar işlənməyə göndərilmişdir: 17.05.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 311.216; 336.717.6
DOI:10.338.70/2413-6557-2021-7-3-

# STATİSTİK TƏDQİQATLARIN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**_Mübariz Nuriyev_**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin direktoru, f.e.d.*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti, 81*
*e-poçt: mubariz.nuriyev@stat.gov.az*

**_Saleh Mövlamov_**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi*
*Elmi-araşdırmalar və statistik tədqiqatlar şöbəsinin baş iqtisadçısı, i.ü.f.d.*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti, 81*
*e-poçt: saleh.movlamov@stat.gov.az*

**Açar sözlər**: statistik tədqiqatlar, seçmə müşahidələr, tədqiqat mərhələləri, ev təsərrüfatı tədqiqatı, müşahidə məlumatlarının qiymətləndirilməsi, seçmənin xətası, seçmə planı.
**Ключевые слова**: статистические обследования, выборочные наблюдения, этапы исследования, обследование домашних хозяйств, оценка данных наблюдений, ошибка выборки, план выборки.
**Keywords**: statistical surveys, sample observations, research stages, household survey, evaluation of observation data, sampling error, sampling design.

Statistikanın beynəlxalq standartlara keçirilməsi və rəsmi statistikanın inkişafı haqqında dövlət proqramlarına müvafiq olaraq statistik tədqiqatlar, statistik vahidlərin tədqiqi, onların düzgün seçilməsi, göstəricilərin beynəlxalq standartlara uyğunlaşdırılması və s. istiqamətdə mühüm işlər görülmüşdür. Odur ki, statistik tədqiqatlar nəticəsində ev təsərrüfatlarının son istehlak xərclərinin (ərzaq, qeyri-ərzaq və s.) hesablanmasına uyğun olaraq ÜDM, milli gəlir, qiymət indeksi, yaşayış səviyyəsi və digər makro, mezo göstəriciləri hesablamaq mümkün olur.

Statistik tədqiqatlar sosial-ekoloji və sosial-iqtisadi statistikanın əsas funksiyası olub, ölkənin davamlı inkişafının əsas istiqamətlərinin proqnozlaşdırılması üçün informasiya mənbəyidir. Statistik tədqiqatlar özündə aşağıdakı mərhələləri əks etdirir:

- tədqiqatın planlaşdırılması (obyektlərin seçilməsi, metaməlumatların hazırlanması, müşahidənin qiymətləndirilməsi, nümunələrin sayının tapılması və s.);
- sorğu anketinin hazırlanması;
- seçmə planının hazırlanması;
- ilkin seçmə vahidinin (yaşayış məntəqələrinin) seçilməsi;
- ev təsərrüfatlarının (statistik vahidlərin) seçilməsi;
- tədqiqatın xərcinin qiymətləndirilməsi;
- sorğunun aparılması;
- mikro məlumatların yoxlanılması;
- mikro məlumatların daxil edilməsi;
- məlumatların redaktəsi və imputasiyası;
- məlumatların proqram paketlərində işlənilməsi üçün hazırlanması;
- məlumatların statistik xarakteristikalarının təyin edilməsi;
- xətaların qiymətləndirilməsi;
- məlumatlarının statistik təhlili;

– yekun göstəricilərinin hazırlanması;
– göstəricilərin keyfiyyətinin qiymətləndirilməsi.

Statistik tədqiqat prosesinin tipik sxemi aşağıdakı kimidir.




Beynəlxalq təcrübədə əhalinin sosial-ekoloji və sosial-iqtisadi vəziyyətinin öyrənilməsi üçün ev təsərrüfatları tədqiqatından geniş istifadə edilir. Ev təsərrüfatlarının tədqiqatı əsasında aşağıdakı göstəricilər hesablanır:

- **Ev təsərrüfatlarının gəlirləri** - əmək gəlirləri, pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial transfertlər, kənd təsərrüfatı məhsullarının satışından əldə olunan gəlirlər, mülkiyyətdən əldə

olunan gəlirlər, qiymətli kağızların faizləri, dividendlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirləri və ailə üzvlərinin digər gəlirlərindən ibarətdir. Natura şəklində daxil olmuş ərzaq məhsullarının, yardım və güzəştlərin pulla ifadə olunmuş dəyəri də ev təsərrüfatlarının gəlirlərinə aid edilir;

- **Ev təsərrüfatlarının istehlak xərcləri** - ərzaq və qeyri-ərzaq məhsullarına, alkoqollu içkilərin alınmasına, xidmətlərin ödənilməsinə çəkilən xərcləri əhatə edir. Ev təsərrüfatlarının vergi, rüsum, ödəmə, borc, aliment, qohumlara yardım, cərimə, kreditlərin ödənilməsi və s. istehlaka aid olmayan xərclər istehlak xərclərinə aid edilmir. Ev təsərrüfatlarında ərzağın dəyərinə, ərzaq məhsullarının alınmasına və evdən kənarda qidalanmaya çəkilən pul xərcləri, eləcə də natura şəklində daxil olmuş ərzaq məhsullarının dəyəri də istehsal xərclərinə daxildir;

- **Ev təsərrüfatlarının sərəncamında qalan gəlirlər** - ev təsərrüfatının xərclərini təmin etmək və əmanətlər yaratmaq üçün pul vəsaitlərinin, eləcə də natura şəklində daxil olmuş ərzaq məhsullarının, yardım və güzəştlərin dəyərinin cəmindən ibarətdir. Ssuda və kreditlərin, əvvəl yığılmış pul kütləsinin və ev təsərrüfatlarının ümumi gəlirinin cəmi kimi hesablanır.

Ev təsərrüfatının tədqiqatı üçün statistik vahid kimi ev təsərrüfatları götürülür və hər bir ev təsərrüfatının seçməyə eyni ehtimalla düşməsi əsas prinsip hesab edilir, ev təsərrüfatları şəhər, kənd yaşayış məntəqələri üzrə qruplaşdırılır və seçmə şəbəkəsi hazırlanır:

**Şəhər və kənd ərazi vahidlərində seçmə planının hazırlanması.** Tədqiqat respublikanın bütün ərazisində aparılır. İqtisadi rayon, inzibati rayon və seçmə planı əhalinin siyahıyaalınma məlumatları əsasında tərtib edilir. Hər bir iqtisadi, inzibati rayon və şəhərdə yaşayanların və ya ev təsərrüfatlarının sayına müvafiq olaraq seçilir. Seçmə planı tərtib edilərkən şəhərlər, qəsəbələr, kəndlər üçün ev təsərrüfatlarının sayı seçmə planında ayrılıqda göstərilir. Seçmə planının iqtisadi rayon, inzibati rayon səviyyəsində tərtibi seçmə şəbəkəsinin də iqtisadi rayon, inzibati rayon (şəhər) səviyyəsində yaradılmasını tələb edir.

**Ev təsərrüfatlarının seçilməsi.** Şəhər üzrə sayıcı məntəqələri və kənd yaşayış məntəqələri seçildikdən sonra həmin ərazilərin ev təsərrüfatlarının siyahısından seçmə planına müvafiq ev təsərrüfatları seçilir. Şəhər və kənd yerlərində seçmə vahidlərini müəyyənləşdirmək üçün əsas məlumat bazası kimi əhali siyahıyaalınmasının məlumatları götürülür.

**Məlumatların yoxlanması.** Respondentlərin fərdi məlumatlarının yoxlanması və redaktəsi mikro və makro səviyyədə məlumatların redaktəsi prosesində yerinə yetirilir. Məlumatların mikro redaktəsi dedikdə, rayon səviyyəsində statistik müşahidə vahidlərinin göstəricilərinin hesabi və məntiqi yoxlanması, şübhəli, natamam göstəricilərin müxtəlif üsullarla bərpası başa düşülür. Məlumatların makro redaktəsi region və ya ölkə səviyyəsində aparılır.

Məlumatları yoxlamaq üçün aşağıdakı göstəricilərdən istifadə edilir:
N: Ümumi müşahidə vahidlərinin sayı;
$N_c$: Sorğudan imtina etmiş müşahidə vahidlərinin sayı;
$N_I$: Bərpa olunan (imputasiya) müşahidə vahidlərinin sayı;
X: Bütün müşahidə vahidləri üzrə ilkin (xam) göstəricilərin cəmi;
$X_c$: İmtina etmiş müşahidə vahidləri üzrə ilkin (xam) göstəricilərin cəmi;
$Y_I$: İmtina etmiş müşahidə vahidləri üzrə bərpa olunmuş göstəricilərin cəmi;
Y: Bütün müşahidə vahidləri üzrə redaktə olunmuş göstəricilərin cəmi;
$K_c$: Redaktəyə nəzarət xərcləri;
$K_I$: Bərpa (imputasiya) xərcləri.

**Tədqiqatın nəticələrinin yekunlaşdırılması**. Seçmə vahidlərinin həcmindən və digər parametrlərdən asılı olaraq tədqiqatın nəticəsi yekunlaşdırılır. Tədqiqat obyektinin (statistik vahid, ev təsərrüfatı) seçmə əlamətinin orta qiyməti çəki əmsalına vurularaq ölkə üzrə yekun məlumatlar tapılır. Çəki əmsalı aşağıdakı düsturla hesablanır:

$$W_1=W_1*W_2*W_3*W_4$$

Burada, $W_i$ - seçmə müşahidənin ölkə üzrə əmsalı;
$W_1$ - hər bir ev təsərrüfatının seçməyə düşmə ehtimalının tərs qiymətini xarakterizə edən əmsal (seçmə planına müvafiq götürülür);
$W_2$ - sorğuya cavab verməyən statistik vahidlərin xüsusi çəkisini xarakterizə edən

əmsal. Bu əmsalın böyüklüyü seçmə tətqiqatın effektivliyinə mənfi təsir göstərir;

$W_3$ - ailə üzvlərinin sayına görə ev təsərrüfatlarının paylanmasını təshih edən əmsal;

$W_4$ - ev təsərrüfatında yaşayanların cins və yaş qrupuna görə paylanmasını təshih edən əmsal;

Respublikanın yekunu iqtisadi rayonlar üzrə yekunların cəminə bərabər olur.

$$R = \sum_{j=1}^{10} R_j$$

sektorda büdcə təşkilatlarının beynəlxalq standartlara uyğun hesabatların təqdim etməsi Azərbaycanın beynəlxalq maliyyə təşkilatlarında fəal iştirakı ilə də sıx bağlıdır. Beynəlxalq standartlara uyğun hesabatların formalaşdırılması keyfiyyət etibarilə yeni əsasda dövlət idarəetmə sektoru haqqında hərtərəfli və tam informasiya əldə etməyə imkan verir. Daxili istifadəçilər üçün belə informasiya büdcə-vergi siyasətinin işlənib hazırlanması və planlaşdırılması, həmçinin dövlət idarəetmə sektorunun fəaliyyət təsirinin qiymətləndirilməsi kimi ciddi təhlilin predmeti ola bilər.

Büdcə sferasının təkmilləşdirilməsinin yeni mərhələsi büdcə sferası idarələrinin fəaliyyətinin aşkarlığının yüksəldilməsinə, dövlət xidmətinə təqdim edilən xərclərin miqyasının və səmərəliliyinin qiymətləndirilməsinə, həmçinin dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyətinin hesabatlılığının və elektronlaşdırılmasının artırılmasına istiqamətlənmişdir.

İctimai sektorda maliyyə hesabatlarının beynəlxalq standartlarında həyata keçirilən təsərrüfat əməliyyatlarının uçotu metoduna xüsusi diqqət yetirilir. Beynəlxalq standartda uçotun dörd əsas metodu formalaşdırılmışdır. Bunlardan biri pul vəsaitlərinin hərəkəti üzrə uçotda bütün hadisələrin qeydiyyatını nəzərdə tutan kassa metodudur. Yəni büdcə hesabları üzrə pul vəsaitlərinin çıxması və daxilolmasının uçotu aparılır. Bu zaman mühasibat uçotu çərçivəsində büdcə vəsaitlərindən başqa aktiv və öhdəliklər uçota məruz qalmır. İkincisi, modifikasiya edilmiş kassa metodudur. Bu metod yalnız büdcə pul vəsaitlərinin hərəkəti üzrə əməliyyatlara deyil, əlavə olaraq aktiv və öhdəliklərin qeydiyyatına da imkan verir. Bunun üçün əlavə hesablar tətbiq edilir. Hesablamanın modifikasiya edilmiş metodu əməliyyatın dərhal həyata keçirildiyi halda qeydiyyatını nəzərdə tutur, gəlirlər və xərclər əməliyyatlar həyata keçərkən əlavə edilir və tanınır. Xüsusiyyəti ondan ibarətdir ki, onda amortizasiya hesablanmır, aktivlər və qeyri-maliyyə aktivləri əldə edildikdən dərhal sonra xərclərdən silinir.

Hesablama metodu bütün əməliyyatları onların yaranma anına tanınmasını və aşınmanı əlavə etməklə aktivlərin faydalı xidmət müddətinə bərabər olaraq xərclərdən silinməsini nəzərdə tutur. Hesablama metodu uçot prosesinin bəzi xüsusiyyətləri (başvermə anına görə xərclərin qeydiyyatı, yaxud tanınması, bütün resurs axınlarını uçota almaq, o cümlədən kassa axınının yaranmasına gətirib çıxarmayan, lakin xidmətin dəyərinə təsir edənləri, aktiv və passivlərin vəziyyəti haqqında informasiya əldə etmə imkanları, kreditor borclarının yaranması və qarşılanması və s. kimi qeyri-kassa əməliyyatlarının uçotu imkanı) nəticəsində real iqtisadi vəziyyəti əks etdirməyə imkan verir. Bu metodun tətbiqi dövlət maliyyəsinin idarəedilməsinin yaxşılaşdırılmasında, dövlət sektoru üzrə daha tam, etibarlı və obyektiv maliyyə informasiyasının təqdim edilməsində özünəməxsus üstünlükləri vardır [2].

Bu gün maliyyə hesabatının istifadəçiləri dövlət idarələrinin təqdim etdiyi informasiyanın şəffaflığına, etibarlılığına və məzmununa yeni tələblər ortaya qoyur. Mühasibat uçotunun aparılması və hesabatların hazırlanması metodlarının müxtəlifliyini nəzərə alsaq, açıq, etibarlı və müqayisəli informasiyanın əldə edilməsi məsələsi heç də asan deyildir. İctimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarını tətbiq etməklə maliyyə informasiyasının hazırlanması istifadəçilərə dövlət idarəetmə sektoru təşkilatlarının pul axınları, maliyyə fəaliyyəti və nəticələri haqqında daha tam təsəvvür əldə etməyə kömək edir. Bu standartın tətbiqinin ən mühüm tərəflərinə aid etmək olar:

- ictimai sektorda korporativ idarəetmənin yeni paradiqmasını formalaşdırmaq;
- dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyət nəticələrinin şəffaflığını artırmaq;
- ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarına müvafiq olaraq maliyyə hesabatının auditini formalaşdırmaq və s.

Daha keyfiyyətli maliyyə informasiyası istifadəçilərə düzgün qərarlar qəbul etməyə imkan verir. İctimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarının Azərbaycanın uçot və hesabat təcrübəsində tətbiqinin bir sıra üstünlükləri (həm ölkə miqyasında, həm də beynəlxalq səviyyədə maliyyə informasiyasının uyğunluğunu təmin etmək və müqayisəliliyini artırmaq, maliyyə hesabatlarını tərtib edərkən ictimai sektor idarələrinin fəaliyyət xüsusiyyətlərini uçota almaq, ictimai sektor idarələrinin hesabatlarının hazırlanması və mühasibat uçotu prosesinin şəffaflığını artırmaq və dövlət borcunun maliyyələşdirilməsi xərclərinin optimallaşdırılmaq, dövlət idarələrinin fəaliyyət nəticələri üzərində nəzarəti gücləndirmək, qərar qəbul etmə prosesini

optimallaşdırmaq və aktiv və öhdəlikləri daha səmərəli idarə etmək, cari anda idarənin məruz qaldığı risklər, onların minimumlaşdırılması imkanları haqqında dəqiq təsəvvürə malik olmaq, ictimai sektorun maliyyə vəziyyəti haqqında statistik informasiyanın keyfiyyətini yüksəltmək və s.) vardır.

Maliyyə resursları və onlara əlçatanlığın məhdudluğu, xarici mühit amillərinin fəaliyyət miqyasının artması və s. ilə xarakterizə olunan dünya iqtisadiyyatının inkişafının müasir mərhələsi dövlət maliyyə resurslarının idarəedilməsi səmərəliliyinin yüksəldilməsini və yüksək keyfiyyətli informasiyanın əldə edilməsini tələb edir. İctimai sektor üçün maliyyə hesabatının beynəlxalq standartları əsasında büdcə təşkilatlarının mühasibat hesabatlarının hazırlanması bütün maraqlı istifadəçilərə (hökumət, investorlar, vətəndaşlar, beynəlxalq təşkilatlar və s.) lazım olan dövlət idarəetmə sektoru təşkilatlarının və bütövlükdə dövlətin fəaliyyəti haqqında tam və etibarlı informasiyanı əldə etməyə imkan verir.

Dövlət idarəetmə sektoru təşkilatlarının maliyyə vəziyyəti və fəaliyyət nəticələri haqqında informasiyanın şəffaflığının və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə dövlət idarəetmə sektorunun mühasibat uçotu və hesabat sisteminin təkmilləşdirilməsi vacibdir.

Mövcud mühasibat uçotu sistemi üçün qanunvericiliyə riayət edilməsi üzərində ciddi nəzarət xarakterikdir ki, bu da maliyyə intizamının yüksək səviyyədə saxlanmasına imkan verir. Lakin milli qanunvericiliyə lazımi səviyyədə ardıcıl və məcburi riayət edilməsinə baxmayaraq, dövlət orqanları tərəfindən bütün zəruri informasiyanın əldə edilməsi təmin edilmir. Xüsusilə dövlət idarəetmə sektorunu fəaliyyətinin maliyyə nəticələri, aktiv və öhdəlikləri, dövlət vəsaitlərindən istifadənin səmərəliliyi haqqında informasiya məhduddur. Bunun əsas səbəbi dövlət idarəetmə sektoru təşkilatları üçün hesabatlılığın formalaşdırılmasına və mühasibat uçotunun aparılmasına müxtəlif tələblərin olmasıdır.

Əsas problemli tərəflərdən biri mühasibat uçotunun hesablar planının çoxluğudur. Müxtəlif hesablar planından istifadə etməklə mühasibat uçotunda əks etdirilən informasiya dövlət idarəetmə sektoru təşkilatları arasında məlumatları tutuşdurub yoxlamağa xeyli çətinlik yaradır, həmçinin məlumatların toplanmasının avtomatlaşdırılmasına və konsolidə edilmiş mühasibat hesabatlarının formalaşdırılmasına mane olur.

Kassa metodu ilə büdcənin icrası üzrə əməliyyatların əks etdirilməsi məqsədilə mühasibat uçotunun mövcud hesablar planı ilə yanaşı, büdcə təsnifatından da istifadə edilir.

Hesablar planı ilə büdcə təsnifatı arasında inteqrasiyanın olmaması mühasib tərəfindən bir-biri ilə əlaqəsi olmayan kodlardan (hesablar planına və büdcə təsnifatına uyğun) istifadə edərək eyni bir əməliyyatın qeydiyyatı zəruriliyinə gətirib çıxarır.

Mühasibat uçotu hesabları ilə büdcə təsnifatının kodlarının qarşılıqlı əlaqəsi müəyyən olunmamışdır. Bu çox vaxt büdcə təsnifatının detalları üzrə mövcud aktivlər haqqında (ehtiyatlar, əsas vəsaitlər və s.) mühasibat uçotu informasiyasını əldə etməyə imkan vermir. Eyni zamanda qarşıdakı dövrdə büdcə planlaşdırılması üçün əsas kimi çıxış edən əvvəlki dövrün mühasibat uçotu məlumatlarından istifadə edilməsi çətinləşir və çoxlu əl əməliyyatları tələb olunur. Mühasibat uçotunun ayrı-ayrı hesablar planının və büdcə təsnifatının tətbiqi mühasibat uçotunun aparılması prosesi və büdcə planlaşdırılması arasındakı qarşılıqlı əlaqənin təmin edilməsinə maneçilik yaradır.

Bununla yanaşı, beynəlxalq təcrübə göstərir ki, mühasibat uçotu ilə büdcə təsnifatının inteqrasiyası halında yaxşı nəticələrə nail olunur.

Dövlət idarəetmə sektorunun hesabatlılığı və mühasibat uçotu sisteminin mühüm problemlərindən biri də büdcə təşkilatlarında, yerli maliyyə və dövlət xəzinədarlıq orqanlarında mühasibat uçotunun aparılmasında müxtəlif metodoloji qayda və prinsiplərin tətbiq edilməsidir. Belə ki, qanunvericiliyə müvafiq olaraq büdcə təşkilatlarında mühasibat uçotu və hesabatlılığın baza prinsipi əlavə etmə prinsipidir. Bu prinsipə əsasən təsərrüfat əməliyyatları mühasibat uçotu və hesabatlarında onlar üzrə hesablaşmaların aparılması vaxtından asılı olmayaraq yerinə yetirildiyi hesabat dövründə əks etdirilir. Eyni zamanda dövlət xəzinədarlıq və yerli maliyyə orqanları büdcənin icrasının mühasibat uçotunu əlavə etmənin ayrı-ayrı ünsürlərinə görə kassa metodu əsasında aparır. Həmçinin mühasibat uçotunun formalaşdırılması tələbləri də uzlaşdırılmamışdır.

Bundan başqa, müasir dövrdə büdcə təşkilatlarının mühasibat uçotunun mövcud metodologiyası beynəlxalq təcrübəyə uyğun səviyyədə hesablama metodunun tətbiqini təmin etmir.

Nəticədə, müvafiq büdcə və bütövlükdə dövlət səviyyəsində bütün mənbələr hesabına əlavə edilmiş gəlirlərin və xərclərin ümumi həcmini, maliyyə və qeyri-maliyyə aktiv və öhdəliklərin məbləğini əks etdirən vahid konsolidə edilmiş hesabatların formalaşdırılmasına imkan olmur.

Müasir dövrdə bütövlükdə dövlət səviyyəsində yalnız kassa əsasında gəlir və xərclərin, həmçinin büdcə defisitinin (profisitin istifadə istiqamətlərinin) maliyyələşdirmə mənbələrinin məbləğini əks etdirən icmal (konsolidə edilmiş) büdcənin icrası haqqında hesabat formalaşdırılır.

Maliyyə Nazirliyi icmal (konsolidə edilmiş) büdcənin icrası haqqında hesabatla yanaşı, həmçinin yerli büdcələrin icrasının balansını da formalaşdırır. O, maliyyə və xəzinədarlıq orqanları vasitəsilə büdcə vəsaitləri ilə əməliyyatların aparılması nəticəsində yaranan maliyyə aktiv və öhdəliklər haqqında informasiyanı özündə əks etdirir. Eyni zamanda balansa büdcə təşkilatının məlumatları, o cümlədən qeyri-maliyyə aktivlərinin mövcudluğu haqqında məlumatlar daxil edilmir.

Büdcə təşkilatlarının bütün aktiv və öhdəlikləri, həmçinin Azərbaycan Respublikası Hökumətinin, yerli icraedici və sərəncamverici orqanlarının aktiv və öhdəlikləri haqqında konsolidə edilmiş informasiyanı özündə əks etdirən mühasibat balansı formalaşdırılmır.

Büdcə təşkilatının operativ idarəetmə hüququnda olan qeyri-maliyyə aktivləri haqqında informasiya əldə etmək məqsədilə pul vəsaitlərinin, dövriyyə vəsaitlərinin tərkibindəki ayrı-ayrı maddələrin, material qiymətlilərinin hərəkəti haqqında yekun hesabatlar tərtib edilir. Lakin ayrı-ayrı mövqelərin təkrarlanması ilə əlaqədar olaraq həmin hesabat formalarında informasiya konsolidə edilmir.

Mühasibat uçotu sistemində dövlət idarəetmə sektoru təşkilatlarının əmlak vəziyyəti haqqında informasiyanın təqdim edilməsi vəzifəsi qismən öz həllini tapmışdır.

Maliyyə və qeyri-maliyyə dövlət aktivlərinin əksər hissəsinin dəyəri mühasibat hesabatına daxil edilmir, yalnız dövlət əmlakının vahid reyestrində uçota alınır.

Dövlətin qəbul etdiyi borc öhdəlikləri xüsusi informasiya sistemlərində uçota alınır və mühasibat hesabatlarına daxil edilmir.

Büdcə daxilolmalarına aid gəlir hissəsində əlavəetmə metodunda yalnız operativ uçotda (dövlət idarəetmə sektorunun mühasibat uçotu və hesabatı sistemindən kənar) istifadə edilir.

Bir sıra hallarda büdcəyə ödəmələr üzrə (məsələn, qeyri-vergi gəlirlərinə aid edilən ödəmələr üzrə) ödəyicilərin yaranan borcunun və onların qarşılanması (ödənilməsi) haqqında məlumatlar, hətta operativ uçotda nəzərə alınmır.

Maliyyə resursları axınının bir qismi haqqında informasiyanın təqdim edilməsində də çatışmazlıq vardır. Belə ki, müasir dövrdə büdcə vəsaitlərini alan və sərəncamverən, yerli maliyyə orqanları səviyyəsində bütün mənbələr hesabına vəsaitlərin daxilolmasının və xərclənməsinin vahid hesabat forması yoxdur. Büdcə smetasının, həmçinin yerli büdcələrin icrası haqqında hesabatda yalnız büdcə vəsaitlərinin axınları haqqında informasiya vardır. Büdcə təşkilatlarının gəlir gətirən fəaliyyətindən vəsaitlərin hərəkəti haqqında informasiya ayrıca hesabatda əks etdirilir.

Müxtəlif hesabat formalarında və informasiya sistemlərində mövcud olan natamam informasiya idarəetmə qərarları qəbul etmək məqsədilə dövlət idarəetmə sektorunun fəaliyyətinin maliyyə nəticələrini qiymətləndirməyə və maliyyə vəziyyəti haqqında tam təsəvvür əldə etməyə imkan vermir. Müasir dövrdə formalaşdırılan mühasibat hesabatları mahiyyət etibarilə yalnız büdcə vəsaitlərinin məqsədli xərclənməsi üzərində nəzarət vasitəsidir.

Milli qanunvericiliklə müəyyən edilmiş ayrı-ayrı aktiv və öhdəliklərin, gəlirlərin və xərclərin tanınması meyarları, onların mühasibat uçotunda əks etdirilməsi qaydası, həmçinin informasiyanın açıqlanması tələbləri əhəmiyyətli dərəcədə beynəlxalq prinsiplərə və standartlara uyğun deyildir ki, bu da şəffaflığı azaldaraq mövcud hesabatların xarici istifadəçilər üçün təhrif olunmasına gətirib çıxarır.

Uçota alınan obyektin real dəyərinin qiymətləndirilməsi metodikası dünya təcrübəsində ümumi qəbul edilmiş yanaşmaya uyğun deyildir. Bunun da həll edilməsi zəruridir. Problemli məsələlər müəyyən qədər mühasibat uçotunun aparılmasının təşkili və hesabatların

formalaşdırılmasında da müşahidə edilir. Müasir dövrdə mühasibat uçotunun aparılması və hesabatların formalaşdırılması prosesi qeyri-mərkəzləşdirilmişdir və hər bir büdcə təşkilatı proqram məhsullarının köməyi ilə müstəqil həyata keçirir. Dövlət idarəetmə sektorunda proqram məhsullarından və innovativ yanaşmalardan müəyyən qədər istifadə edilir. İstifadə edilən proqram məhsullarının etibarlı, büdcə və büdcədənkənar vəsaitlərlə əməliyyatların vaxtında və tam uçotunu təmin etməsinə baxmayaraq, büdcə təşkilatlarının mühasibat məlumatlarına mərkəzləşdirilmiş əlçatmanı təmin etməyə imkan verən vahid standartlaşdırılmış proqram təminatı yoxdur. Büdcə təşkilatlarının istifadə etdiyi proqram məhsulları xəzinədarlığın avtomatlaşdırılmış və büdcə vəsaitlərinin müvafiq sərəncamvericilərinin sistemləri ilə tam şəkildə inteqrasiya edilməmişdir. Hər bir büdcə təşkilatında formalaşdırılan mühasibat hesabatı büdcə vəsaitlərinin sərəncamvericisinə kağız daşıyıcısında, yaxud sonradan konsolidə etmək üçün elektron şəkildə ötürülür. Büdcə vəsaitlərinin ayrı-ayrı sərəncamvericiləri çərçivəsində hesablama metodu əsasında məlumatlar indiyə qədər əl ilə ümumiləşdirilir. Bu cür yanaşma yuxarı təşkilatlar səviyyəsində tələb edilən informasiyanın əldə edilməsinin operativliyini azaldır, konsolidasiya prosesini çətinləşdirir ki, bu da dövlət maliyyəsinin idarəedilməsi üzrə qəbul edilən qərarların səmərəliliyini azaldan amillərdir.

Dövlət idarəetmə sektorunda mühasibat uçotu və hesabatlılığın milli sisteminin təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulur (şəkil 1):




Şəkil 1. Dövlət idarəetmə sektorunda mühasibat uçotu və hesabatlılığın təkmilləşdirilməsinin istiqamətləri

Beynəlxalq təcrübə göstərir ki, bütün maraqlı istifadəçilərin ehtiyaclarına cavab verən, dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyət nəticələrini və maliyyə vəziyyətini əks etdirən keyfiyyətcə yeni səviyyəli informasiya ümumi qəbul edilmiş prinsip və standartlara əsaslanan mühasibat uçotu və hesabatın vahid metodologiyasının işlənib hazırlanması yolu ilə əldə etmək olar. Dünya birliyi dövlət idarəetmə sektoru üçün yüksək keyfiyyətli müqayisəli mühasibat hesabatlarının hazırlanması üçün metodoloji baza kimi ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarını qəbul etmişdir.

Beləliklə, ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartlarına müvafiq olaraq tərtib edilən mühasibat hesabatının başlıca vəzifəsi maraqlı istifadəçilərin bütün kateqoriyalarının dövlət idarəetmə sektoru təşkilatlarının fəaliyyəti haqqında etibarlı və müqayisəli informasiyaya zəmanətli əlçatanlığını təmin etməkdir ki, bu da dövlət vəsaitlərinin planlaşdırılmasının keyfiyyəti və istifadə edilməsi səmərəliliyi haqqında cəmiyyətə obyektiv məlumat verməyə imkan verir.

## Nəticə

Ümumiyyətlə, mühasibat hesabları planının büdcə təsnifatı ilə inteqrasiyası, yeni vahid hesablar planının ictimai təşkilatlarda maliyyə hesabatının beynəlxalq standartları və Dövlət Maliyyəsinin Statistikası üzrə Beynəlxalq Valyuta Fondunun tövsiyələri ilə uzlaşdırılması ümumi qəbul edilmiş prinsiplərə və yanaşmalara uyğun olaraq dövlət idarəetmə sektoru təşkilatlarının bütün iqtisadi əməliyyatlarını tam əhatəliliyini, həmçinin büdcə, mühasibat və statistika hesabatlarının daha sıx qarşılıqlı əlaqəsini təmin edəcəkdir. Eyni zamanda uçotun vahid qaydalarının tətbiqi mühasibat uçotunun aparılması və hesabatların formalaşdırılması məqsədilə standartlaşdırılmış proqram təminatının, həmçinin büdcənin planlaşdırılması və icrası, dövlət idarəetmə sektorunda mühasibat uçotu və mühasibat hesabatlarının formalaşdırılması proseslərinin

qarşılıqlı əlaqəsini təmin edən dövlət maliyyəsinin idarəedilməsinin inteqrasiya edilmiş informasiya sisteminin yaradılması üçün metodoloji əsas olacaqdır. Nəticədə, büdcə təşkilatları (büdcə vəsaitlərini alanlar), büdcə vəsaitlərinin icraçıları, maliyyə və dövlət xəzinədarlıq orqanları arasında mühasibat uçotu informasiyasının birbaşa mübadiləsi imkanları təmin ediləcəkdir ki, bu da hesabat məlumatlarının əldə edilməsi və konsolidə edilmiş mühasibat hesabatlarının formalaşdırılması, həmçinin gələcək dövrə büdcənin planlaşdırılması, pul axınlarının proqnozlaşdırılması və s. məqsədilə onlardan istifadə üzrə bağlı xərclərin optimallaşdırılmasına gətirib çıxaracaqdır.

**Novruz Hüseynov**

**Büdcədənkənar dövlət fondlarının idarəetmə orqanlarında uçot və hesabatın təkmilləşdirilməsi məsələləri**

**Xülasə**

Məqalədə dövlət idarəetmə sektorunda mühasibat uçotu və hesabat sisteminin təkmilləşdirilməsi dövlət maliyyəsinin idarəedilməsi sisteminin mühüm ünsürü kimi qeyd edilmişdir. Belə ki, maliyyə informasiyasının keyfiyyətinin yüksəldilməsi yalnız dövlət maliyyəsinin idarəedilməsi sisteminin kompleks islahatı nəticəsində daha təsirlidir.

Məqalədə mühasibat hesabları planının büdcə təsnifatı ilə inteqrasiyası nəticəsində yeni yaranacaq hesablar planının beynəlxalq standartlara tam uyğunluğu qeyd olunur.

**Новруз Гусейнов**

**Вопросы совершенствования учета и отчетности в органах управления внебюджетных государственных фондов**

**Резюме**

В статье отмечается, что совершенствование системы бухгалтерского учета и отчетности в сфере государственного управления является важным элементом системы управления государственными финансами. Таким образом, повышение качества финансовой информации будет более эффективным только в результате комплексной реформы системы управления государственными финансами.

В статье отмечается, что новый план счетов, который будет создан в результате интеграции плана счетов с бюджетной классификацией, полностью соответствует международным стандартам.

**Novruz Huseynov**

**Directions for improving accounting and reporting in the management bodies of extra-budgetary state funds**

**Summary**

The article notes that the improvement of the accounting and reporting system in the public administration sector is an important element of the public finance management system. Thus, improving the quality of financial information is more effective only as a result of a comprehensive reform of the public financial management system.

The article notes that the new chart of accounts, which will be created as a result of the integration of the chart of accounts with the budget classification, fully complies with international standards.

## Ədəbiyyat


1. Е.О.Комарова. Применение мсфо в общественном секторе России, журнал, экономика и управление, № 1, 2015, стр.70-72
2. Л.И.Ткаченко. Совершенствование бухгалтерского учета и отчетности в бюджетной сфере в соответствии с международными стандартами финансовой отчетности для общественного сектора (мсфо ос), проблемы учёта и финансов №4(12) 2018, стр.66-69
3. Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunu. 2 iyul, 2002-ci il
4. "Mühasibat uçotu" haqqında Azərbaycan Respublikasının Qanunu. 29 iyun-2004-cü il
5. İ.M.Abbasov. Audit. Dərslik, Bakı-2013
6. S.M.Səbzəliyev, S.M.Süleymanov, E.O.Cəfərov. Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tədrisinə dair tədris-metodik vəsait. Bakı. Tədris işçisi, 2010.
7. K.V.Ekimova, O.Y.Bogdanova, O.I.Karepina, E.V.Kravchenco. Pension Fund of The Russian Federation: challenges and prospects of the development under modern conditions // European Research Studies Journal. – 2018. – № 3. – p. 282–283.
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az/
9. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet səhifəsi. http://sosial.gov.az/



Məqalə redaksiyaya daxil olmuşdur: 21.04.2021
Təkrar işlənməyə göndərilmişdir: 23.04.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 33,303,7 330.44
DOI:10.338.70/2413-6557-2021-7-3-

# FƏRDİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ: TƏHLÜKƏSİZLİK MÜHİTİNƏ TƏHDİDLƏR, MÜDAFİƏ VƏ QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

***Xaqani Məcidov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Sənaye və tikinti statistikası şöbəsinin məsləhətçisi*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: khagani.majidov@stat.gov.az*

**Açar sözlər:** təhlükəsizlik, təhlükəsizlik mühiti, fərdin iqtisadi təhlükəsizliyi, milli maraqlar, maliyyə suverenliyi, maliyyə dayanıqlığı, maliyyə axınları, inteqrasiya, metodologiya, inklüziv inkişaf, rifah, sosial fayda.
**Ключевые слова:** безопасность, безопасносная среда, экономическая безопасность личности, национальные интересы, финансовый суверенитет, финансовая устойчивость, финансовые потоки, интеграция, методология, инклюзивное развитие, благосостояние, социальная выгода.
**Keywords:** security, security environment, economic security of the individual, national interests, financial sovereignty, financial sustainability, financial flows, integration, methodology, inclusive development, welfare, social benefits.

**Təhlükəsizlik. Təhlükəsizlik mühiti.** "Təhlükəsizlik" anlayışının ortaya çıxması hər hansı sabit mühitə təhlükələrin yaranmasından sonra meydana gəlmişdir.. Bəşəriyyət yarandığı gündən bugünədək təbii və insan əli ilə yaradılmış müxtəlif miqyaslı təhlükələrlə qarşılaşmışdır. Təhlükələrin mövcudluğu ona qarşı bütün növ qabaqlayıcı tədbirləri zəruri etmişdir. Əgər təhlükələrə qarşı immunitet (effektiv tədbirlər) olmazsa, bu artıq məhvolma deməkdir.

Təklükəsizlik – mövcud mühitin fəaliyyətini normal qayda və qəbul olunmuş qanunlarla fasiləsiz davam etməsidir. Müxtəlif ədəbiyyatlarda təhlükəsizlik anlayışına fərqli yanaşmalar vardır.

Bütün təhlükələrin hədəfində insanlar və onların maraqlarının məhvi və ya zəiflədilməsi dayanır.

Təhlükəsizlik mühiti – mövcud mühitin fəaliyyətinin fasiləsiz davam etməsi üçün zəruri olan, ona təsir edən bütün amillərin cəmidir.

**Fərdin iqtisadi təhlükəsizliyi, təhdid və risklər.** Fərdin iqtisadi təhlükəsizliyi - fərdin iqtisadi maraqlarının bütün növ təhdid və risklərdən yaxın, orta və uzun müddətə qorunmasının təmin edilməsidir. Bəzi ədəbiyyatlarda fərdin iqtisadi təhlükəsizliyinə, həm də ailənin iqtisadi təhlükəsizliyi kimi baxılır. Çünki ailə dəyərlərinin yüksək olduğu cəmiyyətlərdə fərd və ailə vahid bir sistem təşkil edir. Dövlət və cəmiyyət fərdlərdən təşkil olunduğuna görə fərdin təhlükəsizliyi (o cümlədən iqtisadi təhlükəsizliyi) milli təhlükəsizliyin əsasını təşkil etmiş olur. Lakin ayrı-ayrılıqda fərd(lər)in maraqları dövlətin və cəmiyyətin maraqlarına (milli maraqlara) zidd olduğu hallarda milli maraqlar əsas götürülməlidir.

Fərdin iqtisadi təhlükəsizliyinə təhdidlər obyektiv (xarici) və subyektiv (daxili) ola bilər.

Obyektiv təhdid və risklər bilavasitə fərdlərin fəaliyyətindən asılı olmadan meydana gələ bilən risklərdir. Bura tərəfdaşların maliyyə vəziyyəti, maliyyə axınları, bazarın vəziyyəti, maliyyə-kredit sistemindəki dəyişikliklər, xarici mühitdə baş verən dəyişikliklər, siyasi vəziyyət, nəqliyyat və rabitə infrastrukturu, ölkə və qlobal səviyyədə ümumi iqtisadi vəziyyəti və s. aiddir.

Subyektiv təklükə və risklər fərdlərin özlərinin qəbul etdiyi qərarların nəticəsi olaraq yaranan təklükəli və riskli vəziyyətdir. Buraya gəlir və xərclərin idarəedilməsi, insanların ixtisas səviyyəsi və təcrübəsi, fərdi məsuliyyət, maddi-texniki bazanın vəziyyəti, fərdin maliyyə suverenliyi, maliyyə sabitliyi (dayanıqlığı), ödəmə qabiliyyəti və s. daxildir.

Fərdin iqtisadi təhlükəsizliyi struktur olaraq aşağıdakı dörd meyardan ibarətdir:

1. İqtisadi (maliyyə) müstəqilliyindən

2. İqtisadi sabitliyindən (dayanıqlığından)
3. Daim özünü inkişaf etdirmə qabiliyyətindən
4. Dəyişən xarici mühitə inteqrasiya (uyğunlaşma), rəqib və tərəfdaşlarla hüquq bərabərliyi çərçivəsində rəqabət qabiliyyətinin və qarşılıqlı asılılığın məqbul səviyyəsinin qorunması və əməkdaşlıqdan.




Şəkil 1. Fərdin iqtisadi təhlükəsizlik sistemi

**Təhlükəsizlik tədbirləri.** Təhlükəsizlik tədbirləri dedikdə mövcud mühitin təhlükəsiz və dayanıqlı fəaliyyətinin təmin olunmasına yönəldilmiş hərəkətlər başa düşülür. Bu tədbirlər iki yerə bölünür:

1) Hadisə baş vermədən öncə qabaqlayıcı tədbirlərin görülməsi.

2) Hadisə baş verdikdən sonra onun nəticələrinin tam aradan qaldırılmasına və ya minimuma endirilməsinə yönəldilmiş tədbirlər.

Əlbəttə ki, birinci qəbildən olan tədbirlərin yüksək səmərəliliklə yerinə yetirilməsi daha məqsədəuyğundur. Çünki nəticə olaraq ya təhlükənin qarşısı alınmış olur, yaxud da gözlənilən zərər minimuma endirilir. Əlbəttə, buna nail olmaq üçün bir neçə şərtin yerinə yetirilməsi vacibdir:

- Gözlənilən təhlükə və təhdidin mənbəyi və miqyası düzgün müəyyən olunmalıdır;
- Gözlənilən təhlükəyə qarşı səfərbər olunacaq resurslar təhlükənin qarşısını almağa ən azı kifayət etməlidir;
- Mümkün təhlükənin qarşısının alınmasının əhəmiyyəti nəzərçarpan olmalıdır;
- Gələcəkdə baş verməsi ehtimal olunan eyni və ya oxşar təhlükələrin müəyyənləşdirilərək qarşısı alınmalıdır.

Fərdin iqtisadi təhlükəslik problemlərinin həlli məsələlərini hədəfləyən qərarlar qəbul edilərkən əsas meyar kimi bu formuladan istifadə oluna bilər: "Gözlənilən zərər (təhlükə) → təhlükəsizlik tədbirlərinə çəkiləcək xərclər → sığortalanmamış (gözlənilməz) zərər".

**Metodologiya**

Fərdin iqtisadi təhlükəsizlik səviyyəsini tam, əhatəli və dəqiq qiymətləndirə bilmək üçün onun təhlükəsizlik sisteminə daxil olan bütün elementləri (iqtisadi və qeyri-iqtisadi) qarşılıqlı təsir və asılılıq şəraitində ölçmək zərurətdir.

İnsan inkişafını ölçmək üçün dünyanın müxtəlif ölkələri, beynəlxalq təşkilatlar, aparıcı təhsil ocaqları və qeyri-hökumət təşkilatları tərəfindən müəyyən metodolgiyaya əsaslanan indekslər, eləcə də müxtəlif sorğu materialları təklif olunur. Bu indekslər və sorğu materialları fərdlərin bütün fəaliyyət sferalarına təsir edən vacib elementlərin ümumidə (cəmdə) xüsusi çəkilərini hesablamaqla, ümumi mənzərəni ortaya çıxarmağa imkan verir. Mütəmadi olaraq yayımlanan bu indekslər və sorğu nəticələri daim diqqət mərkəzində olur.

Demək olar ki, bütün indekslərdə nəzərə alınan əsas elementlər (göstəricilər) bunlardır [1,2,3,4,5,6,7]:

- Gəlirlərin səviyyəsi
- Gəlir mənbələrinin etibarlığı
- Xərclərin strukturu
- Maliyyə (pul) ehtiyatları
- Vergi yükü
- Maliyyə azadlığı
- Tibbi xidmətlərin əlçatanlığı
- Tibbi xidmətlərə çəkilən xərclər
- Gözlənilən ömür müddəti
- İctimai xidmətlərdən istifadə (su, qaz, işıq, telefon, internet, məktəb, nəqliyyat, kitabxana, klub və s.)
- Sanitar şəraiti
- Məişət zorakılığının səviyyəsi
- Dini inanc
- Ümumi təhsil
- Peşə biliklərinin və bacarıqlarının daim artırılması
- Elmin inkişafı
- Təhsilə çəkilən xərclər
- İnformasiya təhlükəsizliyi
- Qida təhlükəsizliyi
- İctimai təhlükəsizlik səviyyəsi
- İnsan hüquq və azadlıqlarının təmin olunma vəziyyəti (məhkəmə-hüquq sisteminin vəziyyəti)
- Korrupsiyanın səviyyəsi
- İnnovativlik
- İKT-dən istifadə bacarıqları

Təhlükəsizlik mühitinin, o cümlədən fərdin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsində aşağıdakı düsturdan istifadə oluna bilər [2]:

$$R = \sum_i p_i \cdot U_i$$

R – riskin kəmiyyət qiymətləndirilməsi;

$p_i$ – mənfi hadisənin baş vermə ehtimalı;

$U_i$ – hadisədən gözlənilən ziyan.

İnklüziv inkişaf indeksi (The Inclusive Development Index - IDI) iqtisadi inkişaf prosesinin iştirakçılarının hər birinin imkanlardan bərabər istifadə səviyyəsini xarakterizə edir. Bu indeks 3 əsas indikator (artım və inkişaf, inklüzivlik, nəsillərarası bərabərlik və dayanıqlılıq) olmaqla, 12 sub-indikatora əsasən formalaşır [3].

Sosial-iqtisadi rifah indeksi (Socio-Economic Welfare Index – SEW-Index) - sosial inkişaf layihələri tərəfindən yaradılmış sosial təsiri (sosial faydanı) ölçmək üçün metodologiyaya əsaslanır. Dörd qrup məhsul və xidmətlər əsasında həyata keçrilir: maddi, qeyri-maddi, fərdi və kollektiv. Bu qrupların birləşməsi əsasında dörd əsas indikator vasitəsilə 0-dan 100-dək balla qiymətləndirilir [4].

İqtisadi ümid indeksi (Economic Confidence Index) "GALLUP İnternational" təşkilatı tərəfindən ölkə vətəndaşlarının gələcək iqtisadi perspektivlərlə bağlı gözləntilərinə əsaslanır və vətəndaşlar arasında aparılmış sorğunun nəticələrini əsas götürür. İndeks insanların öz ölkələrinin iqtisadi gələcəyi barədə düşüncələrini ölçən mühüm indikator hesab olunur. Lakin indeksin nəticələri sosioloji sorğulara əsaslandığı üçün ölkə vətəndaşlarının təkcə iqtisadi deyil, həm də cari siyasi, mənəvi və psixoloji vəziyyəti də özündə cəmləşdirir [5].

İnsan İnkişafı İndeksi (Human Development Index - HDİ) – BMT-nin İnkişaf Proqramı tərəfindən hazırlanan, dünya ölkələrində əhalinin rifahını əks etdirən göstərici.




Şəkil 2. İnsan İnkişafı İndeksi [6]

"Heritage Foundation" tərəfindən hazırlanan İqtisadi Azadlıq İndeksini (Economic Freedom Index) "Qanunun aliliyi", "İdarəetmənin səmərəliliyi", "Dövlətin ölçüsü", "Bazarın əlçatanlığı" kimi əsas indikatorlar və onların alt-indikatorları daxil olmaqla ümumilikdə 12 göstərici əsasında iqtisadi azadlığa təsir amillərini cəmləyərək vahid bal və reytinq ilə qiymətləndirir. Hər bir göstərici üzrə ölkələr 0-100 aralığında balla qiymətləndirilir. İqtisadiyyatın azadlığı ilə insan kapitalının inkişafı arasında sıx əlaqənin olduğunu nəzərə alsaq, bu indeks ölkələr üzrə fərdin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir [7].

Müxtəlif indekslərlə yanaşı, fərdin iqtisadi təhlükəsizlik səviyyəsin qiymətləndirmək üçün sorğu vərəqələrindən də istifadə inkişaf etmiş ölkələrin təcrübəsində geniş yayılmışdır. Bu tip sorğularda fərdlərin gəlir mənbələri, gəlirlərin və ya iş yerinin etibarlıq səviyyəsi, xərclərinin strukturu, maliyyə (pul) ehtiyatları, çətin durumlarda yardım ala biləcəkləri yaxın əhatəsi, təhsil xərcləri, səhiyyə (sağlamlıq) xərcləri, səyahət və əyləncə xərcləri, xeyriyyə məqsədli xərclər, kommunal xərclər və digər mühüm məlumatlar öz əksini tapır. Bu məlumatların ümumi təhlili nəticəsində fərdin sosial-iqtisadi durumunu, o cümlədən iqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək mümkündür.

Müasir metodologiyadan istifadə etməklə çoxsaylı qlobal səviyyədə hazırlanan indekslər və sorğu materialları vasitəsilə müxtəlif ölkələrdə və cəmiyyətlərdə insan inkişafı üçün zəruri şəraiti təhlil etmək, onlarda təhlükəzilik mühitinin zəif və güclü tərəfləri haqqında məlumat almaq imkanı yaranır. Bu, fərdlərə öz maraqlarını təmin etmək və özünüinkişaf baxımından daha mütərəqqi mühit

seçmək və ya qabaqcıl təcrübədən istifadə etməklə rəqabətədavamlı, dayanıqlı təhlükəsizlik mühiti formalaşdırmağa imkan verir.

## Nəticə

Fərdin iqtisadi təhlükəsizliyi iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biri olmaqla, əslində onun bünövrəsini təşkil edir. O, cəmiyyətin və dövlətin iqtisadi təhlükəsizliyi ilə vəhdət təşkil edir. Bu mənada fərd öz maraqlarını cəmiyyətin və dövlətin maraqları ilə uzlaşdırmalıdır. Fərdin, cəmiyyətin və dövlətin maraqları birlikdə milli maraqları formalaşdırdığı üçün bütün tərəflər milli maraqlar naminə öz maraqları ilə kompromisə getməyə borcludurlar. Mövzu bütün dövrlər üçün daim aktual olduğuna görə hər zaman tədqiq olunmaqda və inkişaf etdirilməkdədir. Müxtəlif dövlət və qeyri-dövlət təşkilatları tərəfindən fərdin iqtisadi təhlükəsizliyi mövzusuna dair metodologiya və sorğu anketləri təkmilləşdirilir. Bir çox hallarda fərqli ölkələrdə fərdin iqtisadi təhlükəsizliyinin ümumi inkişaf mühitini qiymətləndirmək üçün ölkələrin sosial-iqtisadi inkişafının müxtəlif elementlərini özündə cəmləşdirən qlobal inkişaf indekslərinin nəticələrinə baxmaq kifayət edir. Əksər inkişaf etmiş ölkələrdə mütəmadi olaraq fərdlərin sosial-iqtisadi vəziyyətini qiymətləndirməyə imkan yaradan anket sorğularından istifadə olunur. Əsas məsələlərdən biri bütün əhali arasında fərdin iqtisadi təhlükəsizliyi haqqında onların maarifləndirilməsi məsələsidir. Çünki bir çox insanlar bu mövzu haqqında ya heç məlumatlı deyil, ya da çox az məlumata sahibdirlər. Bu, insanlara öz təhlükəsizlik mühitlərini əhatəli qiymətləndirməyə imkan vermir. İnsanlar yaşadıqları müddətdə verdikləri hər bir qərarın (hərəkətlərin, hərəkətsizliyin) onların ümumi təhlükəsizlik mühitinə, o cümlədən iqtisadi təhlükəsizlik mühitinə təsir imkanlarını qiymətləndirməyi bacarmalıdır. İqtisadi-maliyyə resurslarının daha zəngin və əlçatan olduğu ölkələrdə, fərdin iqtisadi təhlükəsizliyini təmin etmək imkanları da yüksəlir. Hər bir fərd özünün potensialını daha rahat və dolğun şəkildə reallaşdıra biləcəyi bir mühit tapmağa və ya yaratmağa cəhd edir. Müxtəlif maddi və qeyri-maddi resurslardan səmərəli istifadə sayəsində hər bir fərd, cəmiyyət və dövlət öz iqtisadi maraqlarını reallaşdırmağa, başqa sözlə öz iqtisadi təhlükəsizliyini təmin edə bilər. Bu mənada qloballaşma özü ilə xeyli sayda imkanlar gətirmiş, daha dayanıqlı inkişaf imkanları yaradan qlobal əməkdaşlıq və inkişaf mühiti yaratmışdır. Lakin bütün müsbət tərəfləri ilə bərabər, qloballaşma bəzi mənfi tendensiyaları da yaratmışdır: qlobal iqtisadi (maliyyə) böhranları, qlobal terrorizm, qlobal ekoloji fəlakətlər, miqrasiya problemləri, nüvə problemləri və s. Başqa sözlə, qlobal təhdid və təhlükələr. Müasir dövr fərdin iqtisadi maraqlarına nə qədər geniş imkanlar vəd edirsə, bir o qədər çox təhdid və təhlükələri özündə cəmləşdirir. Belə bir mürəkkəb şəraitdə fərdin öz iqtisadi təhlükəsizliyini qısa, orta və uzun müddətdə dayanıqlı şəkildə təmin edə bilməsi üçün daim özünü inkişaf etdirməli, bütün mümkün təhlükələrə qarşı operativ, effektli tədbirlər görməli, yaranmış imkanlardan səmərəli istifadə etməyi bacarmalıdır.

**Xaqani Məcidov**

**Fərdin iqtisadi təhlükəsizliyi: təhlükəsizlik mühitinə təhdidlər, müdafiə və qiymətləndirmə metodologiyası**

**Xülasə**

Məqalədə bütün dövrlər üçün aktual mövzulardan biri olan fərdin iqtisadi təhülkəsizliyi tədqiqat obyekti kimi qoyulmuşdur. Təhlükəsizlik mühiti dəyərləndirilmiş, ona təsir edən amillər qruplaşdırılmış, risklərə və təhdidlərə qarşı operativ və effektli tədbirlərin əhəmiyyəti qeyd edilmişdir. Müxtəlif ədəbiyyat və internet resurslarından istifadə etməklə fərdin iqtisadi təhlükəsizliyini qiymətləndirməyə imkan verən metodologiya haqqında məlumat verilmişdir. Nəticə olaraq, fərdin iqtisadi təhlükəsizliyinin təmin olunmasına töhfə verə biləcək bəzi təkliflər verilmişdir.

**Хагани Меджидов**

**Экономическая безопастность личности: угрозы среде безопасности, защита и методология оценки**

**Резюме**

Статья посвящена актуальной теме экономической безопасности личности. Была проведена оценка среды безопасности, сгруппированы факторы, влияющие на нее, и отмечена важность оперативных и эффективных мер против рисков и угроз.. Используя различную литературу и Интернет-ресурсы. Автор предоставил информацию о методологи, позволяющей оценить личную экономическую безопасность.  В результате были внесены некоторые предложения, реализация которых ногла бы способствовать личной экономической безопасности.

**Khagani Majidov**

**Economic security of the individual: threats to the security environment, protection and assessment methodology**

**Summary**

The article focuses on the economic security of the individual, which is one of the most important topics for all times. The security environment was assessed, the factors affecting it were grouped, and the importance of prompt and effective measures against risks and threats was noted. Information was provided on a methodology that allows the assessment of an individual's economic security using various literature and Internet resources. As a result, some suggestions have been made that could contribute to the economic security of the individual.

## Ədəbiyyat

1. https://www.revistaespacios.com/a18v39n24/a18v39n24p28.pdf
2. https://www.researchgate.net/publication/314707212_Current_research_approaches_to_economic_security
3. http://www3.weforum.org/docs/WEF_Forum_IncGrwth_2018.pdf
4. https://www.swissocial.org/filelinks/SEWI-Summary_13.05.13.pdf
5. https://www.oecd.org/sdd/43017172.pdf
6. http://hdr.undp.org/en/content/human-development-index-hdi
7. https://www.heritage.org/index/pdf/2021/book/02_2021_IndexOfEconomicFreedom_METHODOLOGY.pdf

Məqalə redaksiyaya daxil olmuşdur: 09.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 16.06.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

UOT: 336.2
DOI:10.338.70/2413-6557-2021-7-3-
JEL Classification Codes: O38, H2

# AZƏRBAYCANDA İNNOVASİYALI İNKİŞAF VƏ İNNOVATİV SAHİBKARLIĞIN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Zeynəb Qiyasova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*İqtisadiyyatın tənzimlənməsi kafedranın doktorantı*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: zqiyasova@gmail.com*

**Açar sözlər:** investisiyayönümlü büdcə xərcləri, innovativ inkişaf, innovativ sahibkarlıq, elmi-texniki tərəqqi, innovasiyayönümlü iqtisadiyyat.
**Ключевые слова:** инвестиционная направленность бюджетных расходов, инновационное развитие, инновационное предпринимательство, научно-технический прогресс, инновационная экономика.
**Keywords:** investment-oriented budget expenditures, innovative development, innovative entrepreneurship, scientific and technological progress, innovation-oriented economy.

İnnovasiya siyasəti cəmiyyətin inkişafında, rəqabətqabliyyətli istehsal prosesinə təkan verməkdə, əlverişli kommunikasiyanın qurulmasında, insanların həyat səviyyəsinin yüksəlməsində, həm də dövlətin iqtisadi inkişafının sürətlənməsində geniş rol oynayır. Ölkəmiz neftlə zəngin ölkə olduğundan bu sahədən əldə edilən gəlirlərdən digər sahələrin intensiv inkişafını təmin etməyə yönəldilir. İnnovasiya texnologiyalarına əsaslanan subyektlərin yaradılması ölkədə yerli məhsulların rəqabətqabliyyətliliyini artırır, istehsal olunan məhsulların beynəlxalq bazara çıxarılmasına səbəb olur. Bu da öz növbəsində istehsal prosesində yeni texnika və texnologiyaların tətbiqi nəticəsində əl əməyinə və vaxta qənaət etməklə ÜDM-in artımına ciddi təsir göstərir.

İnnovasiya siyasətinin əsas məqsədi innovasiya fəaliyyətini təşviq etmək, bu istiqamətdə bütün zəruri addımları atmaq, yerli sahibkarlara müasir texnologiya və texnoloji avadanlıqların əldə olunmasında yardım göstərmək, onların transferini təşkil etmək, innovasiyaya əsaslanan elmi tədqiqatları dəstəkləmək, innovativ layihələri, o cümlədən startapların maliyyə mexanizmlərini stimullaşdırmaq, onları qrant, güzəştli kredit və vençur vasitəsilə maliyyələşdirməkdir. Eyni zamanda İKT sektorunun davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması, yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasıdır [1].

İnnovativ fəaliyyətin səviyyəsini ölçmək üçün seçilən göstəricilər dünya təcrübəsinə əsaslanaraq aşağıdakı kimi xarakterizə olunur:

1) yenilikçi məhsulların həcmi
2) texnoloji yeniliyin dəyəri
3) əsas fondların dəyəri
4) əsas fondlara yatırımlar
5) aktiv patentlərin sayı [8].

**Cədvəl 1**

**Dövlətin innovasiya siyasətinin əsas istiqamətləri**

| A | B |
|---|---|
| **İnnovasiya siyasəti** | ▪ Korporativ araşdırma və inkişafa (bundan sonra A-İ) maliyyə və maliyyə təşviqləri;<br>▪ İnsan kapitalının inkişafı və xarici istedadların cəlb edilməsi;<br>▪ Tədqiqat infrastrukturunu inkişaf etdirmək, əməkdaşlığı təşviq etmək və əlaqələr qurmaq;<br>▪ Əqli mülkiyyət hüquqları rejimini təkmilləşdirmək; |

| A | B |
|---|---|
| **Daxili investisiya təşviqi** | ▪ A-İ xərclərini artırmağa yönəlik xarici investisiyaların, vençur kapitalının cəlbi və ölkənin imicini yaxşılaşdırmaq;<br>▪ A-İ-yə xas investisiya və tətbiqetmə xidmətləri baxımdan sonrakı xidmətləri təyin etmək;<br>▪ Siyasətin işləkliyi; |

Mənbə: Cədvəl müəllif tərəfindən araşdırmalara istinadən hazırlanmışdır.

Azərbaycan Respublikasında yeniliklərin inkişafı probleminin vacibliyini nəzərə alaraq, maliyyə alətləri vasitəsi ilə onların stimullaşdırılması imkanlarını hərtərəfli nəzərdən keçirməliyik. Bu səbəblər AR Dövlət Statistika Komitəsi tərəfindən ölkədəki əsas innovativ müəssisələrdə aparılmış anket sorğusunun nəticələri formasında aşağıdakı cədvəldə də tərtib olunmuşdur.




Şəkil 1. Sənaye müəssisələrində son 5 ildə innovasiyaya mane olan amilləri aşağıdakı kimi dəyərləndirən əsas innovativ müəssisələrin sayı [2]

Şəkil 1-dən də göründüyü kimi, innovasiyaya mane olan əsas səbəblərdən biri müəssisənin innovasiya fəaliyyətinin yaxşılaşdırılması üçün öz pul vəsaitinin kifayət qədər olmamasıdır. Məhz bu səbəbdən müəssisələrin araşdırma və inkişaf (A-İ) xərclərinə maliyyə yatırımı aşağıdır. Qlobal dünya iqtisadiyyatı portalının Dünya Bankının təqdim etdiyi məlumatlar əsasında açıqladığı rəqəmlərə diqqət yetirək:




Şəkil 2. Azərbaycanda A-İ xərclərinin vəziyyəti

Şəkil 2-dən aydın görünür ki, ölkəmizdə illər ərzində A-İ xərclərinin dinamikasının mənfi meyilliyi baş vermişdir. Belə ki, 1996-cı ildə ölkədəki şirkətlər tərəfindən araşdırma və inkişaf məqsədilə ayrılan xərclər ümumi xərclərin 0.24 faizini təşkil edirdisə, 2000-ci ildə bu göstərici nəzərəçarpacaq dərəcədə artmış və müvafiq olaraq ümumi xərclərin 0.34 faizini təşkil etmişdir [5]. Lakin illər ərzində bu göstəricidə azalmalar müşahidə olunmuşdur. Hesab edirik ki, bu neft iqtisadiyyatının inkişafının "Holland sindromu" effekti yaratması ilə əlaqədardır. Bu zaman müşayiət olunan qeyri-neft sektorunun payının azalması mikroiqtisadiyyatda daha çox idxal nəticəsində formalaşan istehsal prosesində araşdırma və inkişaf xərclərinə də tələbatın da azalmasına təsir göstərmişdir. Lakin son dövrlərdən etibarən post-neft dövrünün praktiki olaraq başladılması mikroiqtisadiyyatda araşdırma və inkişaf xərclərinə tələbatın genişlənməsinə səbəb olacaqdır.

Ölkəmizdə innovasiya fəaliyyəti ilə məşğul olan təşkilatların dinamikasının təhlili göstərir ki, texnoloji yeniliyin stimullaşdırılmasına yönəlmiş vergi güzəştləri, mexaniki baxımdan əsasən böyük biznes müəssisələrində istifadə edilə bilir. Statistik araşdırmalar zamanı həmçinin məlum olmuşdur ki, kiçik sahibkarlıq müəssisələrində yalnız 2%, orta və iri sahibkarlıq müəssisələrində isə 70-80% texnoloji yenilik həyata keçirilir.

Onların həqiqi tətbiqinin təhlili son dərəcə aşağı tələbi və ölkədə innovasiyanın inkişafına hər hansı bir təsir edə bilməməyini göstərir.




Şəkil 3. Ölkəmizdə innovasiya növlərinə görə çəkilən xərclər [2]

Qeyd: Şəkil müəllif tərəfindən AR DSK-nın məlumatlarına əsasən hazırlanmışdır.

Şəkil 3-dən göründüyü kimi, illər ərzində ölkəmizdə proses innovasiyasında azalma meyli müşahidə olunsa da, məhsul innovasiyasında artım müşahidə olunur. Bu innovativ inkişaf indeksini yüksəltmək üçün səmərəli göstərici hesab olunur. Çünki məhz ölkəmizdə proses innovasiyası idxal fəaliyyəti nəticəsində əldə olunduğuna görə kapitalın xaricə axınına səbəb olur və innovasiya fəaliyyətinin ÜDM-də gəlir artımı göstəricisini azaldır, lakin məhsul innovasiyası yerli istehsalın inkişafının, elm xərclərinin yüksəlməsinin, aktiv patent və əqli mülkiyyətin inkişafının səbəbi ola bilər.

Ölkədə innovasiyanın dərəcəsinin ölçülməsi dünya təcrübəsinə əsaslanaraq hazırda 5 əsas göstərici əsasında hesablanır:

1) Tədqiqat və inkişaf xərcləri (bilik ehtiyatını artırmaq və bu biliklərdən yeni tətbiqetmələr hazırlamaq üçün sistematik şəkildə həyata keçirilən yaradıcılıq işlərinə sərf olunan pullardır.)

2) İnformasiya texnologiyalarının ixracatı

3) Yüksək texnologiyanın ixracatı

4) Yüksək texnologiyaların ixracatı (ümumi istehsal ixracatının tərkibindəki faizi)

5) Patent müraciətləri




Şəkil 4. Ölkəmizdə innovasiya göstəriciləri rəqəmlərdə [5]

Qeyd: Şəkil müəllif tərəfindən Qlobal Dünya İqtisadiyyatı beynəlxalq portalının məlumatlarına əsasən hazırlanmışdır.

A-İ xərcləri üzrə 2019-cu ilin Azərbaycan üzrə nəticələri hələ ki, elan olunmamışdır. Həmçinin ölkə üzrə patent müraciətlərinin sayı 2016-cı ildə 144, 2017-ci ildə 204, 2018-ci ildə 155 olmuşdur.

Elm, texnologiya və innovasiya siyasətinin bir hissəsi kimi fiskal stimullar getdikcə daha çevik şəkildə tətbiq olunaraq geniş hədəf spektrinə çatmaq üçün həm də inzibati yolla istifadəsinə nəzarəti həyata keçirməyi zəruri edir [3].

Azərbaycanda və regionlarda iqtisadi güzəştlər, biznes xidmətləri və qabaqcıl avadanlıqlardan təşkil olunmuş əlverişli şəraitin hesabına yüksək texnologiya iqtisadiyyatını inkişaf etdirməklə ölkədə fəaliyyət göstərən startap layihələrinin müəlliflərinin daxili və xarici mənbələr hesabına investisiya təminatına dəstək vermək mümkündür.

Ölkəmizdə innovasiya siyasətinə təkan vermək üçün aşağıdakı istiqamətlərdə tədbirlərin reallaşdırılması vacibdir:

- elmi müəssisələrin qapalı xarakterinin azaldılması, yəni onların perspektiv layihə və işləmələri barədə cəmiyyətdə informasiyaların artırılması;
- vençur sahibkarları üçün qəbul edilən riski təmin edən yüksək texnoloji sektorun müəssisələrinə birbaşa investisiyaların cəlb olunması üçün iqtisadi stimulların yaradılması;
- kiçik və orta sahibkarlıq sahəsində vençur biznesinin nüfuzunun artırılması;
- vençur kapitalı ilə innovasiya biznesinin qarşılıqlı effektiv əməkdaşlığını təmin edən infrastrukturun inkişafının təmin edilməsi;
- ölkədə vençur kapitalı mənbələrinin sayının artırılması;
- riskli kapital qoyuluşu fəaliyyətinin zəifliyi və bunun üçün lazımi bazar mexanizmlərinin yaradılması;
- kiçik bilik tutumlu biznes sferasında kommersiya fəaliyyətinin yaxşılaşdırılması;
- innovasiya layihələrinin idarə edilməsi üzrə ixtisaslı kadrların təminatı və s. [6].

Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- Azad rəqabət mühitinin inkişaf etdirilməsi;
- Səmərəli vergi sisteminin təşviq edilməsi;
- Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyinin artırılması;
- Azad ticarət sazişlərinin bağlanması (logistik nailiyyət indeksi);
- Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi [4].

Azərbaycanda innovasiya fəallığının formalaşdırılmasında mühüm şərtlərdən biri innovasiya sahibkarlığının maliyyələşdirilməsi işinin təşkili zamanı beynəlxalq standartlara uyğun səmərəli investisiyalaşdırma formalarının seçilməsi və təcrübədə effektiv tətbiqi hesab edilir. Məhz bu

səbəbdən müvafiq istiqamətdə dövlət iqtisadi siyasətini müəyyənləşdirərkən həmin maliyyələşdirmə formalarının innovasiya fəallığına təsir göstərməsi baxımından üstünlüyü əsaslandırılmalı, onların ölkədə tətbiq edilməsi imkanları aşkar olunmalıdır [7]. Səmərəli innovasiya siyasəti keyfiyyətli dövlət idarəetmə strukturu və təkmilləşmiş biznes mühiti islahatlarını tələb edir. İqtisadi artımın tempinin aşağı düşdüyü dövrdə xüsusilə texnologiya transferi və bəzi seçilmiş sahələrdə A-İ xərclərini stimullaşdıran tədbirlərə ehtiyac yaranır.

**Cədvəl 2**

**İnnovasiyalı inkişafın GZİT təhlili**

| **GÜCLÜ TƏRƏFLƏR** | **ZƏİF TƏRƏFLƏR** |
| --- | --- |
| Strengths<br>– İKT infrastrukturunun inkişafı<br>– İnnovasiya klasterləri texnoloji parklar<br>– Gənc əhalinin sayca çox olması | Weakness<br>– Vençur kapital yetərsizliyi<br>– Ali məktəblərdə texnoloji ixtisaslar üzrə kadr yetərsizliyi<br>– Yüksək texnologiya istehsal edən sahibkarlıq müəssisələrinin olmaması<br>– Startap inkubatorlarının davamlı dəstək verə bilməməsi |
| **İMKANLAR** | **TƏRƏDDÜDLƏR** |
| Opportunity<br>– Dövlət dəstəyi<br>– ASAN Xidmət strukturunun mövcudluğu və İnnoland inkişaf mərkəzi<br>– İPR (İntellectual property Rights - Əqli mülkiyyət hüququ) menecmenti və agentliyinin mövcudluğu<br>– KOBIA agentliyinin mövcudluğu<br>– Texnologiya parklarına tətbiq olunmuş vergi güzəştləri<br>– Yeni xarici bazarlar<br>– Yeni nəqliyyat dəhlizləri | Threats<br>– Pandemiya sonrası iqtisadi böhran<br>– Ali məktəblərlə sənaye sektorunun əlaqələrinin qurula bilməməsi |

Tədqiqat işində ölkəmizdə innovasiyalı iqtisadiyyatın maliyyələşdirilməsi infrastrukturunun qurulmasının əsas vəzifə və prinsipləri aşağıdakı kimi müəyyən olunmuşdur.

**Cədvəl 3**

**Azərbaycanda innovasiya sahəsinin maliyyə infrastrukturunun formalaşdırılmasının vəzifə və prinsipləri**

| **Maliyyə infrastrukturunun formalaşdırılması vəzifələri** | **İnnovasiya prosesinin maliyyələşdirilməsinin prinsipləri** |
| --- | --- |
| innovasiya prosesinin sürətləndirilməsi istiqamətində institusional-maliyyə şəraitinin yaradılması; | innovasiyanın tətbiqi müddətlərini minimumlaşdırmaq və əldə edilən effekti maksimumlaşdırmaq istiqamətində fəaliyyətləri planlaşdırmaq; |
| xarici ölkələrə miqrasiya etmiş Azərbaycanlı alimlərin geri qayıtması istiqamətində stimullaşdırıcı tədbirlərin görülməsi; | innovasiya prosesində bütün mexanizm və mərhələləri mövcud institusional və normativ hüquqi normalara uyğunlaşdırmaq; |
| elmi-texniki potensialın və elmi-texniki tədqiqatın aparıcı istiqamətləri üzrə potensialın bərpa olunması; | innovasiyaların maliyyələşdirilməsi mənbələrinin mümkün geniş spektri və onların optimal surətdə əlaqələndirilməsi; |
| innovasiyanın hazırlanması və praktiki surətdə reallaşdırılması prosesində kompleksliliyin təmin edilməsi. | innovasiyanın hazırlanması və praktiki surətdə reallaşdırılması prosesində kompleksliliyin təmin edilməsi. |

Qeyd: Sxem müəllif tərəfindən dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi və ölkəmizin mövcud reallıqları nəzərə alınaraq hazırlanmışdır.

İnnovasiya siyasəti beynəlxalq iqtisadi, siyasi trendləri də xüsusilə nəzərə almalıdır. Dünya ölkələrində artırılan A-İ xərcləmələrinin həcminə əsasən məlum olur ki, yaxın 5 il ərzində dünyada öncül sektorlar süni intellekt, böyük məlumat bazaları ilə iş ("big data analysis"), bionanotexnologiya, biomühəndislik, bərpa olunan enerji, proqram təminatı, robot sənayesi, fərdi tibbi diaqnostika alətləri kimi sahələr olacaqdır.

Azərbaycan Cənub-Şərqi Asiya ölkələrinin (Cənubi Koreya, Tayvan) təcrübəsi əsasında 10-15 il müddətində qısamüddətli texnologiyalar sahəsində ixtisaslaşdıqdan sonra tələb olunan texnoloji bacarıq və vərdişləri toplayaraq daha innovativ məhsulların istehsal edilməsi strategiyasına keçə bilər. Qısamüddətli texnologiyalar sahəsində müəyyən müddətdə qalmaq və ixtisaslaşmaq dövlətə innovasiya xərclərini, A-İ sektorunda çalışan alim və tədqiqatçıların sayını artırmaq imkanı vermiş olar.

## Nəticə

Beləliklə, qeyd edilənlərdən ümumi nəticəyə gəlmək olar ki, ölkəmizdə innovativ inkişafın fiskal mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı konkret xərc istiqamətlərinin seçilməsi vacibdir. Əsasən 3 istiqamətdə təkmilləşdirilən bu xərclər ölkədə elm xərclərinin, texnologiya, eləcə də müasir innovativ avadanlıqlara yatırılan investisiyaların və eyni zamanda elektron hökumətin təkmilləşdirilməsinə yönəldilən xərclər formasında həm mikro, həm də makroiqtisadiyyatda innovasiya göstəricilərinin yaxşılaşmasına səbəb olacaqdır.

İnnovasiya fəallığının formalaşdırılmasında mühüm şərtlərdən biri innovativ sahibkarlığın maliyyələşdirilməsi işinin təşkili zamanı beynəlxalq standartlara uyğun səmərəli investisiyalaşdırma formalarının seçilməsi və təcrübədə effektiv tətbiqidir. Məhz bu səbəbdən müvafiq istiqamətdə dövlət iqtisadi siyasətini müəyyənləşdirərkən həmin maliyyələşdirmə formalarının innovasiya fəallığına təsir göstərməsi baxımından üstünlüyü əsaslandırılmalı, onların respublikada tətbiq edilməsi imkanları aşkar olunmalıdır. Səmərəli innovasiya siyasəti keyfiyyətli dövlət idarəetmə strukturu və təkmilləşmiş biznes mühiti islahatlarını tələb edir.

**Zeynəb Qiyasova**

**Azərbaycanda innovasiyalı inkişaf və innovativ sahibkarlığın təkmilləşdirilməsi**

**Xülasə**

Məqalədə Azərbaycanda innovasiyalı inkişaf və innovativ sahibkarlığın təkmilləşdirilməsi ilə bağlı vəziyyət təhlil olunur. Təhlilə əsasən innovasiyalı inkişafı müəyyən edən göstəricilərin dünya təcrübəsinə əsasən Azərbaycan üzrə payı statistik cədvəllərlə verilmişdir. Bundan başqa, dövlətin innovasiya siyasətinin əsas istiqamətləri, ölkəmizdə sənaye müəssisələrində innovasiyaya mane olan amillərin son 5 illik zaman sıxlığında müqayisəsi, innovasiyaya çəkilən xərclərə toxunulmuşdur. Tədqiqat-inkişaf xərclərinin stimullaşdırılması üzrə əsas tədbirlər planını həyata keçirmək məqsədilə innovasiyalı inkişafın GZİT (SWOT – ingiliscə) təhlili aparılmışdır. Azərbaycanda innovasiya sahəsinin maliyyə infrastrukturunun formalaşdırılmasının vəzifə və prinsiplərinə toxunulmuş, innovasiyalı inkişafın əsasında təkmilləşəcək innovativ sahibkarlıq məsələlərindən bəhs olunmuşdur.

**Зейнаб Гиясова**

**Совервщенствование инновационного развития и инновационного предпринимательства в Азербайджане**

**Резюме**

В статье анализируется ситуация с инновационным развитием и совершенствованием инновационного предпринимательства в Азербайджане. Согласно проведенному анализу на основе мирового опыта показана, доля показателей, определяющих инновационное развитие в Азербайджане.. Кроме того, были затронуты основные направления государственной инновационной политики, приведены сравнения факторов, сдерживающих инновации на промышленных предприятиях страны за последние 5 лет, оценены расходы на инновациис. SWOT анализ инновационного развития проводился с целью реализации основного плана

действий по стимулированию затрат на исследования и разработки. Были затронуты задачи и принципы формирования финансовой инфраструктуры инновационной деятельности в Азербайджане, обсуждены вопросы инновационного предпринимательства, которые будут совершенствоваться на основе инновационного развития.

**Zeynab Giyasova**

**İmproving innovative activities in Azerbaijan**

**Summary**

The article analyzes the situation with innovative development and improvement of innovative entrepreneurship in Azerbaijan. According to the analysis, the share of indicators determining innovative development in Azerbaijan based on the world experience is given in statistical tables. In addition, the main directions of the state's innovation policy, the comparison of factors hindering innovation in industrial enterprises in our country over the past 5 years, the cost of innovation were touched upon. SWOT analysis of innovative development was conducted in order to implement the main action plan to stimulate research and development costs. The tasks and principles of the formation of the financial infrastructure of innovation in Azerbaijan were touched upon, the issues of innovative entrepreneurship to be improved on the basis of innovative development were discussed.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifəsi. https://mincom.gov.az/az/view/organization/16/
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az/
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsi. http://www.maliyye.gov.az/
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. https://economy.gov.az/
5. https://www.theglobaleconomy.com/
6. A.D.Hüseynova. Azərbaycanda vençur kapitalının inkişaf problemləri // AMEA Xəbərləri. Elm və İnnovasiya seriyası, 2010, №1, s. 21-22.
7. Y.A.Kəlbiyev. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri(monoqrafiya). Bakı: Elm. 2005. 468 s.
8. Guimón J. Government strategies to attract R&D-intensive FDI //The Journal of Technology Transfer. 2009. T. 34. №. 4. p. 364-379.

Məqalə redaksiyaya daxil olmuşdur: 30.06.2021
Təkrar işlənməyə göndərilmişdir: 05.07.2021
Çap üçün qəbul olunmuşdur: 27.08.2021

***2021-Cİ İLİN I YARIMİLLİYİ ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR***

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2021-ci ilin yanvar-iyun ayları, faktiki | 2021-ci ilin yanvar-iyun ayları 2020-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə | Məlumat üçün 2020-ci ilin yanvar-iyun ayları 2019-cu ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **39 915,0** | **102,1** | **97,3** |
| o cümlədən | | | |
| qeyri neft-qaz ÜDM | 25 637,0 | 105,1 | 97,5 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **3 987,6** | **101,6** | **96,6** |
| **Sənaye məhsulu, milyon manat** | **23 095,3** | **99,7** | **98,5** |
| o cümlədən | | | |
| qeyri neft-qaz sənayesi | 6 876,1 | 116,6 | 111,2 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **5 919,4** | **92,4** | **97,3** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 3 178,2 | 88,7 | 84,5 |
| ondan qeyri neft-qaz sənayesinə | 479,0 | 70,9 | 74,3 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **4 370,4** | **105,6** | **102,2** |
| o cümlədən: bitkiçilik | 2 216,7 | 108,9 | 101,1 |
| heyvandarlıq | 2 153,7 | 102,4 | 103,2 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **92,2** | **95,8** | **85,9** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **555,1** | **80,5** | **71,3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 100,2** | **105,5** | **104,4** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **19 383,1** | **101,7** | **98,1** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **3 535,1** | **102,3** | **80,8** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **11 755,0** | **97,8** | **115,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **11 590,5** | **98,8** | **107,1** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **164,5** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **27 580,7** | **100,4** | **100,6** |

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **2 755,4** | **99,9** | **99,8** |
| **Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 iyun vəziyyətinə, milyon manat** | **8 635,2** | **112,7** | **88,8** |
| **Kredit qoyuluşları, 2021-ci il 01 iyun vəziyyətinə, milyon manat** | **15 067,1** | **102,0** | **111,9** |
| o cümlədən | | | |
| vaxtı keçmiş kreditlər | 906,9 | 83,6 | 72,6 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **724,0*** | **99,3**** | **124,9***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **104,3** | **103,0** |
| **Əhalinin sayı, 2021-ci il 01 iyun vəziyyətinə, min nəfər** | **10 135,3** | **100,5** | **100,8** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **11 957,6*** | **121,3**** | **70,2***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **89,8**** | **81,3***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 7 564,7* | 132,8** | 69,4*** |
| müqayisəli qiymətlərlə | x | 92,2** | 98,4*** |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 907,6* | 125,8** | 91,1*** |
| müqayisəli qiymətlərlə | x | 111,9** | 85,5*** |
| idxal | | | |
| faktiki qiymətlərlə | 4 392,9* | 105,5** | 71,4*** |
| müqayisəli qiymətlərlə | x | 86,6** | 57,3*** |

**Qeyd:**
* 2021-ci ilin yanvar-may ayları
** 2021-ci ilin yanvar-may ayları 2020-ci ilin yanvar-may aylarına nisbətən.
*** 2020-ci ilin yanvar-may ayları 2019-cu ilin yanvar-may aylarına nisbətən.

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## ÜMUMİ DAXİLİ MƏHSUL İSTEHSALI

milyon manat

| | Yanvar-iyun | | 2021-ci ilin yanvar-iyun ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2021 | 2020*) | |
| **Ümumi Daxili Məhsul** | **39915,0** | **34378,7** | **102,1** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2551,9 | 2410,0 | 105,7 |
| Sənaye | 15931,0 | 11956,0 | 98,3 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 12891,9 | 9423,4 | 94,1 |
| emal sənayesi | 2519,2 | 2066,1 | 116,4 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 431,6 | 399,1 | 101,2 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 88,3 | 67,4 | 111,2 |
| Tikinti | 2042,1 | 2034,3 | 98,9 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 4099,4 | 3792,0 | 102,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2896,5 | 2452,0 | 109,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 397,1 | 418,9 | 93,1 |
| İnformasiya və rabitə | 728,4 | 690,7 | 105,5 |
| Digər sahələr | 7544,4 | 7076,6 | 104,2 |
| **Məhsula və idxala xalis vergilər** | **3724,2** | **3548,2** | **104,9** |

*) 2020-ci ilin yanvar-iyun aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

## MALİYYƏ MƏNBƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR

| | 2021-ci ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **5919,4** | **92,4** | **100,0** |
| o cümlədən:<br>Müəssisə və təşkilatların vəsaitləri | 3575,0 | 89,4 | 60,4 |
| Bank kreditləri | 354,6 | 92,0 | 6,0 |
| Büdcə vəsaitləri | 1130,3 | 84,0 | 19,1 |
| Büdcədənkənar dövlət fondlarının vəsaitləri | - | - | - |
| Əhalinin şəxsi vəsaiti | 426,5 | 106,6 | 7,2 |
| Sair vəsaitlər | 433,0 | 3,3 d. | 7,3 |

## İQTİSADİYYATIN SAHƏLƏRİ ÜZRƏ ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏRİN DƏYƏRİ

| İqtisadiyyatın sahələri | 2021-ci ilin yanvar-iyun aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **5919,4** | **92,4** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **133,2** | **74,3** | **2,3** |
| **Sənaye** | **3220,2** | **92,1** | **54,4** |
| o cümlədən: | | | |
| Mədənçıxarma sənayesi | 2362,1 | 86,7 | 39,9 |
| Emal sənayesi | 746,0 | 147,5 | 12,6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 97,3 | 73,0 | 1,6 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 14,8 | 11,2 | 0,3 |
| **Tikinti** | **1184,6** | **91,6** | **20,0** |
| ondan mənzil tikintisi | 469,0 | 73,9 | 7,9 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **87,5** | **190,4** | **1,5** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **786,2** | **110,7** | **13,3** |
| o cümlədən: | | | |
| nəqliyyat | 786,1 | 110,7 | 13,3 |
| poçt və kuryer fəaliyyəti | 0,1 | 61,6 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **79,7** | **147,4** | **1,3** |
| **İnformasiya və rabitə** | **48,5** | **56,5** | **0,8** |
| ondan rabitə | 46,3 | 59,4 | 0,8 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **11,9** | **64,3** | **0,2** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **0,4** | **42,2** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **160,5** | **71,5** | **2,7** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **18,9** | **69,1** | **0,3** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **83,0** | **64,0** | **1,4** |
| **Təhsil** | **72,5** | **98,0** | **1,2** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **23,1** | **76,0** | **0,4** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **6,4** | **30,8** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **2,8** | **22,9** | **0,1** |

## PƏRAKƏNDƏ TİCARƏT DÖVRİYYƏSİNİN MƏHSULLAR ÜZRƏ STRUKTURU

| | 2021-ci ilin yanvar-iyun ayları, milyon manat | 2021-ci ilin yanvar-iyun ayları 2020-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **19 383,1** | **101,7** |
| o cümlədən:<br>ərzaq məhsulları, içkilər və tütün məmulatları | 10 436,8 | 102,3 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 2 764,3 | 101,0 |
| elektrik malları və mebellər | 1 026,6 | 100,2 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 149,9 | 107,4 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 433,9 | 135,2 |
| avtomobil benzini və dizel yanacağı | 1 192,6 | 103,0 |
| digər qeyri-ərzaq malları | 3 379,0 | 97,5 |

## İQTİSADİYYATA KREDİT QOYULUŞU

| | 2021-ci il iyunun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 15067,1 | 102,0 |
| o cümlədən:<br>qısamüddətli | 2605,7 | 101,1 |
| uzunmüddətli | 12461,4 | 102,2 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 906,9 | 83,6 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, faizlə | 6,0 | x |

## DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

| | 2021-ci ilin yanvar-may ayları, milyon manat * | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Gəlirlər – cəmi** | **9740,9** | **100,0** | **30,9** |
| o cümlədən: | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 480,8 | 4,9 | 1,5 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1578,0 | 16,2 | 5,0 |
| Torpaq vergisi | 10,5 | 0,1 | 0,03 |
| Əmlak vergisi | 83,6 | 0,9 | 0,3 |
| Əlavə dəyər vergisi | 2063,7 | 21,2 | 6,6 |
| Sadələşdirilmiş vergi | 127,3 | 1,3 | 0,4 |
| Aksiz | 417,5 | 4,3 | 1,3 |
| Yol vergisi | 44,4 | 0,5 | 0,1 |
| Mədən vergisi | 55,3 | 0,6 | 0,2 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 530,1 | 5,4 | 1,7 |
| Digər daxilolmalar | 4349,7 | 44,6 | 13,8 |

* Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla ilkin məlumatlar əsasında

## DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

| | 2021-ci ilin yanvar-may ayları, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Xərclər – cəmi** | **9366,2** | **100,0** | **29,7** |
| o cümlədən: | | | |
| Ümumi dövlət xidmətləri | 1314,0 | 14,0 | 4,2 |
| Müdafiə və milli təhlükəsizlik | 1791,9 | 19,1 | 5,7 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq | 710,4 | 7,6 | 2,2 |
| Təhsil | 1129,6 | 12,1 | 3,6 |
| Səhiyyə | 723,7 | 7,7 | 2,3 |
| Sosial müdafiə və sosial təminat | 1516,2 | 16,2 | 4,8 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 133,0 | 1,4 | 0,4 |
| Mənzil və kommunal təsərrüfatı | 54,6 | 0,6 | 0,2 |
| Kənd təsərrüfatı | 364,5 | 3,9 | 1,2 |
| Ətraf mühitin mühafizəsi | 55,8 | 0,6 | 0,2 |
| İqtisadi fəaliyyət | 1176,2 | 12,6 | 3,7 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 396,3 | 4,2 | 1,2 |

## NƏQLİYYAT SEKTORUNDA YÜK DÖVRİYYƏSİ

| | 2021-ci ilin yanvar-iyun aylarında | 2020-ci ilin müvafiq dövründə | 2020-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **39 643,9** | **40 769,6** | **97,2** |
| o cümlədən: | | | |
| Dəmir yolu | 2 636,1 | 2 436,4 | 108,2 |
| Dəniz | 1 571,4 | 1 656,0 | 94,9 |
| Hava | 1 142,7 | 927,7 | 123,2 |
| Boru kəməri | 28 581,4 | 30 103,7 | 94,9 |
| neft kəməri | 23 563,2 | 26 276,5 | 89,7 |
| qaz kəməri | 5 018,2 | 3 827,2 | 131,1 |
| Avtomobil | 5 712,3 | 5 645,8 | 101,2 |

## NƏQLİYYAT SEKTORUNDA SƏRNİŞİN DÖVRİYYƏSİ

| | 2021-ci ilin yanvar-iyun aylarında | 2020-ci ilin müvafiq dövründə | 2020-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **9 150,3** | **10 747,0** | **85,1** |
| o cümlədən:<br>Dəmir yolu | 47,0 | 132,3 | 35,5 |
| Dəniz | 3,0 | 3,9 | 76,9 |
| Hava | 736,7 | 747,8 | 98,5 |
| Metro | 122,9 | 707,4 | 17,4 |
| Avtomobil | 8 240,7 | 9 155,6 | 90,0 |
| avtobus | 7 291,5 | 8 626,4 | 84,5 |
| taksi | 949,2 | 529,2 | 179,4 |

## AZƏRBAYCANIN TƏRƏFDAŞ ÖLKƏLƏRLƏ XARİCİ TİCARƏT GÖSTƏRİCİLƏRİ*

min ABŞ dolları

| Ölkələrin adı | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **11820174,0** | **4392884,0** | **7427290,0** |
| o cümlədən:<br>İtaliya | 2886319,2 | 155363,3 | 2730955,9 |
| Türkiyə | 1867447,5 | 660432,6 | 1207014,9 |
| Rusiya Federasiyası | 1059322,5 | 767961,7 | 291360,8 |
| Çin | 677905,2 | 556909,4 | 120995,8 |
| Hindistan | 417012,2 | 66890,3 | 350121,9 |
| Gürcüstan | 379037,8 | 30381,8 | 348656,0 |
| Ukrayna | 373552,1 | 177578,0 | 195974,1 |
| İspaniya | 371507,2 | 29137,0 | 342370,2 |
| Almaniya | 333231,0 | 287847,7 | 45383,3 |
| İsrail | 287870,7 | 10201,3 | 277669,4 |
| Birləşmiş Krallıq | 253276,4 | 117246,1 | 136030,3 |
| Amerika Birləşmiş Ştatları | 222417,0 | 192886,4 | 29530,6 |
| Portuqaliya | 198369,3 | 4741,4 | 193627,9 |
| Tunis | 191763,2 | 1206,8 | 190556,4 |
| Xorvatiya | 177997,7 | 798,1 | 177199,6 |
| Belarus | 175759,2 | 50647,4 | 125111,8 |
| İran İslam Respublikası | 167487,0 | 155891,8 | 11595,2 |
| Tailand | 155286,3 | 21166,3 | 134120,0 |
| İsveçrə | 129163,5 | 38065,8 | 91097,7 |
| Yaponiya | 92506,6 | 86016,6 | 6490,0 |
| Koreya Respublikası | 89683,1 | 89663,5 | 19,6 |
| Fransa | 74979,7 | 73913,5 | 1066,2 |
| Kanada | 72077,1 | 4884,4 | 67192,7 |
| Braziliya | 71144,3 | 69250,5 | 1893,8 |
| Rumıniya | 65038,2 | 25142,5 | 39895,7 |
| Digər ölkələr | 1030020,0 | 718659,8 | 311360,2 |

*Gömrük məlumatı

## İXRAC OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2021-ci ilin yanvar-may aylarında | | 2020-ci ilin yanvar-may aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| Təzə tərəvəz, ton | 86492,4 | 96632,1 | 72,7 | 72,9 |
| Təzə meyvə, ton | 76913,4 | 87241,9 | 151,6 | 109,2 |
| Kartof, ton | 49978,5 | 21357,7 | 88,5 | 92,0 |
| Çay, ton | 481,6 | 3684,8 | 77,2 | 88,9 |
| Bitki yağları, ton | 7036,7 | 8365,1 | 143,3 | 1,9 d. |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 1200,9 | 1548,0 | 70,6 | 84,8 |
| Şəkər, ton | 31670,2 | 16255,0 | 2,2 d. | 2,7 d. |
| Meyvə və tərəvəz konservləri, ton | 3332,9 | 3925,8 | 123,6 | 103,7 |
| Meyvə və tərəvəz şirələri, ton | 5508,6 | 6469,3 | 115,1 | 91,4 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 106,6 | 1296,6 | 114,5 | 97,6 |
| Tütün, ton | 854,2 | 2106,3 | 45,8 | 47,9 |
| Bentonit gili, ton | 68385,0 | 3933,7 | 98,3 | 97,7 |
| Xam neft, min ton | 11921,2 | 4927241,3 | 86,6 | 97,2 |
| Xam neft, min ton (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 11777,3 | 5166234,0 | 93,7 | 143,6 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 13229,8 | 6394,6 | 24,3 | 20,2 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, min ton | 452,2 | 196503,2 | 112,6 | 2,1 d. |
| Maye qaz, ton | 31105,3 | 7115,2 | 1,9 d. | 2,8 d. |
| Təbii qaz, mlyn. kubmetr | 9174,6 | 1335749,1 | 1,7 d. | 128,6 |
| Təbii qaz, mlyn. kubmetr (ARDNŞ və ABƏŞ-in məlumatlarına əsasən) | 7655,9 | 1234117,9 | 134,8 | 99,9 |
| Neft koksu, min ton | 133,0 | 7978,4 | 3,1 d. | 2,6 d. |
| Polietilen, ton | 53351,2 | 61427,8 | 89,1 | 1,6 d. |
| Pambıq lifi, ton | 71499,7 | 108582,8 | 2,1 d. | 2,2 d. |
| Pambıq ipliyi, ton | 6463,0 | 17839,6 | 1,6 d. | 1,9 d. |
| Qara metallardan borular, ton | 9097,2 | 6679,1 | 98,3 | 97,1 |
| Qara metallardan yarımfabrikatlar, ton | 29955,4 | 14779,2 | - | - |
| Emal olunmamış alüminium, ton | 8921,1 | 18994,3 | 74,1 | 93,2 |

## İDXAL OLUNAN MÜHÜM NÖV MƏHSULLAR

| Malların adı | 2021-ci ilin yanvar-may aylarında | | 2020-ci ilin yanvar-may aylarına nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min dollar) | miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 2825,4 | 10546,3 | 58,3 | 57,4 |
| Quş əti və onun əlavə məhsulları, ton | 9581,0 | 11770,3 | 62,0 | 66,3 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 6726,0 | 32738,2 | 93,4 | 91,3 |
| Kartof, min ton | 103,7 | 25850,1 | 114,7 | 104,7 |
| Təzə tərəvəz, ton | 28518,3 | 14222,9 | 146,5 | 140,9 |
| Təzə meyvə, ton | 64287,4 | 59383,0 | 98,6 | 101,1 |
| Çay, ton | 5760,5 | 22945,3 | 106,7 | 113,1 |
| Buğda, min ton | 392,2 | 99808,5 | 114,7 | 133,8 |
| Bitki yağları, ton | 52799,7 | 70112,7 | 90,9 | 137,9 |
| Xam şəkər və şəkər, min ton | 128,4 | 58091,9 | 100,8 | 133,4 |
| Siqaretlər, mlyn. ədəd | 423,4 | 9471,5 | 99,9 | 114,2 |
| Sement və sement klinkerləri, ton | 8048,6 | 1534,0 | 55,6 | 57,1 |
| Dərman vasitələri, ton | 9528,5 | 173891,2 | 100,4 | 128,9 |
| Mineral gübrələr, ton | 89121,4 | 23644,2 | 59,4 | 55,7 |
| Polietilen, ton | 8823,3 | 11082,3 | 53,5 | 63,2 |
| Rezin şinlər, min ədəd | 994,9 | 33597,9 | 1,6 d. | 128,8 |
| Polad prokatı, ton | 73476,6 | 66796,4 | 49,3 | 58,2 |
| Qara metallardan çubuqlar, ton | 30286,1 | 19522,2 | 33,7 | 39,5 |
| Qara metallardan künclüklər, ton | 10434,2 | 10269,9 | 71,0 | 92,1 |
| Qara metallardan borular, ton | 42613,3 | 72852,3 | 62,8 | 65,3 |
| Məişət kondisionerləri, ədəd | 78581 | 20543,8 | 128,5 | 140,2 |
| Məişət soyuducuları, ədəd | 15594 | 4986,8 | 124,7 | 138,1 |
| Paltaryuyan maşınlar, ədəd | 88320 | 18655,5 | 132,1 | 149,4 |
| Hesablama maşınları, blok və qurğuları, min ədəd | 279,4 | 51380,7 | 113,1 | 125,8 |
| Minik avtomobilləri, ədəd | 28840 | 274300,8 | 1,6 d. | 134,6 |
| Avtobuslar, ədəd | 51 | 4625,2 | 71,8 | 61,3 |
| Yük avtomobilləri, ədəd | 2286 | 33374,7 | 2,1 d. | 1,9 d. |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, min ədəd | 273,1 | 22031,9 | 124,6 | 122,2 |

### *ABİDOV FİKRƏT CABBAR OĞLU (anadan olmasının 95 illiyinə)*



Azərbaycan statistika tarixində öz dəsti xətti ilə iz qoymuş, siyasi rəhbər kimi deyil, statistika mütəxəssisi kimi çalışmış Fikrət Cabbar oğlu Abidov 27 sentyabr 1926-cı ildə Şəkidə müəllim ailəsində anadan olmuşdur. O, 1943-cü ildə Şəki Pedaqoji Texnikumunu bitirərək həmin ildə ikiillik Müəllimlik İnstitutunun fizika-riyaziyyat fakültəsinə, 1945-ci ildə isə Bakıda K.Marks adına Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdur.

Fikrət Abidov Xalq Təsərrüfatı İnstitutunu bitirdikdən sonra 1949-cu ildə SSRİ Mərkəzi Statistika İdarəsinin Bakı şəhəri Orconikidze (indiki Suraxanı) rayonuna statistika müfəttişi vəzifəsinə təyin edilir. Bu vəzifədə çalışdığı dövr ərzində işini layiqincə icra etməsi, qarşısında qoyulan məsələləri intizamlı və yüksək səviyyədə yerinə yetirməsi Bakı Vilayət Statistika İdarəsinin rəisi N.Tağızadənin nəzərindən yayınmamış, onun təklifi ilə 1952-ci ildə Azərbaycan SSR Statistika İdarəsinin rəisi Səməd Süleymanov tərəfindən Bakı Vilayət Statistika İdarəsinin Sənaye, logistika, nəqliyyat və rabitə statistikası şöbəsinə müdir vəzifəsinə təyin edilmişdir. 1953-cü ilin may ayında Bakı Vilayət Statistika İdarəsinin bağlanması ilə əlaqədar olaraq, o, Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin Əsaslı tikinti və mənzil-kommunal təsərrüfatı statistikası şöbəsinin müdiri vəzifəsinə təyin olunur.

1956-cı ildə böyük fasilədən sonra II Dünya Müharibəsi ilə əlaqədar olaraq dayandırılmış statistik məlumatların dərc olunmasının yenidən həyata keçirilməsinə başlanmışdır. F.Abidovun təşəbbüsü, rəhbərliyi və birbaşa iştirakı ilə “Azərbaycanda əsaslı tikinti” statistik məcmuəsi hazırlanaraq dərc olunmuşdur. Əsaslı tikinti və mənzil-kommunal təsərrüfatı şöbəsi onun rəhbərliyi dövründə dəfələrlə SSRİ-nin müttəfiq respublikaları arasında keçirilən yarışlarda birinci yerə layiq görülmüşdür. O, Əsaslı tikinti və mənzil-kommunal təsərrüfatı statistikasına dair təlimat və metodologiyaların hazırlanmasında fəal iştirak etmiş, SSRİ MSİ-nə bu istiqamətdə öz təkliflərini göndərmişdir. 1959-cu il Əhalinin Ümumittifaq siyahıyaalınmasına hazırlıq və keçirilməsi dövründə Qax və Şəki rayonlarının siyahıyaalma işçilərinə təhkimçi kimi əyani yardım göstərmişdir.

Azərbaycan statistika sistemində fəaliyyətə başladığı dövrdən tutduğu vəzifələrdə özünü yalnız müsbət tərəfdən göstərdiyi işlər nəzərə alınaraq F.Abidov 1964-cü ildə Bakı Şəhər Statistika İdarəsinin rəisi vəzifəsinə təyin edilmiş və 1960-cı ildən təqaüdə çıxanadək Azərbaycan SSR MSİ-nin kollegiya üzvü olmuşdur.

F.Abidovun ölkədə statistika üzrə mütəxəssislərin yetişməsində də böyük rolu olmuşdur. Onun yetişdirdiyi kadrlardan ikisi (Ş.Məmmədov, V.Çinçik) MSİ sədrinin müavinləri vəzifəsinədək yüksəlmiş, üçü (S.Məmmədov, V.Çinçik, A.Voronkova) “Azərbaycan SSR əməkdar iqtisadçısı” adına layiq görülmüş, 1-i (A.Mansurov) 37 il ərzində kollegiyanın üzvü olmuş və Azərbaycanın müstəqilliyi dövründə ölkə statistika sistemində birinci olaraq üçüncü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunmuş, işçilərindən 7-si (N.Bojakina, L.Maryina, A.Voronkova, A.Mansurov, Y.Əliyeva, V.Muradova, R.Lazımova) şöbə müdiri vəzifəsində çalışmışdır.

F.Abidov bir statistik kimi yalnız Azərbaycanda deyil, SSRİ miqyasında da tanınmış və qiymətləndirilmişdir. Onun statistika sahəsində bilik və təcrübəsi nəzərə alınaraq SSRİ MSİ tərəfindən BMT-nin eksperti kimi inkişaf etməkdə olan ölkələrdə statistikanın yaradılması və qurulmasına cəlb olunmuşdur. F.Abidov 1968-ci ilin noyabrından 1970-ci ilin noyabrına qədər Konqo Xalq Respublikasında (indiki Konqo Respublikası) statistika üzrə məsləhətçi qismində,

1975-ci ilin martından 1977-ci ilin avqustuna qədər Kuba Respublikasında müşavir qismində çalışmışdır.

O, statistika sistemində işləməklə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisadiyyat Universiteti) və Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) "Tikinti statiskası"ndan dərs deyərək gənc mütəxəssislərin yetişməsində fəal iştirak etmişdir.

F.Abidov Bakı Şəhər Sovetinin deputatı olmuşdur. O, 1959-cu ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına, 1966-cı ildə "Şərəf nişanı" ordeninə, 1970-ci ildə "Əməkdə şücaətinə görə" medalına, 1978-ci ildə "Azərbaycanın əməkdar iqtisadçısı" adına, 1986-cı ildə isə "Əmək veteranı" medalına layiq görülmüşdür. Statistika sahəsində xidmətlərinə görə F.Abidovun adı SSRİ MSİ-nin və Azərbaycan SSR MSİ-nin "Fəxri kitabı"na daxil edilmişdir.

F.Abidov 1989-cu ildə öz arzusu ilə Bakı Şəhər Statistika İdarəsinin rəisi vəzifəsindən azad olunaraq, pensiyaya çıxmışdır. Lakin o, bundan sonra da statistiklərə öz köməyini əsirgəməmişdir. Bakı Şəhər Statistika İdarəsinin yeni rəhbərliyinin təklifi ilə idarədə rəis müavini vəzifəsində çalışmışdır.

Fikrət Abidov 2002-ci ildə Bakıda vəfat etmişdir.

## Məqalələrin təqdimolunma qaydaları

"Statistika xəbərləri" elmi-praktik jurnalı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli, 2621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"na uyğun olaraq Dövlət Statistika Komitəsinin təsisçiliyi ilə nəşr olunur.

Jurnal 07.10.2015-ci il tarixində 4004 nömrəsi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilmiş, İSSN 2413-6557 nömrəsi ilə Beynəlxalq Standart Seriya Nömrəsi Beynəlxalq Mərkəzində qeydiyyatdan keçirilmiş və 31 mart 2017-ci il tarixli (Protokol № 06-R) qərarla Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyəti tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəticələrin siyahısı"na iqtisad elmləri üzrə daxil edilmişdir.

Jurnalda statistika elminin nəzəri-metodoloji əsasları, iqtisadi, sosial, ekoloji və demoqrafik proseslərin statistik təhlili, iqtisadiyyat və sosial sahələr ilə bağlı digər məqalələrə üstünlük verilməklə başqa nəşrlərə təqdim edilməmiş məqalələr dərc olunur. Məqalələr azərbaycan, rus və ingilis dillərindən birində hazırlanmalıdır.

### Redaksiyaya göndərilən məqalələrdə müəlliflər aşağıdakıları nəzərə almalıdırlar:

1. Məqalə qrafiki materiallar, cədvəllər, düsturlar, xülasə və ədəbiyyat siyahısı daxil olmaqla ümumi həcmi 10 səhifədən çox olmamalı və azərbaycan, rus və ya ingilis dillərindən birində hazırlanmalıdır.
2. Məqalə kağızda və ya elektron versiyada olmalıdır. Kağız versiyası imzalanmış şəkildə redaksiyaya təqdim edilməli, elektron versiyası isə kompakt diskdə verilə, yaxud jurnalın elektron poçtuna (stat.xeber@stat.gov.az) göndərilə bilər.
3. Mətn Microsoft Office Word proqramında **A4** formatda, **Times New Roman–12** şriftində, **1,0** intervalında yığılmalı, soldan **25 mm**, sağdan **15 mm**, yuxarıdan **20 mm**, aşağıdan isə **19 mm** boş sahə buraxılmalıdır.
4. Məqalələr aşağıdakı ardıcıllıqla tərtib edilməlidir: məqalənin adı (böyük hərflərlə, qalın şriftlə), müəllifin adı və soyadı (yalnız ilk hərfləri böyük olmaqla, qalın şriftlə), açar sözlər, mətn, xülasə və ədəbiyyat siyahısı. Məqalədə yarımbaşlıqlardan istifadə edildiyi halda, onun yalnız ilk hərfi böyük olmaqla, qalın şriftlə və nömrələnməklə yazılmalıdır. Başlıq və yarımbaşlıqlardan, cədvəl və şəkillərdən əvvəl və sonra əlavə bir sətir ara boşluğu buraxılmalıdır. Mətndə sözlər bütöv yazılmalı, "-" işarəsi ilə sətirdən-sətrə keçirilməməlidir.
5. Cədvəl və şəkillərin adı olmalı və bu ad cədvəllər üçün cədvəlin üstündə sağ küncdə, şəkillər üçün şəklin sol küncündə yerləşdirilərək ərəb rəqəmləri ilə ardıcıl nömrələndirilən müvafiq olaraq "cədvəl" və "şəkil" sözlərindən sonra yazılmalıdır. Cədvəl və şəkillərin başlıqlarının ilk hərifləri böyük olmaqla qalın şriftlə yazılmalıdır. Cədvəlin sütunlarının adı qısa olmalı, ölçü vahidləri göstərilməlidir.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elekron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinad olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba sırası ilə və ya mətndə istinad olunan ədəbiyyatların rast gəlindiyi ardıcıllıqla nömrələnməlidir (məsələn, [1] və ya [1, səh.119] kimi işarə olunmalı). Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi

Qaydaları" haqqında təlimatın 10.2-10.4.6 maddələrinə əsasən "İstifadə edilmiş ədəbiyyat" bölməsinin tələblərinə riayət etmək lazımdır.

9. Xülasə məqalənin hazırlandığı dildən əlavə başqa iki dildə verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-biri ilə eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam ad(lar)ı göstərilməlidir. Xülasələrin həcminin 8-10 sətir olması tövsiyə olunur.
10. Hər məqalədə UOT indeksi, PACS kod tipi və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməli (məqalə və xülasənin yazıldığı dillər) və 5 sözdən az olmamalıdır.
11. Siyahıda göstərilən ədəbiyyatların müəlliflərinin soyadı, adının ilk hərfi, mənbənin adı, nəşr yeri və çap olunduğu il göstərilməlidir. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrə üstünlük verilməlidir.
12. Təqdim edilən əlyazmalara redaksiya heyəti tərəfindən baxıldıqdan sonra onun dərc edilib-edilməməsinə qərar verilir və bununla bağlı müəllif məqalə qəbul olunduqdan sonra ən gec bir ay müddətində yazılı şəkildə məlumatlandırılır.
13. Məqalə müəllif(lər)inə redaksiya tərəfindən bir nüsxə jurnal pulsuz verilir, jurnalın elektron versiyası isə Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilir.
14. Müəllif(lər) məqalənin keyfiyyətinə, göstərilən faktların və elmi nəticələrin doğruluğuna və digər məlumatlara görə cavabdehlik daşıyır.

**Redaksiyanın ünvanı:** Dövlət Statistika Komitəsi, AZ 1136, Bakı şəh., İnşaatçılar pr. 81.
**Tel:** (012) 538 77 19
**e-poçt:** stat.xeber@stat.gov.az

## Правила представления статей

Научно-практический журнал «Вестник статистики» был учрежден Государственным Комитетом по Статистике Азербайджанской Республики во исполнение «Государственной Программы развития официальной статистики в Азербайджанской Республике в 2013-2017 гг.», утвержденной Указом Президента Азербайджанской Республики от 21 декабря 2012 года за № 2621.

7 октября 2015 года журнал был включен в реестр печатных изданий Министерства Юстиции Азербайджанской Республики под № 4004, зарегистрирован в Международном Центре, получил Международный стандартный серийный номер ISSN 2413-6557 и по решению Президиума Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики от 31 марта 2017 года (Протокол № 06-R) включен в «список научных публикаций, рекомендованных для публикации основных результатов диссертаций по экономическим наукам в Азербайджанской Республике».

В журнале издаются статьи, в которых затрагиваются вопросы теоретико-методологических основ статистической науки, статистического анализа экономических, социальных, экологических и демографических процессов, а также другие статьи, по экономической и социальной проблематике, которые не были опубликованы в других изданиях. Статьи подготавливаются на азербайджанском, русском или английском языках.

### Авторы, предоставляющие в редакцию статьи должны учитывать следующее:

1. Статья не должна быть больше 10 страниц, включая графические материалы, таблицы, формулы, резюме и список литературы и должна быть написана на одном из трех языков: азербайджанском, русском или английском.
2. Статья должна быть в электронном форме и на бумажном носителе. Бумажная версия статьи должна быть предоставлена в редакцию журнала с соответствующей подписью

автора, а электронная версия может быть предоставлена в редакцию журнала на компакт диске или выслана по электронной почте (stat.xeber@stat.gov.az).

3. Текст статьи должен быть набран с помощью программы Microsoft Office Word в формате **A4**. Шрифт текста **Times New Roman**, размер шрифта **12**, интервал **1,0**. На страницах оставляются поля слева **25 мм**, справа **15 мм**, сверху **20 мм** и снизу **19 мм**.
4. Статьи должны оформляться в следующей последовательности: название статьи (выделяются прописными буквами, жирным шрифтом), имя и фамилия автора (только первые буквы прописными, жирным шрифтом), ключевые слова, текст, резюме и список литературы. При использовании в статье подзаголовков, только первые буквы должны быть выделенными, жирным шрифтом и пронумерованы. Перед и после заголовка и подзаголовка, таблиц и рисунков необходимо оставлять промежуток размером в один интервал. Слова в статье должны писаться полностью, слова нельзя переносить с одной строки на другую с использованием знака «-».
5. Таблицы и рисунки должны иметь заголовки. Заголовки для таблиц должны быть размещены в правом углу над таблицей, для рисунков в левом углу под рисунком. Заголовки должны быть напечатаны, после последовательно пронумерованых арабскими цифрами соответствующих слов «таблица» и «рисунок». Заголовки таблиц и рисунков должны быть напечатаны прописными буквами и жирным шрифтом. Название колонок таблицы должны быть короткими, должны быть указаны единицы измерения.
6. В статье должны быть указаны название учреждения (учреждений), в котором работает автор (авторы) и адрес (адреса) данного учреждения (учреждений), адрес (адреса) электронной почты автора (авторов).
7. В конце научной статьи в соответствии с характером статьи и областью науки должны быть четко отмечены научные выводы, к которым пришел автор (авторы), научная новизна, практическая значимость и экономическая эффективность работы и т. д.
8. Должны быть ссылки на научные источники, связанные с темой статьи. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован в алфавитном порядке или в последовательности в которой встречается ссылаемая литература в тексте (например, обозначаться как [1] или [1, стр. 119]). При повторной ссылке на одну и ту же литературу в другом месте, ссылаемая литература должна быть пронумерована предыдущим номером. Ссылаясь на одни и те же статьи, тезисы симпозиумов, конференций и других влиятельных научных мероприятий должны быть указаны названия статей, докладов и тезисов. При библиографическом описании ссылаемого источника нужно следовать требованиям пункта 10.2-10.4.6 раздела «Использованная литература» инструкции о «Правилах оформлении диссертаций» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.
9. Резюме должно быть представлено на двух других языках, отличающихся от языка, на котором написана статья. Резюме статьи, написанные на разных языках должны быть одинаковыми и должны соответствовать содержанию статьи. Научные выводы, к которым пришли автор или авторы, научная новизна, практическая значимость и экономическая эффективность работы и т.д. должны кратко отражаться в резюме. В каждом резюме должно указываться название статьи, полное имя автора или авторов. Рекомендуется писать резюме объемом 8-10 строк.
10. В каждой статье должны указываться индексы UOT, коды типа PACS и ключевые слова. Ключевые слова должны даваться на трех языках (языки на которых написаны статья и резюме) и не должны быть меньше 5 слов.
11. Для литературы указанного в списке должны указываться фамилии и первые буквы имен авторов, название источника, место и год издания. В списке литературы должно даваться предпочтение научным статьям, монографиям и другим достоверным источникам последних 5-10 лет.

12. Решение о публикации или не публикации предоставленной рукописи принимается после ее рассмотрения редакционным советом и в связи с этим автор письменно уведомляется не позднее 1 месяца после принятия статьи.
13. Автору (авторам) статьи со стороны редакции бесплатно предоставляется 1 экземпляр журнала, а электронная версия журнала размещается на интернет странице Государственного Комитета по Статистике.
14. Автор несет ответственность за качество статьи, достоверность предоставленных фактов, научных результатов и прочей информации.

**Адрес редакции:** Государственный Комитет по Статистике, AZ 1136, г. Баку,
пр. Иншаатчылар 81.
**Тел:** (012) 538 77 19
**e-mail:** stat.xeber@stat.gov.az

## Rules for presentation of articles

Scientific-practical journal “Statistical news” is published by the State Statistical Committee in accordance with the "State Program for the Development of Official Statistics in the Republic of Azerbaijan for 2013-2017", approved by the Decree of the President of the Republic of Azerbaijan dated December 21, 2012, No. 2621.

The journal was registered on July 7, 2015 with the number 4004 in the Ministry of Justice of the Republic of Azerbaijan and included in the International Standard Serial Number International Center of ISSN 2413-6557 and signed on 31 March 2017 (Protocol No: 06-R ) by the Presidium of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan “on the list of the periodical scientific results recommended for publication of the main results of the dissertations in the Republic of Azerbaijan”.

The theoretical and methodological bases of statistical science, statistical analysis of economic, social, ecological and demographic processes, as well as other articles related to economics and social sciences are published in the journal. The articles must be developed in one of Azerbaijani, Russian and English languages.

**Authors have to take the followings into account:**

1. Total volume of article, including graphical materials, tables, formulas, summaries and list of literature should not exceed 10 pages and should be prepared either in Azerbaijan, English or Russian languages.
2. Article text should be in a paper or electronic form. Paper version must be submitted to editorial office in a signed form; an electronic version could be presented on CD or sent to e-mail (stat.xeber@stat.gov.az).
3. Article should be in Microsoft Office Word **A4** format, **Times New Roman**, Font **12**, line spacing – **1,0**, margins: left **- 25 mm**, right **- 15 mm**, top – **20 mm**, bottom – **19 mm**.
4. Article should be compiled in a following sequence: title of article (in capitals, bold), name and surname of author (only first letters in capitals, bold), keywords, text, summary and list of literature. If subtitles, only first letter is written in capitals, bold and numbered. Before and after titles and subtitles, tables and pictures it is necessary to skip down one space. Words in the text should be written completely, it shouldn’t be allowed to skip from line to line with a sign “-”.
5. Tables and pictures have to be titled and these titles for tables should be placed at the right corner of the top of the table, for pictures – at the left corner of the bottom of the picture; titles should be numbered by Arabic figures which have to be indicated correspondingly after words “table” and “picture”. First letters of titles of tables and pictures should be written in capitals and bold. Names of tables’ columns should be short and measurement units have to be indicated.
6. Institution(s) where author(s) works and address(es) of this (these) institution(s), e-mail(s) of author(s) should be indicated in the article.

7. At the end of research article the conclusions reached by author(s), scientific novelty of a paper, importance of its application, economic efficiency and etc. should be clearly indicated in accordance with nature of domain of science and article.
8. As regard to the subject of article the scientific sources should be referred. List of literature at the end of article should be numbered either by sequence of referred literature met in the text (for example, it should be indicated as [1] or [1, page 119] or by alphabetical order. If the same literature is referred again in another part of the text, then the referred literature should be indicated by previous number. When referring to the same articles, theses of symposiums, conferences and other important scientific events the title of article, paper or thesis has to be indicated. When specifying the bibliographic description of referred source it is necessary to rely on requirements of item 10.2-10.4.6 of the section "List of literature" of effective guideline on "Compilation rules of the dissertations" of the High Attestation Commission under the President of the Republic of Azerbaijan.
9. Summary should be provided in two languages other than language of article. Summaries of article in several languages should be the same and correspond to the content of article. Summary should reflect condensate of conclusions reached by author or authors, scientific novelty of a paper, importance of its application and etc. Each summary should specify title of article, full name(s) of author(s). It is recommended summary to be of 8-10 lines.
10. UOT indices or PACS-type codes and keywords should be specified in each article. Keywords should be given in three languages (languages of articles and summaries) and be not less than 5 words.
11. Surnames, first letter of names of authors of the used literature, source, place of publication and a year of issue should be specified in the list. In the list of literature scientific articles and monographs of the last 5-10 years and other reliable sources are preferable.
12. After editorial office staff reviews the presented manuscripts it is made decision whether publish it or not and the author is informed about it at the latest during a month.
13. Editorial office presents a copy of journal to author(s) of article free of charge; e-version of journal is posted on the web-page of the State Statistical Committee.
14. Author bears responsibility for quality of article, reliability of the indicated facts and scientific results and other information.

**Address of editorial office:** State Statistical Committee, Baku city, Inshaatchilar av. 81, AZ 1136.
**Tel:** (012) 538 77 19
**e-mail:** stat.xeber@stat.gov.az

**Korrektor:** Arzu Məmmədli

**Çapa imzalanmışdır:** //.//.2021